*Xeyrələr* daha çox «keyfiyyətli keramika» kateqoriyasına aiddirlər. Az hallarda «kobud keramika» kateqoriyasına aid xeyrələrə də rast gəlinir. Bu tip qabların ağız kənarı əsasən xaricdən qabarıqdır. Bəzən eyni zamanda ağız kənarını daxildən zəif çıxıntı əhatələyir.

*Kasalar* açıq qonur rənglidirlər. Onların düz ağız kənarı azacıq xaricə meyllidir. Çiyin hissəsi çıxıntılı olduğundan gövdə bikonik formalıdır.

Hər hansı bir qabın oturacaq hissəsi aşkar edilməmişdir. Belə ki, Leylatəpə mədəniyyətinə aid digər abidələrdə olduğu kimi Selaxan yaşayış yerində də istehsal edilmiş saxsı qablar yuvarlaq altlıqlı olmuşlar. Bu mədəniyyətə aid yastı və ya dabanlı oturacaqlı qablara təsadüfi hallarda rast gəlinir.

Daxili və yaxud xarici səthi tünd qırmızı boya ilə örtülmüş qab fraqmentləri tapılmışdır. «Kobud keramika» kateqoriyasına aid səthi "daraqlanmış" qab qalıqları da aşkar edilmişdir. Bir ədəd, divarında bişirilməzdən əvvəl çoxlu deşiklər açılmış, çox ehtimal ki, süzgəc funksiyalı qabın fraqmenti aşkar edilmişdir.

Keramika məmulatı içərisində bir neçə ədəd *diskşəkilli əşyaları* da qeyd etmək lazımdır (Tablo IV, №1-4). Onların hamısı fraqment halında aşkar edilmişdir. Əsasən bitki qatışıqlı gildən hazırlanmış qabların divar fraqmentlərindən düzəldilmiş disklərin ortasından ikitərəfli deşmə üsulu ilə deşik açılmışdır. Az hallarda bitki qatışığı olmayan diskşəkilli əşyalara da rast gəlinir. Onların diametri 5-6 sm-dir. Bir ədəd diskşəkilli əşya qab fraqmentindən deyil, çiy gildən formalaşdırılmış, sonra isə bişirilmişdir. Digər belə bir tapıntı yalnız I Böyük Kəsik yaşayış məskənindən məlumdur (3; 2).

***Daş məmulatı.*** Daş məmulatı erkən əkinçilik mədəniyyəti üçün səciyyəvi olan əmək alətlərindən ibarətdir. Əldə edilmiş taxılın üyüdülməsi üçün istifadə edilmiş dən daşları məsaməli tuf daşlarından hazırlanmışdır. Belə daş alətlər yalnız fraqmentlər halında aşkar edilmişdir.

Çay daşlarından hazırlanmış alətlər əsasən sürtgəc və dəstə tipli alətlərdən ibarətdir (Tablo IV, №5, 6). Yastı-uzunsov formaya malik bu alətlərin bəzən bir, bəzən isə hər iki sonluğundan istifadə edilmişdir. Çay daşından hazırlanmış bir neçə kiçik ölçülü alətlər tapılmışdır. Nazik uzunsov formalı bu alətlərin sonluqlarında zəif işlənmə izləri müşahidə edilir. Görünür, belə alətlərdən daha böyük diqqət tələb edilən kiçik həcmli işlərdə istifadə edilmişdir.

Daş məmulatının böyük əksəriyyətini kəsici alətlər təşkil edir (Tablo V). Çoxlu sayda belə alətlər həm yerüstü materiallar qismində, həm də qazıntı zamanı aşkar edilmişdir. Qərb bölgəsindəki Leylatəpə mədəniyyəti abidələrinin kəsici daş məmulatının başlıca fərqləndirici xüsusiyyəti onların böyük əksəriyyətinin (87-90%-nin) çaxmaq daşından hazırlanmasıdır (3). Bu baxımdan Selaxan yaşayış yeri də istisnalıq təşkil etmir. Burada aşkar edilmiş kəsici alətlərin böyük əksəriyyəti solğun yaşıl, boz və qonur rəngli müxtəlif növ çaxmaqdaşından hazırlanmışdır. Lövhəşəkilli bu alətlərin hər iki tərəfi dişəklənmişdir. Kəsici alətlərin bir qismini oraq dişləri təşkil edir ki, bu da öz növbəsində yaşayış yerinin qədim sakinlərinin oturaq əkinçiliklə məşğul olmasını bir daha sübut edir. Eyni zamanda, qaşov, sıyırğal funksiyalı alətlər və nukleuslar da aşkar edilmişdir. Obsidiandan hazırlanmış qəlpələrə təsadüfi hallarda rast gəlinir.

Beləliklə, Azərbaycanın qərb bölgəsində Leylatəpə mədəniyyətinə aid çoxsaylı abidələrin aşkar olunması ilk növbədə bu mədəniyyətin son eneolit dövründə – e.ə. IV min. birinci yarısında daha geniş arealda və intensiv şəkildə yayıldığını göstərir. Digər tərəfdən, həm qazıntıların aparıldığı, həm də ilkin kəşfiyyat işlərinin aparıldığı abidələrin tapıntıları Leylatəpə mədəniyyətinin daha ətraflı araşdırılması üçün zəngin materiallar vermişdir. Müəyyən edilmişdir ki, Leylatəpə mədəniyyəti yaşayış məskənlərinin başlıca xüsusiyyətlərindən biri onların lokal qruplar halında yerləşməsidir.

Keramika məmulatının əsas xüsusiyyətləri bu abidələrin və bütövlükdə Leylatəpə mədəniyyətinin bir tərəfdən Ön Asiya, digər tərəfdən isə Şimali Qafqazın Maykop mədəniyyəti ilə bağlı olduğunu sübut edir. Saxsı qabların tipoloji olaraq ən yaxın paralelləri Şərqi Anadolu – Şimali Mesopotamiya bölgələrindəki Arslantəpə, Təpə Qavra, Tell Xəznə (12; 10; 13; 11; 8) və s. abidələrdən məlumdur. Maykop mədəniyyətinin erkən mərhələsinə aid demək olar ki, bütün abidələrdən belə qablar, o cümlədən üzərində "dulusçu işarələri" olan qablar aşkar edilmişdir (6; 7).

Ümumiyyətlə, son araşdırmalar Leylatəpə arxeoloji mədəniyyətinin əvvəllər hesab edildiyi kimi, Ubeyd və ya Uruk abidələri ilə bağlı olmadığını sübut edir. Leylatəpə mədəniyyətinə aid abidələrin tədqiqi bu mədəniyyətin mənşə etibarilə Uruk mədəniyyətinin Şimali Mesopotamiya və Şərqi Anadoluya yayılmasına qədərki post-ubeyd dövrü son xalkolit mədəniyyəti daşıyıcılarının həmin bölgələrdən Cənubi Qafqaza miqrasiyası nəticəsində meydana çıxdığını və Şimali Qafqazda Maykop mədəniyyətinin yaranması üçün bir mənbə olduğunu təsdiq edir.

## ƏDƏBIYYAT


1. Müseyibli N.Ə. Ağstafa rayonunda son eneolit dövrü kurqanları. // *«Azərbaycan arxeologiyası» jurnalı. Səh. 11-17. Bakı, 2005, №1-4.*
2. Müseyibli N. Böyük Kəsik eneolit dövrü yaşayış məskəni. Bakı, 2007.
3. Müseyibli N.Ə. Eneolit dövrü I Böyük Kəsik yaşayış məskənində arxeoloji qazıntıların nəticələri *// «Azərbaycan arxeologiyası və etnoqrafiyası» jurnalı. 2006, №1, Bakı.*
4. Müseyibli N.Ə. Eneolit dövrü II Poylu yaşayış yerində arxeoloji qazıntılar *// «Azərbaycan arxeologiyası və etnoqrafiyası» jurnalı. 2008, №1. Bakı*
5. Алиев Н., Нариманов И. Культура северного Азербайджана в эпоху позднего энеолита. Баку, 2001.
6. Кореневский С.Н. Знаковая керамика Кавказа эпохи энеолита и ранней бронзы // *Древности Северного Кавказа. Москва, 1999, 7-23*
7. Мунчаев Р.М. Кавказ на заре бронзового века. Москва, 1975
8. Мунчаев Р. М., Мерперт Н. Я., Амиров Ш. Н. Телль Хазна I: Культово-административный центр IV–III тыс. до н. э. в северо-восточной Сирии. Москва, 2004

9. Нариманов И.Г. Обейдские племена Месопотамии в Азербайджане // *Всесоюзная археологическая конференция "Достижения советской археологии в XI пятилетке". Тезисы докладов. Баку, 1985, 271-272*
10. Braidwood R.J., Braidwood L.S. Excavations in the Plain of Antioch. Oriental İnstitute Publications L.X:. University of Chicago Press. Chicago, 1960
11. Frangipane M. Yakındoğuda devletinin doğuşu. İstanbul, 2002
12. Tobler A. İ. Excavations at Tepe Gawra. Philadelphia, 1950, Vol. II
13. Trufelli F. Standardisation, mass production and potter's marks in the late chalcolithic potteri of Arslantepe (Malatya). *Origini. Roma. Vol. XVIII. 1994, 245-289.*

## SETTLEMENTS OF LEILATEPE CULTURE IN WESTERN REGION OF AZERBAIJAN

**Najaf Museibli**

### Summary

**Key words: Beyuk Kesik, Selakhan, settlement, chalcolithic, Front Asian**

As a result of archaeological researches in western Azerbaijan, due to the construction of the Baku - Tbilisi – Jeyhan pipeline was identified and studied such settlements as Boyuk Kesik I, Poylu I, Poylu II, Agili dere and kurgans of Soyugbulag. All these monuments date from the IV millennium BC and refer to the Leilatepe archaeological culture.

In the following years, during the exploratory works in the territory of Agstafa district were discovered some other settlements of Leilatepe culture: Boyuk Kesik II, Boyuk Kesik III and Boyuk Kesik Selahan. Monuments are located (from 350 m to 1.5 km) not far from the settlement of Boyuk Kesik I. In all areas the cultural layer is located mostly below the current level. In the settlements Boyuk Kesik II and III were collected surface material, but in Selahan was dug an exploring pit/shaft.

Archaeological material, especially ceramics, is identical with finds from the settlements Boyuk Kesik I, Poylu, Leilatepe, close to the Front Asian, and the Maikop culture of the North Caucasus. Like other monuments of Leilatepe culture these settlements, in their origins are not related to Ubaid or Uruk cultures as it is considered by many researchers, but to the Late Chalcolit of post-Ubaid period of Eastern Anatolia - Northern Mesopotamia of the end of V - early IV millennia BC. Uruk culture spread in the regions of Front Asia only since the mid IV millennium BC that is, since the end of Leilatepe culture in the South Caucasus. Therefore, no

links existed between the Leilatepe and Uruk cultures and the archeological facts did prove the spread of Uruk culture in the South Caucasus.

## ПОСЕЛЕНИЯ ЛЕЙЛАТЕПИНСКОЙ КУЛЬТУРЫ В ЗАПАДНОМ РЕГИОНЕ АЗЕРБАЙДЖАНА

**Наджаф Мусеибли**

**Резюме**

**Ключевые слова: Беюк Кесик, Селахан, поселение, энеолит, Передняя Азия**

В результате археологических исследований в западном Азербайджане, в связи со строительством нефтепровода Баку – Тбилиси – Джейхан, выявлены и изучены такие поселения как Беюк Кесик I, Пойлу I, Пойлу II, Агылы дере и курганы Союгбулага. Все эти памятники датируются началом IV тыс. до н.э. и относятся к лейлатепинской археологической культуре.

В последующие годы на территории Акстафинского района, во время разведочных работ, обнаружены еще несколько поселений лейлатепинской культуры: Беюк Кесик II, Беюк Кесик III и Селахан. Памятники находятся (от 350 м., до 1,5 км.) недалеко от поселения Беюк Кесик I. На всех участках культурный слой расположен, в основном, ниже современного уровня. На поселениях Беюк Кесик II и III собран подъемный материал, а на Селахан заложен шурф.

Археологический материал, особенно керамика, идентиченый с находками поселений Беюк Кесик I, Пойлу, Лейлатепе, близок с Передней Азией, и с майкопской культурой Северного Кавказа. Эти поселении, как и другие памятники лейлатепинской культуры, по своему происхождению связаны не с убейдской или урукской культурами, как считают многие исследователи, а с поздним халколитом пост-убейдского времени Восточной Анатолии – Северной Месопотамии конца V – нач. IV тыс. до н.э. Урукская культура распространилась в этих регионах Передней Азии только начиная с середины IV тыс. до н.э., т.е. после прекращения существования лейлатепинской культуры на Южном Кавказе. Поэтому можно утверждать, что между лейлатепинской и урукской культурами никаких связей не существовало и распространение урукской культуры на Южном Кавказе археологическими фактами не доказано.

Tablo I



Tablo II



Tablo III



Tablo IV






Tablo V



# CƏNUBİ QAFQAZIN ENEOLİT VƏ TUNC DÖVRÜ KURQAN MƏDƏNİYYƏTİNİN ETNO-GENETİK İNTERPRETASİYASINDA RİQVEDA MƏLUMATLARINDAN İSTİFADƏ METODUNA DAİR


**Pərviz Qasımov**
gasimovparviz@yahoo.com
(AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutu)



**Açar sözlər: kurqanlar, tunc dövrü, Riqveda, Sarasvati vadisi sivilizasiyası**


Kökləri Ön Asiya və Cənubi Qafqazla genetik bağlı olan Mərkəzi Qafqazın eneolit və tunc dövrü kurqanlarının dəfn ənənəsinin etno-genetik interpretasiyasına və mədəniyyətin atributlarının semantikası mövzusuna həsr edilmiş tədqiqatlarda müşahidə edilən tendensiyaya görə, sovet – rus alimləri daha çox Riqvedanın verdiyi bilgilərə əsaslanırlar.

Bu baxımdan, Şimali və Mərkəzi Qafqazın eneolit-tunc dövrü kurqan dəfn ənənəsinin interpretasiyasında və atributların semantikasında Riqveda bilgilərinə daha çox istinad etmiş görkəmli və tanınmış arxeoloqlar içərisində mərhum V.L. Rostunovun [1], son tunc və dəmir dövrü Rusiya və Orta Asiya respublikaları ərazisində qeydə alınmış kurqan dəfn xüsusiyyətlərinin interpretasiyasında Y.Y. Kuzminanın [2], L.S. Kleynin [3, s. 37 - 44], P.K. Daşkovskinin, A.A. Tişkinin, İ.Y. Leonovanın [4;5], tədqiqat metodu ciddi tənqid edilən Y.A. Şılovun [1, s. 37; 3, s. 176 – 179] və digərlərinin tədqiqatlarını göstərmək olar.

Bir məsələni də qeyd etmək istərdik ki, Riqveda əsasında Şimali və Mərkəzi Qafqaz eneolit və tunc dövrü kurqan mədəniyyətini hind-avropalılara və ya hind-iranlılara bağlayan V.L. Rostunov dolayısı ilə Ön Asiyanın, Azərbaycan üzərindən keçərək Şimali Qafqaza gəlmiş qədim mədəniyyətlərinin də Hind-Avropa mənşəli olmasına ehtimal üçün əsas yaratmışdır [1, s. 62, 98, 192]. Yəni, sovet və müasir rus elmində mövcud və inkişafda olan tendensiyaya görə, Ön Asiya mənşəli eneolit mədəniyyətlərinin (Übeyd və Uruk), həmçinin, tunc dövrü kurqan mədəniyyətinin (əsasən Kür-Araz) də Hind-Avropalı və ya Hind-İran mənşəli olması haqqında fikirlərin peyda olması gözləniləndir. Belə ki, Ermənistanda artıq Kür-Araz mədəniyyəti kurqanlarının dəfn ənənəsinə Riqveda materialı zəminində Hind-Avropalılara mənsubluq interpretasiyası verilməsi tendensiyası müşahidə edilir [6; 7].

Ümumiyyətlə götürdükdə, amerikalı hindoloq Edvin Brayant yazıyaqədərki mədəniyyətlər barədə arxeoloji dəlillərin intrepretasiyasında Y.Y. Kuzmina və L.S. Kleynin daim Riqvedaya istinad metodunu tənqid edərək yazır: “Aydındır ki, bu cür meyillilikdə istənilən məsum bir detal sanskrit

ədəbiyyatından olan nə iləsə uzlaşdırıla və hind-arilərin iştirakı barədə sübut kimi interpretasiya oluna bilər” [8, s. 206 – 207]. Problemə konkret yanaşdıqda isə, hələ 2007-ci ildə V.L. Rostunovun göstərilən əsərinə öz rəyində AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun elmi əməkdaşı tədqiqatçı T. Axundov müəllifin Maykop mədəniyyətini yalnız Hind-Avropa əsasları baxımından analiz etdiyini və analiz edilən mədəniyyət abidələrinin digər genetik başlanğıclarına çox zəif toxunduğunu qeyd etmişdir [9].

Beləliklə, qeyd etdiyimiz alimlərinin tədqiqatlarında ən zəif cəhət odur ki, onlar Riqvedanı qədim hind-avropalıların dini-kosmoqonik baxışlarını, etnoqrafik xüsusiyyətlərini əks etdirən, az qala “təmiz” hind-ari ədəbi nümunəsi kimi göstərir, son tədqiqatlar nəticəsində Riqvedada aşkar edilmiş hind-arilərədək yerli sivilizasiya substratının və ya kənar sivilizasiyaların təsirini nəzərə almırlar.

Dini-kosmoqonik himnlər toplusu olan Riqveda barəsində uzun müddət elmdə formalaşmış fikirlər belə bir nəzəriyyə ***(“hind-iranlıların (arilərin) Hindistana müdaxiləsi (Ari müdaxiləsi)” nəzəriyyəsi - (“Aryan invasion” theory))*** ortaya qoymuşdu ki, e.ə. II minillikdə Hindistan ərazisinə axın etmiş köçəri –maldar hind-iranlılar (arilər) burada mövcud və yüksək inkişaf etmiş Harappa, Mohenco-daro sivilizasiyasını (bu sivilizasiyanı elmi ədəbiyyatda daha çox «İnd vadisi sivilizasiyası», son dövrlərdə isə «Sarasvati (çayı) vadisi sivilizasiyası» adlandırırlar) məhv etmiş və qədim Hindistan ərazisinə yeni dini dünyabaxışı (Riqvedada əks edilmiş) və dil gətirmişlər. Sarasvati vadisi sivilizasiyasının (*Sarasvati valley civilization)* yaradıcılarını isə, elmdə Hindistanın cənubunda və Orta Şərq regionunda, həmçinin Cənub-Şərqi Asiyada yayılmış əsasən müasir dravid dilli (həmçinin, munda və d.) etnosların əcdadları hesab edirdilər. Gəlmə hind-iranlı (ari) istilaçıları ilə sonrakı əlaqələrin artmasından irəli gələrək Riqveda kimi dini – kosmoqonik dünyagörüşü əsasında formalaşan induizmə bir sıra aborigen (dravid, munda və digər) köklü dini-əfsanəvi personajlar, süjetlər daxil olmuş, yerli aborigen mədəniyyət gəlmələri öz içərisində mədəni-etnoqrafik baxımdan əritmişdir. Eyni zamanda hind-farslar Hindistana kasta sistemini bəxş etmişlər.

Sarasvati vadisi sivilizasiyasının arxeoloji tədqiqatları, həmçinin, qədim hind (ilk növbədə sanskrit) və İran dilləri üzərində aparılan araşdırmalar belə bir nəticə ortaya qoyur ki, mövzu üzrə XX əsrin əvvəlindən ortalarına qədər mövcud olmuş fikirlər artıq özünü doğrultmur. Arxeologiya, etnologiya, toponimika və dilçilik üzrə tədqiqatlar ilkin dravid və Sarasvati vadisi sivilizasiyası substratının Riqvedada (və o cümlədən, sanskrit dilinin özündə də; belə ki, tanınmış amerikalı hindoloq və arxeoloq Corc Erdosiyə görə, “qədim hind-ari dillərində dravid elementlərinin mövcudluğunu, həqiqətə uyğun olaraq, belə izah etmək olar ki, qədim hind-ari

dillərinin daşıyıcıları üçün dravid dili doğma idi, hansını ki onlar tədricən unutdular" [10, s. 18]) indiyədək hesab ediləndən də daha çox olduğunu göstərməkdədir [8; 10; 11; 12; 13; 14; 15; 16].

Həmçinin, son 30 ildə arxeoloji, kulturoloji, filoloji və d. sahələr üzrə toplanmış materiallar "Ari müdaxiləsi" nəzəriyyəsini sual alıtnda qoymuşdur. XIX əsrdə Fridrix Şlegel tərəfindən irəli sürülmüş "Hindistandan getmə" nəzəriyyəsi (***"Out of India" theory*** ) artıq tam ayrı bir şəkildə yenidən ortaya atılmışdır. Hind mənşəli alimlər əsasən "Arilərin Hindistana müdaxiləsi" nəzəriyyəsinin əsasının olmadığını və XVIII – XIX əsrlərdə avropalıların müstəmləkəçilik siyasətinə xidmət etdiyini bildirir, ortaya qoyduqları "Hindistandan getmə" nəzəriyyəsində Sarasvati vadisi sivilizasiyasının qədim hind-iranlılar tərəfindən yaradıldığını və hind-iranlıların məhz qədim Hindistandan Mərkəzi, Orta və Ön Asiyaya, oradan Avropaya yayıldığını iddia edirlər. Nə qədər inanılmaz görünsə də, bu nəzəriyyənin tərəfdarları arasında tanınmış hind alimləri Ş. Talageri, B.B. Lal [17; 18; 19], N.S. Rajaram və d. ilə yanaşı samballı Qərb hindoloqları [20; 21; 22] da vardır.

XX əsrin tanımış dilçi alimi, alman mənşəli Kanada hindoloqu K. Klostermayer tanınmış hindoloqlar G.Feuerstein, S.Kak, D.Frawleynin birgə yazdıqları əsərinə ("In search of the Cradle of Civilization", Wheaton: Quest Books, III., 1996) istinad edərək "Ari müdaxiləsi" nəzəriyyəsinə qarşı 17 arqumenti əsas gətirir. Bu arqumentlərin bir neçəsini göstərək [21, s.7 - 9]:

"…3) Qədim Hind mənbələrində işğal və ya geniş miqyaslı miqrasiya barəsində heç bir xatırlama yoxdur – onlar nə Vedalarda, nə Buddist və ya Caynist mətnlərdə, nə də Tamil ədəbiyyatında yoxdurlar. Riqvedada təsvir olunan fauna və flora, məkan, iqlim Hindistanın şimal hissəsi üçün xarakterikdir;

4) İnd – Sarasvati sivilizasiyaları dövrünün arxeoloji tapıntıları və sonrakı Hind cəmiyyəti və mədəniyyəti arasında heyranedici vərəsəlik mövcuddur: dini təsəvvürlərin, incəsənətin, sənətlərin, memarlığın, ölçü və çəki sistemlərinin vərəsəliyi;

5) Merqardakı arxeoloji tapıntılar (e.ə. 3000 illər) - mis, iribuynuzlu qaramal, arpa vedik hindlilərin mədəniyyəti ilə oxşar mədəniyyətlərə şahidlik edir. Əvvəlki şərhlərə əks olaraq Riqveda köçəri deyil, şəhər həyat tərzini təsvir edir («purusa» - pur vasa= «şəhər sakini»ndən törəmədir);

6) Ari müdaxiləsi nəzəriyyəsi belə bir ehtimala əsaslanırdı ki, atlara və ikitəkərli döyüş arabalarına (elmi terminologiyada ingiliscə «chariot», rusca «колесница» - P.Q.) malik köçərilər, atları tanımayan şəhər sivilizasiyasını dağıtmışlar və atların təsvirləri (Hindistanda – P.Q.) yalnız e.ə. II minilliyin ortasından peyda olur. Digəl ki, Harappa və Harappayaqədər dövrdəki məskənlərdə atların mövcudluğu barədə arxeoloji sübutlar tapılmışdır; Hindis-

tanda atların təsvirləri paleolit dövrünə aid mağaralarda tapılmışdır.. Atların qoşulduğu ikitəkərli cəng apabaları maldar – köçərilər üçün tipik deyil, onlar məhz şəhər sivilizasiyaları üçün xarakterikdir [23];..

8) Riqveda Şimali Hindistanda e.ə. 1900-cü illərədək (Sarasvati çayı misalında) və e.ə. 2600-cı ilədək (Drişadvati çayı misalında) mövcud çay şəbəkələrini təsvir edir. Vedik ədəbiyyatda əhalinin Sarasvatidən (*Riqveda*) Qanqa (*Brahmanlar* və *Puranalar*) miqrasiyası təsvir edilir, bu da arxeoloji tapıntılarla isbat olunur;..

10) İnd vadisi şəhərləri işğalçılar tərəfindən məhv edilməmişdi, regionun səhraya çevrilməsi səbəbindən əhali tərəfindən tərk edilmişdi. Strabon «Coğrafiyada» (XV.1.19) məlumat verir ki, Aristobul, orada İnd çayının məcrasını dəyişməsi səbəbindən tərk edilmiş minlərlə kənd və şəhər görmüşdür;

11) Riqvedada təsvir edilmiş savaşlarda işğalçılar və yerli sakinlər deyil, eyni mədəniyyətə mənsub insanlar döyüşürdülər;

13) Harappa yazısı ilə Brahmi və Devanaqari yazılarında morfoloji fasiləsizlik;

14) Əvvəllər «dəmir» kimi tərcümə olunan «ayas» vedik sözü çox güman ki, misi və ya tuncu ifadə edirdi. Hindistanda dəmiri Kəşmir və Dvarakda e.ə. 1500-cü illərdə tapmışlar;..

16) Riqvedanın özü inkişaf etmiş və təkmilləşmiş mədəniyyətin nümunəsidir, «Hindistana at belində gətirilməsi mümkün olmayan sivilizasiyanın» uzun inkişafının məhsulu idi;

17) Məlum oldu ki, e.ə. 1100-cü illərə aid, Qanqın qərbindən olan "boz naxışlı keramika" (bu mədəniyyəti Hindistana gəlmə hind-arilərlə bağlayırdılar – P.Q. [11]) daha qədim boz və qırmızı keramika ilə əlaqəlidir və i.a."

Daha sonra Klaus Klostermayer bir maraqlı və "Ari müdaxiləsi" nəzəriyyəsi baxımından paradoksal faktı da vurğulayır. Vedik mifologiyada Riqvedanın bir neçə himninin müəllifi kimi tanınan, Yeddi İlahi Müdriklərdən biri hesab edilən rişi Vaşisthanın indiyədək mövcud təsvirinin prototipi (misdən olan heykəlcik – "Vaşistanın başı"// "Vashista head") ötən əsrin 90-cı illərində Dehlidə təsadüfən tapılmış və radiokarbon analizinə görə e.ə. 3700-cü illərə aid edilmişdir. Müəllif özü də etiraf edir ki, İnd vadisi sivilizasiyasının "vedik" xarakterli olmasına dəlalət edən daha bir dəlil də odur ki, bu mədəniyyətin bir çox aşkar edilmiş məskənlərində vedik altarlara (səcdəgahlara) rast gəlinir [21, s. 10].

Qeyd edək ki, iki nəzəriyyənin ("Ari müdaxiləsi" və "Hindistandan getmə") heç zaman sübut oluna bilməyəcəyi barədə amerikalı hindoloq Edvin Brayantın skeptik baxışları da mövcuddur [14; s. 236]. Amma













1. Sarasvati sivilizasiyasının yayılma xəritəsi
2. Kalibanqan məskənindən aşkar edilmiş “atəşpərəst altarlar”
3. Haryana ştatının Rakhigarhi və Banawali məskənlərindən tapılmış terrakot təkərlər (Michel Daninonun illüstrasiyası)
4. Qucarat ştatının Kaç bölgəsindəki Surkotada məskənindən tapılmış at sümükləri (Michel Daninonun illüstrasiyası)

Sarasvati vadisi sivilizasiyasının hind-ari dilli olması mülahizəsini A.L. Başem kimi tanınmış ingilis hindoloqu əsassız adlandırmışdır [24].

Bu kontekstdə xüsusi əhəmiyyətə malik bir faktı da qeyd etməliyik. V.L. Rostunov tərəfindən Mərkəzi Qafqazın eneolit və tunc dövrü kurqanlarında dəfn ənənəsinin bəzi xüsusiyyətləri Riqvedada adı gedən ölüm dünyası tanrısı Yamanın semantikasına uyğun interpretasiya edilmişdir [1, s. 15 – 17, 254 - 260].

XXI əsrin əvvəllərində hindoloqların əsərlərində Yama tanrısının prototipləri mövzusuna toxunulmuş, hind-arilərin gəlişinə qədərki Sarasvati vadisi sivilizasiyasının arxeoloji tədqiqatlarında əldə edilmiş artefaktların semantikasında Yama tanrısının atributikası xatırlanmışdır [26]. Digər tərəfdən, Qədim Misir və vedik (hind-arilərin gəlişindən sonrakı) Hindistanın mifik-kosmoqonik görüşlərini təsvir edən rəvayətlərə toxunan tanınmış yunan hindoloqu, "Hindistandan getmə" nəzəriyyəsinin tərəfdarı Nikolas Kazanas burada paralelləri qeyd etmişdir. O, bu paralellər kontekstində Qədim Misirdəki "ölüm dünyası tanrısı" İsida - Osiris ilə Riqvedada təsvir olunmuş Yama tanrısının oxşarlığını vurğulamış və bu oxşarlığı belə izah etmişdir: "... Misirlə Saptasindhu (Sarasvati sivilizasiyasından sonrakı Hindistanda yaranmış vedik Yeddi Çay sivilizasiyası - P.Q.) arasında ilkin kontaktlar üçün qəti sübutlar yoxdur. Buradan irəli gələrək, vedik mədəniyyətin Misirə təsirini tam istisna etmədən, biz (Qədim Misir və vedik Hindistana - P.Q.) daha qədim naməlum sivilizasiyaların təsiri qənaətini qəbul etməyə məcburuq" [27].

Sarasvati vadisi sivilizasiyasına aid Kalibanqan məskəninin arxeoloji tədqiqatları nəticəsində vedik "atəşpərəst altarlarının" aşkar edilməsi hindoloqları paradoksal sual qarşısında qoymuş və hind-arilərədək harappalıların dini dünyagörüşü barədə elmdəki baxışların dəyişməsinə gətirib çıxarmışdır [28]. Bu yerdə qeyd edək ki, V.L. Rostunov da Mərkəzi Qafqazın eneolit – tunc dövrü kurqanlarının sakral məkanının semantikası mövzusuna toxunaraq, onları vedik (Riqveda materialı əsasında) altarlarla uyğunlaşdırmağa çalışmış və bu interpretasiyanı da qeyd olunan kurqanları hind-iran (hind-Avropalı) mənşəli olması barədə fikrinə bir əsas kimi göstərmişdir [1, s. 15, 18, 29].

Beləliklə, Riqvedada təsvir edilmiş sosial strukturun, kosmoqonik və fəlsəfi baxışların, ənənələr və d. Sarasvati vadisi sivilizasiyasında öz əksini tapması gerçəyi tam aktuallığı ilə elm qarşısında durmuşdur. Sarasvati vadisi sivilizasiyasının yaradıcılarının əsasən dravid mənşəli olması barədə nəzəriyyəni də nəzərdən qaçırmaq olmaz. Həmçinin, hind-iranlılara qədər regionda mövcud Elam dilləri ilə Dravid dilləri arasında genetik qohumluq barədə nəzəriyyə də yaşamaqdadır [29].

Sözsüz ki, bəşəriyyətin ədəbi incilərindən biri olan Riqveda böyük bir tarixi mənbədir. Amma mövcud konsepsiyalar və diskussiyalar Riqvedada güclü qeyri-hind-ari (daha geniş mənada qeyri-hind-avropalı) komponentin olmasını göstərir. "Ari müdaxiləsi" nəzəriyyəsi tərəfdarlarına görə, Riqvedadakı qeyri-hind-ari komponenti Sarasvati vadisi sivilizasiyası daşıyıcılarının substratı, "Hindistandan getmə" nəzəriyyəsi tərəfdarlarına görə isə, "daha qədim naməlum sivilizasiyaların təsiri" kimi izah edilir.

Sarasvati vadisi sivilizasiyası barədə son nəticələrə əsaslanaraq, Riqveda materialı bazasında Şimali, Cənubi və Mərkəzi Qafqazın eneolit və tunc dövrü kurqanlarının dəfn ənənəsinin etno-genetik interpretasiyası və mədəniyyətin atributlarının semantikası metodu artıq bizə tamam mübahisəli və hətta yanlış nəticələr verə bilər: ya kurqan mədəniyyəti daşıyıcıları Hindistandan gəlmə hind-arilər (hind-avropalılar) və ya dravid (və ya munda) dilli olmuşlar.

Buradan irəli gələrək də, demək mümkündür ki, eneolit-tunc dövrü kurqan dəfn mədəniyyətinin etno-genetik interpretasiyasını və atributikasının semantikasını yalnız Riqvedanın verdiyi materiala əsaslanaraq hind-avropalı (hind-iranlı) mənşəli kimi izah etmək mübahisəlidir, zəif məntiqi dayaqlara malikdir.

## ƏDƏBİYYAT

1. Ростунов В.Л. «Опыт реконструкции сакрального пространства ранних курганов Европы и Северного Кавказа» // «Эпоха энеолита – средней бронзы Центрального Кавказа», т. III, Владикавказ, 2007
2. Кузьмина Е.Е. «Откуда пришли индоарии?». Москва, Восточная литература, 1994, с. 216-248
3. Клейн Л.С., «Древние миграции и происхождение индоевропейских народов». Санкт-Петербург, 2007
4. Тишкин А.А., Дашковский П.К., "Социальная структура и система мировоззрений населения Алтая скифской эпохи". Монография, МО РФ Алтайский гос.университет, Ист.фак., кафедра археологии, этнографии и источниковедения, Барнаул, 2003, с. 252-253
5. Тишкин А.А., Леонова И.Ю., «Особенности погребальных конструкций бийкенской археологической культуры и их семантика // Исторический опыт хозяйственного и культурного освоения Западной Сибири: Сб. научных трудов. Барнаул, Изд-во Алтайского университета, 2003, кн.1, с. 363-371
6. Гнуни А.В.,"Опыт анализа погребального инвентаря двух погребений эпохи средней бронзы Армении (на основе данных индийской мифологии". // Լրաբեր Հասարակական Գիտությունների, № 2 , 2003, с. 72-90

7. Симонян А., Царские курганы эпохи средней бронзы в Армении (XXV-XX до н. э.) // «Археология, Этнология, Фольклористика Кавказа», Международная научная конференция памяти академика Отара Лорткипанидзе 27-30 сентября 2010 г. , Тбилиси – Гори – Батуми Сборник кратких содержаний докладов, издательство «Меридиани», Тбилиси, 2011, с. 219
8. Bryant E., “The quest for the origin of Vedic culture: The Indo-Aryan migration debate”. New Delhi, Oxford University Press, 2002
9. Ахундов Т. И. Рецензия на монографию В.Л. Ростунова “Опыт реконструкции сакрального пространства ранних курганов Европы и Северного Кавказа”, Известия СОИГСИ ВНЦ РАН 1 (40), 2007, с. 224
10. *Erdosy, George, ed. (1995), The Indo-Aryans of Ancient South Asia: Language, Material Culture and Ethnicity, Berlin/New York: Walter de Gruyter*
11. Бонгард-Левин Г.М., «Древнеиндийская цивилизация (философия, наука, религия)», Москва, Наука, 1980, с. 12-29
12. Mahadevan İ., “Review – An Encyclopedia of the Indus Script by Asco Parpola” // International Journal of Dravidian linguistics, vol. XXVI, number 1, January 1997, University of Kerala, Thiruvananthapuram, 110 p.
13. Asco Parpola, 1997. Deciphering the Indus script: Methods and select interpretations. Keynote address delivered at the 25th Annual South Asia Conference, University of Wisconsin, Madison, Wisconsin, 18-20 October 1996. (Occasional Papers Series, 2.) Madison: Center for South Asia, University of Wisconsin-Madison. 42 pp., 60 figs
14. *Bryant Edwin, “The Quest for the Origins of Vedic Culture: The Indo-Aryan Migration Debate”, Oxford University Press, 2001, 387 p.*
15. *Thomason, Sarah Grey & Kaufman, Terrence (1988), Language Contact, Creolization and Genetic Linguistics, University of California Press (published 1991),* pp.141–144
16. Marshall John, Mohenjo-daro and the Indus Civilization, Vol.I, Indological Book House, New Delhi, 1973, Pp.109-112
17. *Shrikant G. Talageri,* “The Rigveda a historical analysis”, published by Aditya Prakashan, , New Delhi, 2000
18. Lal, B.B., Saraswat, K. S., The Homeland of the Aryans. Evidence of Rigvedic Flora and Fauna & Archaeology, New Delhi, Book Description: Aryan Books International. 2005
19. B.B. Lal, “Aryan invasion of India:perpetuation of a myth”// “The İndo-Aryan controversy” (Evidence and inference in Indian history), edited by Edwin F. Bryant and Laurie L. Patton, first published 2005 by Routledge, pp. 50 – 75
20. Elst, Koenraad, “Update on the Aryan Invasion Debate”, New Delhi, published Aditya Prakashan, 1999, 342 p.
21. Klaus Klostermaier, “Questioning the Aryan Invasion Theory and Revising Ancient Indian History”, ISKCON Comunications Journal, vol.6, No. 1 June 1998, pp. 5-16
22. David Frawley, N.S. Rajaram, Vedic Aryans and the Origins of Civilization, Voise of India, New Delhi, 2001, 387 p.

23. Sarasvati vadisi sivilizasiyasında atlar barədə bax: Michel Danino, “THE HORSE AND THE ARYAN DEBATE” by published in the Journal of Indian History and Culture of the C. P. Ramaswami Aiyar Institute of Indological Research, Chennai, September 2006, No.13, pp. 33-59
24. “İndus Civilization”, edited by R.K. Pruthi, Discovery Publishing House, N. Delhi, 2004, p. 242
25. Asko Parpolo, “Deciphering the Indus Scripts”, Cambridge University Press, 1994, pp.168,169
26. Parpola, Asko, 2004. From archaeology to a stratigraphy of Vedic syncretism. The banyan tree and the water buffalo as Harappan-Dravidian symbols of royalty, inherited in succession by Yama, Varuna and Indra, divine kings of the first three layers of Aryan speakers in South Asia. Pp. 479-515 in: Arlo Griffiths & Jan E. M. Houben (eds.), The Vedas: Texts, language & ritual. Proceedings of the Third International Vedic Workshop, Leiden 2002. (Groningen Oriental Studies, 20.) Groningen: Egbert Forsten.
27. Nicholas Kazanas, “Indo-Aryan Origins and Other Vedic Issues”, (chapter VIII, “Vedik and Egyptian Affinities”), published by Aditya Prakashan, N. Dehli, 2009, pp. 244 – 276
28. J.S. Nigam, “The religion of the harappans in Rajasthan” // Cultural Contours of India: Dr. Satya Prakash Felicitation Volume, Abhinav Publications, Delhi, 1981, pp. 32-34
29. David McAlpin, “Elamite and Dravidian: further evidence of relationship”, Current Antropology, published by the University of Chicago Press and sponsored by the Wenner-Gren Foundation for Anthropological Research, vol.16, No 1, March 1975, pp.105 - 115

## ABOUT METHOD OF USING RIGVEDA`S INFORMATION IN ETHNOGENETIC INTERPRETATION OF BURIAL MOUNDS CULTURE OF CHALCOLITHIC PERIOD AND BRONZE AGE OF THE SOUTH CAUCASUS

**Parviz Gasimov**

### Summary

**Keywords: burial mounds, kurgans, Bronze Age, Rigveda, Saraswati valley civilization.**

According to trends observed in reseaches dedicated to the theme of ethnogenetic interpretation of burial traditions and semantics of attributes of kurgans of Central Caucasus at Chalcolithic period and Bronze Age, with genetic roots with Asia Minor and South Caucasus, the Soviet-Russian scientists mostly rely on information from Rigveda.

The most vulnerable aspect of the method noted by us that is here Rigveda is shown as the almost "pure" sample of Indo-Aryan literature, reflecting ethno-graphic character, cosmogonic and religious views of ancient Indo-Europeans, and local civilization substrates or influence of external civilizations till Indo-Aryans found in Rigveda as a result of the recent studies are not taken into consideration.

Sarasvati valley civilization archaeological studies, as well as and the research on the ancient Indian (first of all Sanskrit) and Iranian languages demon-strate such a result that from the beginning until the middle of the XX century current ideas on the subject already do not prove self.

Researches on archaeology, ethnology and linguistics show that substrate of early Dravidic and Sarasvati valley civilization is more in Rigveda than are being considered so far.

Also, materials collected for the last 30 years in archaeological, cultural, philological, and etc fields put the theory of "Aryan invasion" under the question. At XIX century the theory of Friedrich Schlegel named "Out of India" has already been taken up again in a way completely different.

Reflection of social structure, the cosmogonic and philosophical views, traditions, and etc which described in Rigveda, in Sarasvati Valley civilization is standing in front of the science as actual a fact. The theory on origin of creators of the Saraswati valley civilization being mainly Dravidic should not be left unattended. Also, the theory exits on genetic relationship among Elam languages and Dravidic languages existed in the region before Indo-Iranians .

No doubt, one of humanity's literary masterpieces Rigveda is a great historical source. However, current concepts and discussions show a strong non-Indo-Aryan (in broad sense non-Indo-Europeans) components in Rigveda. According to supporters of "Arian invasion" theory, non-Indo-Aryan component in Rigveda is explained as substrates of the carriers of Saraswati valley civilization, an as per supporters of "Out of India" theory it is explained as "the influence of a more ancient unknown civilizations".

Based on recent results on the Saraswati valley civilization, ethno-genetic interpretation of burial mound culture and semantics of its attributes of the Chalcholitic period and Bronze Age of North, South and Central Caucasus mounds, on the basis of material from Rigveda can give us disputed and even false results: either mound culture carriers were Indo-Aryans (Indo-Europeans) from India or Dravidic (or Munda) speaking people.

Pursuant to here, it is possible to say that the ethno-genetic interpretation of burial mound culture and semantics of its attributes of the Chalcholitic period and Bronze Age, based on material from Rigveda cannot be explained just as the Indo-European (Indo-Iranian) origin, and it has weak logical supports.

# К МЕТОДУ ИСПОЛЬЗОВАНИЯ ДАННЫХ РИГВЕДЫ В ЭТНОГЕНЕТИЧЕСКОЙ ИНТЕРПРЕТАЦИИ КУРГАННОЙ КУЛЬТУРЫ ЮЖНОГО КАВКАЗА В ЭПОХУ ЭНЕОЛИТА И БРОНЗЫ

**Парвиз Гасымов**

## Резюме

**Ключевые слова: курганы, бронзовый век, Ригведа, цивилизация долины Сарасвати**

В исследованиях, посвященных теме этногенетической интерпретации погребального обряда курганов и семантики атрибутов данной культуры Центрального Кавказа эпохи энеолита и бронзы, корни которых генетически связаны с Передней Азией и Южным Кавказом, наблюдается тенденция обоснования данными Ригведы со стороны советско-русских ученых.

Самая слабая сторона данного метода заключается в том, что Ригведа выдается чуть ли не за «чистый» индоарийский литературный образец, отражающий религиозно-космогоническое мировоззрение, этнографические особенности индоевропейцев и не учитывается доиндоарийский субстрат или влияние других цивилизаций, обнаруженных в результате последних исследований Ригведы.

Археологические исследования цивилизации долины Сарасвати, а так же исследования древнеиндийского (в первую очередь санскрита) и иранских языков выявляет что, существовавщие до середины XX века мнения уже не оправдывают себя. Археологические, этнологические, топонимические и лингвистические исследования указывают на возрозщий удельный вес субстрата дравидийского и цивилизации долины Сарасвати в Ригведе, чем предпологалась до сих пор.

К тому же, накопленный материал за последние 30 лет по археологии, культурологии, филологии и др. ставит под вопрос теорию «Арийского вторжения». Снова, но уже в другом формате поднята теория «Исхода из Индии» выдвинутая Фридрихом Шлегелем еще XIX веке.

Реалия отражения в цивилизации долины Сарасвати социальной структуры, космогонического и философского мировоззрения, обрядов и др. изображенных в Ригведе предстает в полной актуальности перед наукой. Нельзя игнорировать и теорию дравидийского происхождения создателей цивилизации долины Сарасвати. К тому же, существует и теория генетической родственности между эламскими и дравидийскими языками в доиндоиранскую эпоху.

Безусловно, Ригведа как один из литературных шедевров человечества является огромным историческим источником. Но существующие концепции и дискуссии указывают на очень сильный не индоарийский (в обширном

плане, на неиндоевропейский) компонент в Ригведе. По мнению сторонников теории «Арийского вторжения» не индоарийский компонент в Ригведе это субстрат носителей цивилизации долины Сарасвати, а по сторонникам теории «Исхода из Индии» - «влияние более древних неизвестных цивилизаций».

В свете последних заключений о цивилизации долины Сарасвати, метод этногенетической интерпретации погребального обряда курганов и семантики атрибутов данной культуры Северного, Центрального и Южного Кавказа эпохи энеолита и бронзы на базе материалов Ригведы может дать нам спорные и даже ошибочные результаты вроде того как носители курганной культуры были индоарийцами (индоевропейцами) выходцами из Индии или же, они были дравидо- (или же мунда-) язычными.

Исходя из вышеуказанного можно суммировать, что этногенетическая интерпретация погребального обряда курганов и семантика атрибутов данной культуры Северного, Центрального и Южного Кавказа эпохи энеолита и бронзы как индоарийское (индоевропейское), опираясь только на материалы Ригведы, является спорным и имеет слабые логические основы.

# ГОРОД МЕРКЕ, КРЕПОСТЬ АСПАРА И ТЮРКСКОЕ СВЯТИЛИЩЕ МЕРКЕ НА ТЕРРИТОРИИ ДОЛИНЫ РЕКИ ЧУ: ВОПРОСЫ ЭТНОКУЛЬТУРНОЙ ИНТЕРПРЕТАЦИИ НАСЛЕДИЯ

**Айман Досымбаева**
aiman_dos@inbox.ru
(Казахстан, Астана, Президентский центр культуры)

**Ключевые слова: Мерке, крепость Аспара, Тюркский каганат.**

Благодатные природные условия долины реки Чу, на территории Жетысу (Казахстан), на протяжении тысячелетий способствовали формированию и развитию культур этносов, в эпоху средневековья способствовавших созданию Западного Тюркского каганата и других государств тюркских народов, внесших определенный вклад в развитие мировой цивилизации.

Археологическое изучение показывает на наличие разветвленной сети городов и поселений, отдельных замков, торткулей, крепостей которые локализованы на описываемой территории. В живописных уголках горной, предгорной долин в непосредственной близости от названных памятников расположено большое количество памятников, представленных святилищами с каменными изваяниями, рунической письменностью, петроглифами и тамгами. Ввиду различных подходов к изучению памятников оседло-земледельческого круга (города, поселения и др.) и памятников кочевников (курганы, святилища, петроглифы и др.), в статье рассмотрены общие вопросы этнокультурной интерпретации различных типов памятников, получивших развитие в одну эпоху и представленных городищем Мерке, крепостями Аспара и Хиам, расположенных в едином пространстве долины р. Чу совместно с тюркскими святилищами Мерке и Жайсан.

Городище Мерке расположено в центре села Мерке. Центральные развалины городища представляют собой прямоугольный в плане бугор, вытянутый по линии восток-запад. Северная сторона равна 380 м, восточная – 275 м, западная – 250 м. В юго-западной части городища возвышается бугор, представленный остатками цитадели, которая была перестроена в период позднего средневековья. Цитадель отделена от шахристана стеной, со временем оплывшей и представляющей собой вал высотой до 2 м. Углы стен укреплены округлыми по форме башнями. Центральный въезд на городище располагался в северной части цитадели, высокие оборонительные стены которой сохранили

следы противостоящих рядов округлых по форме башен, распложенных полудугой и направленных вовнутрь ко входу. Цитадель окружена двойным рядом оборонительных стен. С западной и северной стороны, цитадель городища укреплена глубоким рвом, который заливался водой из речки Кольтоган. Площадь внутри цитадели с заметными следами былых построек равна 110-75 м. Шахристан представлен площадью подпрямоугольной формы, которая окружена внешним валом со следами оборонительных башен в форме округлых бугров, расположенных вдоль стен и по углам вала. Для топографической структуры средневекового города Мерке характерным являлось и наличие внешней стены, которая ранее прослеживалась на некотором расстоянии от центральных развалин. В результате археологических исследований, проведенных экспедициями Института истории, археологии и этнографии им. Ч. Валиханова и впоследствии Института археологии им. А. Х. Маргулана установлено, что средневековое городище, впервые упоминаемое в китайских письменных источниках в 629 г., функционировало в период Западного Тюркского каганата в VI-VIII вв. Находки из культурных слоев городища свидетельствуют о последующем развитии культуры населения Мерке и в периоды в XI-XII вв.

Первое упоминание о Мерке содержится в древних китайских письменных источниках. Китаец по происхождению, буддийский паломник Сюань Цзян, направлявшийся в Индию и посетивший Мерке в 629 году, оставил в своих записках лаконичные сведения и данные о местности, этнографии населения, правительстве тюркского государства. Сюань Цзян описал географическую характеристику местности Мерке, которая в точности совпадает с его современной локализацией у подножия горного хребта, который находится к югу и что с трех других сторон она окружена степью. По сведениям путешественника, Тон ябгу каган - правитель Западного Тюркского каганата был образованным человеком и первым встречал гостей на границе своих владений. Сюань Цзян описал облик кагана, который был одет в богатую яркую одежду, волосы кагана были распущены и на лбу перевязаны шелковой лентой. Волосы свиты кагана были заплетены в косы. В сообщениях паломника сообщается о посещении им священных земель, расположенных высоко в горах, куда его сопроводили, предварительно завязав глаза, так как «дорогу туда знает не каждый». Автор пишет, что эта местность, окружностью в 200 ли с тысячами ключей и озер, именуется Мын булак – Тысяча источников. В записках паломника представляют интерес описание природы: что местность влажная, леса густые, а разнообразные цветы в летние месяцы подобны узорному шелку. Тюркский каган ежегодно укрывается здесь от летней жа-

ры. Там масса оленей, многие из которых украшены колокольчиками на ремешках. Тюркский каган любит их и запретил своим поданным убивать их; кто убьет, тот будет казнен без пощады. Потому-то оленьи стада сохраняются и живут до конца своих дней. По сведениям Сюань Цзяна именно Тон Ябгу каган перенес столицу Западного Тюркского каганата (VI-VIII вв.) из Суяба в Мерке.

В период правления карлуков, переселившихся на территорию Жетысу в 766 г. после гибели Восточного Тюркского каганата (744 г.) и возглавивших Карлукский каганат, в персидской географии «Худуд ал-Алам» («Границы мира») о Мерке говорится что это «Город, населенный халлухами (карлуками) и посещаемый купцами». В другом месте того же труда сказано: «Шилджи, Тараз, Такабкат, Мирки, Навикат – селения, где проживают как мусульмане, так и тюрки. Это место приятное для купцов, это карлукские ворота. В Фарункате, Мирки и Навикате тюрки многочисленны».

Арабские географы в IX-X веках в своих сочинениях писали что: «Мирки — город средней величины, укрепленный, имеет цитадель». А название свое он получил на языке фарси. Мирки означает «центр».

На территории Меркенского района расположен один из великолепных памятников – крепость Аспара, представленная мощным сооружением с несколькими рядами оборонительных стен с башнями, глубоким рвом, созданных также для дополнительного укрепления его защитных свойств. Аспара – в переводе с персидского означающая «конница», в системе жизнеобеспечения средневекового населения была создана и функционировала в качестве одного из важнейших социальных структур эпохи средневековья, предназначенных для защиты окружающего населения от врагов. Впервые упомянутая в описаниях китайского автора Сюань Цзяна в VII веке, Аспара функционировала в качестве крепости при Тимуре, а в источниках XV в. названа селением с тем же наименованием.

Центральные развалины Аспары представляют собой прямоугольный в плане холм, ориентированный по сторонам света. Размеры его по линии север - юг составляют 250 м, по линии запад-восток — 360 м. Приподнятая часть городища имеет вид четырехугольного холма высотой 12-14 м. Северная сторона его равна 180 м, восточная 170 м, западная 150 м. На площадке наверху холма сохранилось несколько бугров неправильной формы, представляющих остатки прежних сооружений. В северо-западном углу площадки расположено подпрямоугольное в плане возвышение, окруженное со всех сторон оплывшим валом высотой 1,5-2 м. С восточной стороны к цитадели примыкает бугор высотой 5-6 м. Площадка наверху имеет длину 140 м с севра на

юг и 220 м с востока на запад и окружена земляным валом высотой 7-8 м. Эта часть центральных развалин является остатками средневекового шахристана. С юга к цитадели примыкает еще один бугор с площадкой наверху размерами 150 м х 70 м. С севера цитадель фланкировалась выступающей круглой башней. Въезд на территорию городища расположен в юго-восточном углу. Он проходил по дамбе, перекрывавшей естественный ров, заполненный водой, а затем по наклонному пандусу вел внутрь шахристана. Еще один въезд на территорию крепости прослеживается в середине восточной стены шахристана.

В микрорельефе местности хорошо заметны остатки «длинных» стен вокруг центральных развалин. Приблизительно в 300 м к северу от центральных развалин сохранился участок вала высотой 2-3 м при ширине основания 10-12 м. Земляные холмики на нем являются следами круглых в плане башен. Вал идет в западном направлении, затем вдоль русла р. Аспара пересекает современную автомобильную трассу и уходит в южную сторону к горам, где делает плавный изгиб на восток. Здесь вал прерывается и лишь его отдельные фрагменты (участки) прослеживаются с восточной стороны, где расположены села Аспара (бывш. Нововоскресеновка) и Шалдавар. В пределах «длинных» стен сохранилось много бугров различной высоты и других следов города. Четырехугольные в плане холмы с площадкой наверху и валом, окружавшим небольшой квадратный дворик, круглые холмы, остатки загородных сельских усадеб разбросаны по площадке, занимающей десятки гектаров.

Нами подготовлено поэтапное обследование кварталов в Ичеришехер. Уточнены даты строительства двух памятников архитектуры и выявлены дополнительные памятники архитектуры XIX-XX вв., выс-казаны предложения о частичном использовании их для расширения здания мечети на месте бывшего Музея азербайджанского ковра. Необходимо учитывать предложения по модернизации жилых квартир с использованием подвальных этажей в качестве подсобных помещений музея, под торгово-бытовые

предприятия, расположенные со стороны торгового комплекса по ул. Беюг гала.

Регенерация подчас равняется по стоимости новому строительству и даже более. Поэтому в условиях, когда государство снизило такие расходы, используются частные инвестиции и международные гранты. Решение организационного вопроса не менее важно. Сейчас этой важной проблемой непосредственно занимаемся мы и это явился новым импульсом для координации работ по охране, реставрации и использованию памятников градостроительства, архитектуры и археологии.

После осуществления всех мероприятий город-заповедник Ичери Шехер со своеобразной планировкой, застройкой, с продуманным маршрутом обслуживания населения и туристов сыграет огромную роль в воспитании будущих поколений. Будет создана благоустроенная архитектурная среда, которая эмоционально настроит человека, создаст ощущение полноты жизни своей красотой и будет иметь историко-познавательное значение.

## ЛИТЕРАТУРА


1. Архив Баксовета ф. БГУ, по строительному отделению, связка 4, е.х.32 а, л.13
2. Bakı şəhəri haqqında sənədlər (1810-1917-ci illər).Bakı.1978
3. Бутник - Северный Б.С. Исторический план Баку. Научный архив Института Истории НАНА. Инв.680.
4. ГИА АР ф.12, оп.8.ед.хр.75. О сохранении памятников древности 14.04.-19.11.1886, л.3
5. Грабарь И. Моя жизнь. Автомонография. Письма. Москва.1983
6. Иконников А.В.Архитектура XX века. Утопии и реальность. Том 2. Москва.2002 г.
7. Ильин Л.Архитектурные проблемы планировки Баку. В кн: «Проблемы архитектуры», т.2., кн.1. Москва.,1937
8. Искендеров А. Г. Поселения, жилища и усадьбы в Бакинской крепости Ичери Шехер. BBU-nun “Audit”jurnalı, №1, 2010
9. РВИА, ф. ВУА, ед.хр.21665, л.30
10. РВИА, ф. ВУА, е.х.30487, л.56.
11. РВИА, ф. ВУА, е.х.20553, л.41
12. РВИА, ф.15261,оп.1,е.х.1301, л.74
13. РВИА, ф.349,оп.3,е.х.3332 «Баки 1807 г. августа 22 дня», л.51
14. Спецархив Исполнительной власти г. Баку. Ф.7-А

## Bakı qalası – İçəri şəhərin bərpası prosesində tarixi mühüt.

**Əlihüseyn İsgəndərov**

## XÜLASƏ

**Açar sözlər: Azərbaycan, Bakı, İçərişəhər, memarlıq.**

Son illərdə tarixi abidələrimizə dövlət qayğısı uğurlu nəticələrlə əlamətdar olmuşdur. Belə abidələrdən biri də xalqımızın misilsiz yadigarı olan İçəri şəhər kompleksidir. Təqdirəlayiq haldır ki, genişmiqyaslı bərpa işləri ilə İçərişəhərin böyük hissəsinin siması özünə qaytarılmışdır. Bərpa işlərində keçmiş təcrübədən səmərəli istifadə olunmuş və ümumi nəticədə İçərişəhər hal –hazırda turizmin inkşafında həlledici imkanlara layiq tarixi obyektə çevrilmişdir.Təsadüfi deyil ki, hər gün minlərlə yerli və xarici qonaqlar fərəh hissi ilə bu şəhərin küçələrini gəzir, görülən bərpa işlərinə öz heyranlıqlarını bildirirlər.

## THE HISTORICAL CONTEXT IN THE PROCESS OF RECONSTRUCTION BAKU FORTRESS ICHERISHEHER

**Alihuseyn Iskandarov**

## S u m m a r y

**Key words: Azerbaijan, Baku, Inner City- Ichery Shekher, , Architecture.**

In this article for the first time there are summarized and analyzed project of Inner City’s reconstructions. Reconstruction times were – 1934, 1961, 1963, and 1984 years and we had opportunity to chase of development town planning `s viewpoints of relation to with architectures and history-cultural heritages. There are held history-architect investigations to all block streets of building like Ichery Shekher by special methods of investigation to the history town planning complex. Article it based on document source, which were ejected from Azerbaijan and Russia state archives. There are very valuable materials about project work of reconstruction Ichery Shekher, plans and general layout of fortress. There is enough measure information of the discovered picture about this problem.

# BAKI ZƏRBXANASI HAQQINDA

**Qənirə Pirquliyeva**

**e-mail :** p_qanira@hotmail. com

(“İçərişəhər”Dövlət Tarix-Memarlıq Qoruq İdarəsi)

**Açar sözlər:** dövlətçilik, zərbxana, gümüş sikkələr, qızıl sikkələr.

**Annotasiya-** Məqalədə Azərbaycanın ən qədim sərbxanalarından olan Bakı şəhərinin sikkə nümunələrinin tədavüldə olduğu dövrlər, onların no-minal olaraq özünəməxsusluqları numizmatik baxımdan araşdırılır. Bakının şəhər kimi formalaşması prosesinin hələ antik dövrdən yaranması, erkən orta əsrlərdə- konkret olaraq Sasanilər imperiyası zamanı tam formalaşaraq burada buraxılan sikkələrin hüquqi statusu alması ilə dünya ticarət münasibətlərində öz yerini tutması məsələsi aydınlaşdırılır.

Azərbaycanın ən qədim zərbxanalarından biri Bakı şəhərində yerləşmişdi. Bakıda sikkə zərbinin tarixi Azərbaycanın Sasanilər ımperiyasinin tərkibində olduğu zamandan başlayır. Belə ki, ilk dəfə Sasani hökmdarı IV Hörmüzün hakimiyyəti zamanı Bakı inkişaf etmiş Şərq şəhərləri sırasında sikkə zərbi hüququnu əldə etmişdi. İmperiya ərazisində bu statusu hər şəhər qazana bilməzdi. Bunun üçün vacib faktorlar sırasında şəhərin beynəlxalq ticarət yollarının yaxınlığında yerləşməsi, zərbetmə işini imperiya daxilində həyata keçirmək üçün lazımi materialların, o cümlədən gərəkli xammalın kifayət qədər olması və yerlərdə pul çatışmamazlığı yaranmasını xüsusi olaraq qeyd etmək lazımdır.

Eramızın VI əsrində Bakı artıq inkişaf etmiş şəhər olaraq dövlətçiliklə bağlı olan bütün infrastruktura malik idi. Keçən əsrdə Bakının İçərişəhər ərazisində

aparılan arxeoloji qazıntılar zamanı aşkar edilən maddi-mədəniyyət qalıqları, ayrı-ayrı tikinti elementləri sikkə zərbi kimi vacib bir işin həyata keçirilməsi üçün burada münbit zəminin yarandığını bir daha sübuta yetirir (2-5).

Bakı zərbxanasının ilk məhsullarının üzərində qədim pəhləvi əlifbasında Baqvan və yaxud Baqavan monoqrammı zərb edilmişdir. Azərbaycanın numizmat alimi Ə. Rəcəbli bu yer adının məhz Bakıya aid olmasını İçərişəhərdən keçən əsrdə aşkar olunan sikkə dəfinəsinə əsasən sübut etmişdir (31, s. 4). Baqvanın adından zərb edilən gümüş draxmalar ehtimal ki, imperiyanın bütün ərazisində tamhüquqlu tədavül vasitəsi kimi qəbul edilmişdi.

Qafqaz Albaniyası dövründə Paytakaran adlı vilayətin tərkibində olan bu şəhər haqqında antik dövrün tanınmış alimlərinin əsərlərində müəyyən məlumatlar vardır (42; 43, s. 283-285).

Antik dövrün əvvəllərindən Pont-Xəzər dənizi-Hindistan ticarət yolunun üstündə yerləşən Bakı dünya iqtisadi münasibətlərində mühüm strateji mövqedə yerləşmişdi. Bu səbəbdən İçərişəhər ərazisindən tapılmış dünya monetar sisteminin ən qədim nümunələri- Makedoniyalı İskəndərin adından zərb edilən draxma, tetradraxma və obollar, Selevkilərin sikkə nümunələri, Yunan-Baktriyanın, Soqdiananın, Pont çarlığının və digər qədim dünyanın tanınmış dövlətlərinin rəsmi dəyər vahidləri deyilənlərin bariz nümunələridir.

Keçən əsrin sonlarında, İçərişəhər ərazisində aparılan arxeologi tədqiqatlar nəticəsində Məhəmməd məscidi yaxınlığında Əhəməni hökmdarı Kserksin adından zərb edilən mis qarışıqlı bürünc "xalk" adlı dəyər nominalı aşkar edilmişdir (35, s. 35-36). Bu sikkə Azərbaycan ərazisindən tapılmış nadir tapıntılar sırasına aiddir. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, Avropada "qəhrəmanlar hökmdarı" kimi tanınan Kserksin - Haşayarın adından əsasən daxili bazar üçün zərb edilən, müasir leksikologiyaya uyğun olaraq xırda pul funksiyasını daşıyan "xalk" adlı sikkə nominalı imperiyanın hüdudlarından kənarda çox az aşkar edilmişdir.

Sikkənin numizmatik təsviri aşağıdakı kimidir:Üz tərəf: Kartuşun daxili səthində hökmdarın portreti uzun saçları, sadə baş bəzəyi ilə boynunun arxasında düyünlənmiş şəkildə, düz biçimli paltar geyimində, sinədən yuxarı təsvir olunmuşdu. Obraz profildən sağa yönəlmişdir. Onun başından arxa tərəfdə ayrı-ayrı işarələr ehtimal edilən qədim pəhləvi hərfləri ilə zərb edilmiş sözlər pozulmuş vəziyyətdədir. Kənar çərçivə düz xəttin vasitəsilə yaradılmışdır. Arxa tərəf: Eyni dairəvi düz xətli kartuşun daxilində sağa istiqamətlənən qədim gəmi obrazı çox mükəmməl olaraq zərb edilmişdir.

Xüsusi olaraq qeyd etmək lazımdır ki, dünya numizmatika elmində eyni tipdə olan gəmi obrazları sikkələrin üzərində ilk dəfə eramızdan əvvəl VIII-VI əsrlərdə Romanın erkən pul nümunələri üzərində mütəxəssislər tərəfindən araşdırılmışdır. Sonralar oxşar hərbi gəmi obrazları romalıların Karfagen üzərində dəniz döyüşləri zamanı göstərdikləri qələbələr şərəfinə zərb edilmişdi.

İçərişəhərdən belə bir sikkənin tapılması qeyri-adi bir hadisə deyildir. Belə ki, dünya şöhrətli şərqşünas M. S. Marten əsərlərinin birində Bakının çox qədimlərdən pars tayfalarının sitayiş etdikləri müqəddəs məkanlardan biri olduğunu xüsusi qeyd etmişdir (42, s. 72). Digər tərəfdən, İçərişəhərin ən qədim mədəni təbəqələrindən aşkar edilən tapıntılar sırasında atəşpərəstliklə bağlı maddi-mədəniyyət qalıqlarının olması, burada oda sitayişlə bağlı məbədlərin mövcudluğu və ən önəmli tarixi faktor kimi Azərbaycanın qədim torpaqlarının Əhəmənilər imperiyasının tərkibində olması, buranın imperiyadaxili iqtisadi münasibətlərdə iştirak etməsini bir daha sübut edir.

Abşeron, o cümlədən Bakı toponimini uzun illər araşdıran hörmətli alim S. Aşurbəylinin mülahizələrinə görə, Baqavan – Baqan yer adlarının həmin ərazidə və ona yaxın yerlərin atəşpərəstliklə bağlı olub eyni mənanı daşıması kifayət qədər faktlarla sübuta yetirilmişdir.

Beləliklə, Bakın ərazisində Sasanilər dövründə sikkə zərbi işinın başla-nılması faktı bu cür qədim pul bazarı ənənəsi olan bir şəhər üçün yenilik deyildi.

"Baqvan" adlı yer adının sikkələr üzərində zərbi Sasanilər dövründə sona yetməmişdir. Aparılan araşdırmalar zamanı bu baxımdan çox maraqlı faktlarla rastlaşdıq. 1889-cu ildə rus numizmat-alimi baron V. Tizenqauzenin, sikkə kolleksiyası həvəskarı A. Komarovun şərq pullarına həsr etdiyi bir məqaləsində XIX əsrin sonlarında Zaqatala ərazisində aşkar edilən 687 ədəd sikkə nominalından (onlardan 463-ü mis, 206 –sı gümüş. 18-i qızıldan) ibarət dəfinədəki 3 ədəd mis sikkə haqqında qısa qeydləri vardır. Həmin illərdə müəllif tərəfindən təyin edilməmiş mis sikkələrın dəqiq rəsmi əsərdə öz əksini tapmışdır. Uzun illərin təcrübəsinə və elmi araşdırmalara əsaslanaraq, ehtimal edirik ki, hər 3 mis fulus Bakıda Hülakilər hakimiyyətinin son illərində zərb edilmişdir. Hər 3 sikkənin üz tərəfində aydın ərəb əlifbası ilə "Baqan" adı oxunur (45, s. 4-5).

Deməli, Baqan-Bakı yer adı yenidən monqolların Azərbaycanda hakimiyyəti zamanı daxili ticarətdə istifadə olunan fuluslarda zərb edilmişdi.

Erkən orta əsrlərdə Bakının, Şirvanın inkişaf etmiş şəhərlərindən biri olması haqqında tarix elmində kifayət qədər məlumatlar vardır. Numizmatik baxımdan, İcərişəhərdən keçən əsrdə aşkar edilən sikkələr sırasında Sasanilərə aid 3 böyük həcmli dəfinə məhz göstərilən yüzilliklərdə Bakının ticarət münasibətlərinin yüksək həddə çatdığını göstərir (12, s. 4-5).

Elmi ədəbiyyata əsasən ilk kütləvi tirajlı, çoxsaylı sikkələr dəfinə statusu ilə eramızın V-VI əsrlərində Azərbaycanın Sasanilər imperiyasının tərkibində olduğu zaman dövriyyəyə buraxılmışlar. Sikkə tapıntılarına əsasən Azərbaycanda və ümumilikdə, xilafətin işğal zonalarında əvvəlki dövrlərə aid sikkələr dövriyyədə saxlanılmışdı. Ölkəmizin ərazisi VII-VIII əsrlərdə xəzərlərlə ərəblər arasında döyüş meydanına çevrilmişdi. Bu səbəbdən də yerli sikkəzərbi işi dayandırılmışdı. Bu zaman iqtisadi münasibətlərdə sasani-ərəb sikkələrindən istifadə edilirdi. İçərişəhər ərazisindən aşkar edilən Sasanilər zamanına aid olan sikkə dəfinələrinin tərkibində bu cür pullar vardır. Ərəblər işğalları sona çatdırdıqdan sonra dövlət quruculuğunun əsas atributu olan sikkə zərbi işinə başladılar. Bakı ərazisindən aşkar edilən, erkən ərəb dövrünə aid sikkələrdən bir qismi məhz İçərişəhərdən tapılmışdır. Artıq VIII əsrin sonlarından başlayaraq Azərbaycanın sikkə zərbi işi bərpa edilmlşdi. IX-X əsrlərdə Azərbaycanın digər mərkəzi şəhərləri kimi Bakıda da sikkə zərb edilmişdi (5, s. 63 ).

Azərbaycan ərəb xilafətinin tərkibinə daxil olduqdan sonra Bakı bir liman şəhəri kimi fəaliyyət göstərirdi. Mərkəzləşmiş Ərəb xilafətində eyni çəki, ölçü, pul vahidlərinin qəbul edilməsi ilə bütün imperiyanın hüdudlarında ticarət əlaqələrinin inkişafında, həmçinin xarici ölkələrlə iqtisadi münasibətlərin genişlənməsində heç bir problem yox idi. Bu zaman Azərbaycanın da daxil olduğu xilafətin ticarət əlaqələri uzaq şimal ölkələrinə qədər yayılmışdı. Göstərilən faktları sübut edən numizmatik materiallar sırasında Arran şəhərlərində, o cümlədən Bakıda zərb edilən nəfis gümüş dirhəmlər Rusiyanın şimalında, Almaniyada, İsveçdə, Norveçdə və Baltikyani ölkələrdə külli miqdarda aşkar edilir (1, 11-23).

Xilafətin pul-əmtəə münasibətləri gümüş dirhəmlərə əsaslansa da, dövlətin güclənməsi ilə mis fuluslar daxili, bəzi hallarda isə xarici bazarlara çıxarılan valyutalar sırasına qədər yüksəlirlər. Bu dövrün mis sikkələri ikonoqrafik, metroloji baxımdan sonrakı zamanlarda buraxılan eyni adlı sikkələrdən çox üstün olaraq, keyfiyyət baxıımından daha “uzunömürlüdürlər”. Mis fuluslar islam dövrünün əsl “müsəlman” pullarıdır. Bu və digər səbəblərdən ərəb xilafətinin mis fulusları anonim pullar sırasına daxil deyildir; çünki əksər hallarda belə sikkələrin möhüründə hökmdarların adı (lakonik şəkildə), titulları, zərb yeri və tarixi göstərilirdi. O cümlədən, Bakıda göstərilən yüzillikdə dövriyyədə olan mis

fuluslarda göstərilən detallar sırasında zərb yeri Bakuh, Bakuyya kimi xüsusi bəzək elementləri çərçivəsində vurulurdu.

IX əsrin sonu-X əsrin əvvəllərində Abbasilərin zəifləməsinin ilk göstəricisi, yenə də hər şeydən əvvəl sikkə zərbi işində özünü göstərmişdi. Siyasi baxımdan güclü, ərazisi üç qitəni əhatə edən ərəb xilafətinin parçalanması və yerində kiçik feodal dövlətlərinin yaranması, əslində islam bayrağı altında birləşən dövlətlərin parçalanması demək idi. Yeni yaranan dövlətlər xaricdə "de fakto" və " de yure" olaraq tanınmaq üçün cürbəcür yollara əl atırdılar. Azərbaycan ərazisində yaranan belə dövlətlərdən biri də Şirvanşahlar idi. Alimlərin apardıqları araşdırmalara görə bu dövlətin tarixi VI-XVI əsrin birinci yarısını, yəni 1000 ilə yaxın bir vaxtı əhatə edir.

Şirvanşahlar dövlətində rəsmi olaraq sikkə zərbi işinə 861-ci ildən başlanmışdı. X əsrin birinci yarısından Azərbaycanda fəaliyyət göstərən zərbxanalarda, o cümlədən Bakıda xəlifələrin adından Abbasi dirhəmlərinin zərbi prosesinə son qoyulur. Bu zaman Şərq ölkələrində, o cümlədən Azərbaycanda həyatın bütün sahələrində özünü göstərməyə başlayan dirçəlmənin əlamətləri görünməyə başlayır. Bu ilk rüşeymlər sırasında sikkə zərbi işində, deməli pul təsərrüfatında və ticarət əlaqələrində özünü büruzə verən "gümüş böhranı"nı xüsusi qeyd etmək lazımdır. Mahiyyət etibarilə bu hadisə bir çox inkişaf etmiş Şərq ölkələrində iqtisadiyyətin və iqtisadi əlaqələrin görünməmiş bir həddə çatması demək idi. Qərb ilk dəfə gümüş dirhəmlərin hansı dəyərə malik olmasını intensivləşmiş beynəlxalq ticarət əlaqələri nəticəsində anlamağa başlayaraq, çox dəyərli əmtəə kimi öz ölkələrinə daşımağa başladılar. Bunun nəticəsində ilk dəfə Şərq ölkələrinin tarixində insanların yüzilliklərlə öyrəşdikləri, qəbul etdikləri gümüş dirhəmlərin tərkibi dövlətlərin başçıları tərəfindən məcburi olaraq dəyişdirilir və "kredit" – müvəqqəti xarakterli ucuz metalların qarışığından kəsdirdikləri sikkələrin üz tərəfində "dirhəm" və ya "sim" sözü zərb edilməyə başlayır. Bu zaman ikinci böyük yenilik xarici ticarət əlaqələrinin güclənməsi ilə əlaqədar olaraq, Azərbaycanın daxili bazarlarına Bizansın qızıl solidləri və mis follislərinin daxil olması faktlarıdır. İçərişəhərdən, keçən əsrin ortalarından başlayaraq Bizansa aid xeyli miqdarda sikkələr aşkar edilmişdi. Onların sırasında 1944-1945-ci illərdə Şirvanşahlar sarayı ərazisində aparılmış qazıntılar zamanı tapılan Bizans imperatoru 1 Aleksey Komnenin (1089-1118) adından kəsilmiş qızıl solidi ilk qeydiyyatdan keçmiş tapıntılar sırasında qeyd etmək lazımdır (11, s. 12).

Şirvanşahlarin paytaxtının Şamaxıdan Bakıya köçürülməsi məhz bu intibahın və gümüş böhranının baş verdiyi zamana təsadüf edir. Apardığımız statistik təhlillərə görə İçərişəhərdən son 70 ildə aşkar edilib, elmi ədəbiyyatda öz

yerini tapan sikkə və dəfinə tapıntıları sırasında 60-63%-i XI-XIII əsrin əvvəllərində zərb edilmiş və dövriyyədə istifadə edilmiş sikkələrdir. Bu zaman Bakı bir şəhər kimi öz inkişafının kulminasiyasına, zirvəsinə çatmışdı. Burada Şirvanşahların adından zərb edilən külli miqdarda "bilon" sikkələr fikrimizi tam olaraq sübut edir. İlk dəfə kredit xarakterli bilon dirhəmlərin tərkibindəki gümüşün əyarının düşünülmüş şəkildə aşağı salınması Şirvanşah Yəzid ibn Əhməd ibn Məhəmmədin (974-1027) və Salman ibn Yəzid ibn Əhmədin (1049-1053) zamanında həyata keçirilməyə daşlamışdı. XII əsrin birinci onilliyindən etibarən gümüş böhranı "psixoloji həddi" keçmişdi. Belə ki, Şirvanşahların adından zərb edilən sikkələrin üzərində aparılmış kimyəvi analizlərin nəticəsinə görə gümüşün faizinin 0, 089 milliqrama qədər düşdüyü məlum olur (21, s. 28-30). Belə sikkələr əsasən daxili bazarı və yaxın ölkələrlə ticarət əlaqələrini təmin edirdi. O cümlədən, üzərində zərb yeri və tarixi göstərilməyən Şirvanşah Fərruxzadın Fəribürzün adından zərb edilən, cürbəcür qeyri- standart formalı sikkələr kütləvi şəkildə Gürcüstanda, indiki Ermənistanda (Qərbi Azərbaycanda) xeyli miqdarda aşkar edilmişdi. Şirvanşahlar uzaq ölkələrlə ticarət əlaqələrində numizmatik baxımdan çox mükəmməl olan qızıl dinarlardan istifadə etmişlər. Şirvanşahların nadir qızıl dinarları haqqında əsasən xarici ədəbiyyatda qısa məlumatlar vardır (45; 4). Azərbaycan numizmatikasına aid elmi ədəbiyyatda bu cür sikkələr haqqında məlumat yoxdur. Gümüş dirhəmlərin zərbi bu zaman kəskin şəkildə azaldığı üçün belə pullar nadir tapıntılar sırasına aiddir.

İçərişəhərdən aşkar edilən sikkələr sırasında Hülakilər – Elxanilərin 100 illik hakimiyyəti zamanı zərb edilən sikkələr kəmiyyət etibarı ilə ikinci yerdə dururlar. Numizmatik materialllların araşdırmalarına görə Şirvanda zərbxanaların yenidən fəaliyyətə başlaması monqol hökmdarı Arpa-Qaunun hakimiyyəti zamanı bərpa olunmuşdu. Bu zaman dövriyyəyə buraxılan sikkələr onun adından zərb olunurdu.

Hülaki xanın hücumlarından əvvəl Şirvanın monqollardan asılılığının göstəricisi olan sikkələrin üzərində Menqu – kaanın titulu olan " kaan –al – adil " və II Axsitanın adı Şirvanşah titulu göstərilmədən zərb edilirdi. Yenidən bu titul III Fəriburzun hakimiyyəti zamanı bərpa olundu. Bu zaman onun adından zərb edilən sikkələrdə monqol hökmdarlarının adı yoxdur. Bu cür sikkələr 653 h. ilinə qədər (1255-1256) zərb edilmişdir. Belə standartlara məxsus sikkələri zərb etdirmək hüququ yalnız ulu xaqanın iqamətgahına gedib bu hüququ ala bilən yerli hökmdarlara aid idi. Görünür, Şirvanşahlar da bu zaman belə yüksək imtiyazı əldə edə bilmişdilər.

İçərişəhərdən monqolların hakimiyyəti zamanı Cucilərə, Qızıl Orda xanlarına, Teymurilərə aid, əsasən Bakıda zərb edilən ayrı- ayrı sikkə nominalları

da aşkar edilmışdi. Bunların arasında elə sikkələr var ki, onlar yalnız Şirvanın mərkəzi şəhərlərində - Bakıda, Dərbənddə və Şamaxıda zərb edilmişlər. Belə sikkə nümunələri siyasi hadisələrin gedişində qısamüddətli zaman çərçivəsində elə bu şəhərlərdə dövriyyədə olmuşlar. Belə maraqlı sikkə nümunələrindən Qızıl Orda hökmdarı Şadi bəyin adından Bakıda zərb edilən gümüş dirhəmlərin nümunələri " İçərişəhərin tarixi " muzeyinin fondunda saxlanılır.

Bakıda XV əsrin ikinci yarısında qısamüddətli bir zamanda Şadi bəyin adından gümüş dirhəmlərin dövriyyədə olması haqqında ilk dəfə Y. A. Paxomov məlumat vermişdir. Müəllif, bu hadisəni Şeyx I İbrahimin Azərbaycan uğrunda Cəlairilərin, Cucilərin və Teymurilərin apardıqları gərgin mübarizə illərində uzaqgörən siyasətlə sikkə zərbi işini Teymurun, Toxtamışın və yaxud Şadi bəyin adından həyata keçirməsi ilə Şirvanı dağıntılardan xilas etməsini göstərirdi. Sonralar həm Azərbaycanın qədim ərazilərdən, həm də başqa ölkələrdən aşkar edilən bəzi sikkə nümunələrinin araşdırması nəticəsində daha dəqiq nəticələr əldə edilmişdir(1, c. 91-99).

Belə ki, Bakıda XIV əsrin II yarısından XV əsrin sonlarına qədər ayrı-ayrı monqol-türk hökmdarlarının adından zərb edilən sikkələr Rusiyada, indiki Ermənistanda, Orta Asiyada, Dağıstanda, Tatarıstanda, Gürcüstanda və digər ərazilərdə aşkar edilmişdir. Hesab edirik ki, Bakı zərbxanasının məmulatlarının belə geniş ərazilərdə yayılmasının bir səbəbi də Azərbaycanın XII-XV əsrlərdə ticarət əlaqələrinin daha da güclənməsidir. Burada həm ticarət yollarının dəyişilməsi, həm də Bakı limanının rolunun güclənməsini xüsusi qeyd etmək lazımdır. Bu zaman avropalıların Şamaxı ipəyinin sorağı ilə ucuz su yolu olan Qara dəniz – Xəzər vasitəsilə Şirvana çatmaları əslində Avropa pullarının bura axınına rəvac verdi. Şirvan ipəyi Bakı limanı vasitəsi ilə Həştərxana daşınır, sonra Volqa və Dona keçirilir, oradan da Venesiya tacirləri öz ticarət gəmilərində-qalerlərdə Azov dənizi ilə Avropaya aparırdılar. Əmir Teymur1395-ci ildə Həştərxanı dağıtdıqdan sonra ticarət yollarının istiqaməti dəyişildi. Azərbaycandan Avropaya gedən malları İran və Suriyadan keçməyə başladı(5, s. 106). Bu zaman ilk dəfə Avropa mənşəli mənbələrdə indiki Xəzər dənizinin adı Bakı dənizi adlanır (48, s. 177; 7, s. 86; 47, s. 145-146).

Həm keçən əsrin tapıntıları, həm də son illərdə aparılan arxeoloji qazıntılardan aşkar edilən numizmatik materiallar Bakının XV-XVI əsrin əvvəllərində tanınmış liman şəhəri kimi məşhur olduğunu sübut edir. Bu fakt həmçinin əmtəə-pul münasibətlərinin inkişafının ən yüksək mərhələsinə çatdığını göstərir. Göstərilən yüzilliklərdə hakimiyyətdə olan Dərbəndilər sülaləsinin apardığı

uzaqgörən siyasət nəticəsində Bakı Yaxın Şərqin mühüm şəhərlərindən birinə çevrilmişdir.

Beləliklə, VII əsrdən başlayaraq "Bakı" zərbxanası çox qısa fasilələrlə XIX əsrin əvvəllərinə qədər fəaliyyət göstərmişdi. Şəhərin Şirvanşahların paytaxtına çevrilməsi ilə pul işi ehtimal ki, elə İçərişəhərdə Şirvanşahlar sarayının daxilində yerləşmişdi. 1000 illik tarixə malik olan Şirvanın dövlətçiliyinin mərkəzi şəhəri kimi Bakı məşhur Şamaxı zəlzələsindən (1191) 1538-ci ilə kimi öz statusunu saxlamışdı. 600 ilə yaxın paytaxt olan Bakı sözsüz ki, öz zərbxanasını həmişə qorumuşdu.

861-ci ildən rəsmi olaraq yaranan Şirvanşahlar dövlətinin Kəsranilər və Dərbəndilər sülalələrinin nümayəndələri demək olar ki, öz sikkələrini əsasən Şamaxıda və Bakıda zərb etdirmişlər. Bəzi vaxtlarda, hətta vassal dövlətə çevrildikdə belə, Şirvanşahlar bu statusu saxlamağa müəyyən qədər nail olmuşlar. Bu gün, XXI əsrin birinci rübündə numizmatika elmi ilə az-çox məşğul olan hər kəs Şirvanşahların zərb etdirdikləri sikkələri yalnız onlara aid olan elementlərinə-xətt üslubuna, bəzək vasitələrinə və yaxud metalın rənginə, zərb formalarına görə, hətta anepiqrafiq (lal pullar-yazıları olmayan, yalnız bəzəklərdən ibarət olan) olsalar belə, təyin etməkdə çətinlik çəkmir. 1538-ci ildən sonra, yəni Səfəvi hökmdarlarının bu dövlətə son qoymasından sonra Bakıda zərb edilən sikkələr əsasən mis fuluslardır. Bu cür mis sikkələrin üzərində mövcud olan elementlərin ciddi araşdırılması nəticəsində onların üz və əks tərəfində"üstüörtülü" şəkildə Bakının dövlətçilik rəmzlərinin olması aydınlaşır. Bu cür sikkələrin üzərində Bakının adı ərəb əlifbası ilə "Bakuyya, Bakua" kimi cürbəcür yazılışlarla zərb edilmişdi. Mis sikkələrin elmi təhlili göstərir ki, artıq XIV əsrin II yarısından başlayaraq fulusların zərb edilməsi hüququ şəhərlərə həvalə edilmişdi. Bundan istifadə edən şəhər zərbxanaları dövriyyəyə buraxdıqları mis fulusların möhüründə-əksər hallarda zərb yeri və tarixini kifayət qədər aydın vururdular. Anonim xarakterli bu pulların üz və əks tərəflərində əsasən cürbəcür balıq, şir, dəvə və suitiyə bənzər məməlilər sinfinə aid canlıların obrazları, həmçinin Bakı zərbxanası üçün xarakterik olan xətli dairə və ətrafında altı ədəd nöqtəvari bəzək elementi orta əsrlərin sonuna qədər pul zərbi işində istifadə edilmişdi. Qeyd etmək lazımdır ki, analoji balıq obrazları İçərişəhərdə aparılan arxeoloji qazıntılar zamanı tapılan saxsı qabların oturacaq hissəsində aşkar edilmişdi (32; 35; 36; 38).

İçərişəhərdən aşkar edilən numizmatik materiallar sırasında, əsasən XVI əsrdən Azərbaycanın bütün ərazilərində tapılan Avropa ölkələrinin, gümüş və digər ucuz metalların qarışığından hazırlanan pullarını da qeyd etmək lazımdır. Belə dəyər vahidləri arasında say hesabına görə Rusiya dövlətinə aid olan "qrivenniklər"

çoxluq təşkil edir. Bu fakt, öz növbəsində XVIII-XIX əsrin I yarısında Rusiyanın Azərbaycanın işğal prosesinə məhz buradan başlamasını və Volqa-Xəzər su yoluna daha çox önəm verməsini bir daha sübut edir.

Beləliklə, Bakı zərbxanası V əsrdən etibarən kiçik fasilələrlə XIX əsrin ortalarına qədər fəaliyyət göstərmişdir. İçərişəhərdən aşkar edilən erkən sikkə nümunələri burada antik dövrdən iqtisadi münasibətlərin o cümlədən, pul və pul təsərrüfatının mövcudluğunu tam olaraq sübut edir.

## ƏDƏBİYYAT


1. Алиева Г. Материалы к каталогу монет Амира Тимура, чеканенные в городах Западного Ирана и Азербайджана. В сб. «Нумизматика Узбекистана», т. I. Ташкент, 1990.
2. Асланов Г. Об археологических памятниках Апшерона. Материальная культура Азербайджана, т. IX. Баку, 1980.
3. Ашурбейли С. Очерк истории средневекового Баку. Баку, 1964.
4. Ашурбейли С. Bakı şəhərinin tarixi. Bakı, 1998.
5. Ашурбейли С. Государство Ширваншахов (VI – XVIвв) Баку, 1983.
6. Бартольд В. Отчет об осмотре древнего мусульманского кладбища в г. Баку. Известия Императорской археологической комиссии. Вып. XVI. СПб., 1905.
7. Barbaro Г. Traveis to Taha and Persia, printed for the Haklnyt Sosity. MDCCC LXXIII, p. 86.
8. Левиатов В. Об археологических раскопках 1946 г. в Баку. Изв. Ан Аз. ССР, № 8, 1948.
9. Левиатов В. Археологические раскопки 1945 г. при дворце Ширваншахов в городе Баку. Изв. Ан Аз. ССР, №1, 1948.
10. Луконин В. Искусство древнего Ирана. Москва, 1977; История Иранского государства и культуры. Москва, 1971.
11. Пахомов Е. Монетные клады Азербайджана и других республик, краев и Кавказа. – Вып. I. Баку, 1926.
12. Его же. Вып. II. Баку, 1938.
13. Его же. Вып. III. Баку, 1940.
14. Его же. Вып. IV. Баку, 1949.
15. Его же. Вып. V. Баку,
16. Его же. Вып. VI. Баку, 1954.
17. Его же. Вып. VII. Баку, 1957.
18. Его же. Вып. VIII. Баку, 1959.
19. Его же. Вып. IX. Баку, 1966.
20. Его же. Монеты Азербайджана. Баку, 1959.

21. Его же. Химический анализ Ширванских монет. Изв. Азкомстарис. Баку, 1927.
22. Его же. Уточнение даты крепости бакинской бухты. Изв. Аз ФАН, №1, 1941.
23. Пиргулиева Г. Денежное обращение и метрология монет Азербайджана конца XIV – нач. XV вв. Баку, 2001.
24. Пиргулиева Г. Вопросы метрологии Азербайджанских монет XV-XVI вв. В сб. : «Археология и этнография Азербайджана», №1, 2005.
25. Pirquliyeva Q. Bakının tarixinə dair (numiazmatik materiallar əsasında) – "Tarix və onun problemləri" №4, Bakı, 2006
26. Pirquliyeva Q. Orta əsrlərdə Azərbyacan və Bizans arasında əmtəə-pul münasibətləri (sikkə materiallarına əsasən). Elmi məcmuə "Xəbərlər", №4, Bakı, 2007.
27. Пиргулиева Г. Медные монеты Азербайджана. Баку, 2007.
28. Pirquliyeva Q. Numizmatikanın əsasları. Bakı, 2009.
29. Птоломей К. География. Кн. V. Гл. II. В кн. Латышева В. Известия древних писателей о Скифии и Кавказе. Ч. 1. Вестник древней истории. Т. 2. Москва, 1948.
30. Рагимов А. Бакинский клад. Материальная культура Азербайджана. Вып. III Баку, 1953.
31. Раджабли А. Нумизматика Азербайджана. Автореферат доктора ист. наук. Баку, 2000.
32. Ибрагимов Ф., Исмизаде О. Ш., Фоменко В. П. Гусейнова С. Б. Археологические исследования Ичеришехер в 1980 году. – В сб. Археологические и этнографические изыскания в Азербайджане (1985). Баку, 1986.
33. Ибрагимов Ф. Раскопки 1986 г. в Бакинской крепости – Тезисы докладов конференции. Баку, 1988.
34. Ибрагимов Ф. Nadir tapıntı. – "Elm və həyat", №1, 1990.
35. İbrahimov F. Bakının qədim dövr tarixinə dair. -"Azərbaycan arxeologiyası və etnoqrafiyası" №2, Bakı, 2003.
36. Исмизаде О. О крашенной керамике средневекового Баку. Изв. Ан. Аз ССР. (СИФП) №1, Баку, 1942.
37. Исмизаде О., Ciddi H. Bakı, "Qız qalası". Bakı, 1968.
38. Исмизаде О., Ибрагимов Ф. Художественная штампованная керамика средневекового Баку, 1983.
39. Исмизаде О., Ш. Ибрагимов Ф. А., Минкевич-Мустафаева Н. В., Фоменко В. П. О раскопках у северных стен Баку. Археологические и этнографические изыскания в Азербайджане (1973г). Баку, 1974.
40. Исмизаде О., Гадиров Ф. В., Минкевич-Мустафаева Н. В., Ибрагимов Ф. А. Отчет о работе Бакинской археологической экспедиции 1968, 1969, 1959-1970 гг на территории «Ичеришехер». Научный архив Института Истории. д. 7417;7998;д. 7498;ф. 1. от 1. д. 7498.
41. Сейфеддини М. Средневековые монетные дворы Азербайджана. (1968 - 1983) Баку, 1994.

42. Saint J. Martin. Memaoriies, historiques et geographique sur Armenia. t. 1. Paris, 1818.
43. Тревер К. Очерки по истории и культуре Кавказской Албании. Москва, 1959.
44. ТебризиК. Jehal – e farhazde Iran. Tehran, 1335.
45. Тизенгаузен В. Новое собрание восточных монет А. В. Комарова. – Отдельный оттиск из записок Восточного отделения Императорского Русского археологического общество. Т. III. СПб., 1888.
46. Марков А. Каталог Джелаиридскaх монет. СПб., 1847.
47. Contrani A. The Travels of the Mesnidgicient. London, Sositej. MDCCC LXXIII.
48. Клавихо Р. Дневниk путешествия по двору Тимура в Самарканде в 1405 – 1406 гг. СТб., 1881.

## ROYAL MINT OF BAKU

**Ganira Pirguliyeva**

### Summary

**Keywords:**stat system, mint, silver and gold money.

The article deals with the ways of creation and formation of money system and mint of Baku. Numismatic materials found in the territory of the ancient part of the city – Icheri Sheher are defined.

On the basis of published archaeological, numismatic and manuscript data, the author dates the formation of the city of Baku to antique period. Forms of coins change chronologically and there are discovered new data on the history of the city and Shirvanshahs state till the annexation of Azerbaijan to Russian Empire.

## О МОНЕТНОМ ДВОРЕ БАКУ

**Ганира Пиргулиева**

# Резюме

**Ключевые слова:** государственность, монетный двор, серебряные и золотые монеты.

В статье рассматривается время возникновения и формирования монетного двора в городе Баку. В монетном дворе указанного города первые монеты стали чеканить с V века нашей эры, когда территория современного Азербайджана входила в состав Сасанидской империи. В это время монеты чеканились в городе Багаван. С переездом столицы Ширваншахов из Шемахи в Баку все монеты, чеканенные от имени Ширваншахов, чеканились именно в древнейшей части города – Ичери Шехер. Монетный двор Баку с небольшими перерывами продолжал функционировать до начала XIX века.

# ŞAMAXI VƏ QOBUSTAN RAYONLARI ƏRAZİSİNDƏKİ QALALAR HAQQINDA

**Lamiə Əhmədova**

Lamiaahmedova@gmail.com

AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu

**Açar sözlər:** arxeoloji qazıntı, istehkam, ilk orta əsr, şəhər.

Qafqaz Albaniyasının ta qədimdən coğrafi şəraitinin əlverişli olması yadellilərin bu ərazilərə basqınlarına şərait yaratmışdır. Lakin əhali bu basqınların qarşısını hər vasitə ilə almağa çalışmışdır. Bu səbəbdən də o dövrün tələblərinə uyğun ayrı-ayrı ərazilərdə müdafiə qalaları tikilmişdir. Şəhərlərin inkişafı həm əhalinin rifahı, həm də təhlükənin qarşısının alınması üçün vacib şərtlərdəndir ki, bu da zaman-zaman tədqiq edilən qalalarda öz əksini tapır (8, 44-46).

Qalaların tikilməsində eyni zamanda bu ərazidən keçən ticarət və karvan yollarına yaxın olması da nəzərə alınırdı.

Bizim tədqiq etdiyimiz Güngörməz, Quşçu və Başıbağlı qalaları da möhtəşəmliyi ilə fərqlənir. Şamaxı ərazisində olan bu qalalar əsasən müdafiə xarakterli idilər. Lakin bu qalaların nə zamandan mövcudluğu hələ tam dəqiq deyildir.

Tarixi mənbələrdə ərəb istilası və ya Sasani dövründə Şirvanda yaşayan əhalinin dağlara çəkilib qalalarda müqavimət göstərmələri haqda faktlara təsadüf etmək olursa da, qeyd edilən qalaların adına rast gəlinmir (10, 43-45). Amma bu qalalar barədə XII əsrin əvvəllərindən başlayaraq aydın məlumat verilir. Məsələn, 1123-cü ildə Səlcuq Sultan Mahmud (1118-1131) Şamaxını işğal edən zaman gürcü çarı David (1089-1125) Sultan Mahmudun yazdığı hədələyici məktuba cavab olaraq böyük ordu ilə Şamaxıya hücum edir. Çar David birinci növbədə Şirvanşahın iqamətgahı olan Gülüstan qalasını (12, 92-93) ələ keçirir. Mənbələrdə Gülüstan qalası monqol istilası dövründə də alınmaz bir qala olduğu haqda məlumat verilir. İbn əl-Əsir monqolların Şirvana basqın etmələrindən bəhs edərək yazır, onlar Azərbaycandan və Arandan keçərək, Dərbənd və Şirvanı zəbt etdilər. Oranın padşahı yaşayan qaladan başqa heç bir yer salamat qalmadı. Mənbələrin

verdiyi məlumata görə, monqollar Şamaxını mühasirə etdikləri dövrdə Şirvanşah alınmaz qalalardan birində gizlənmişdir (11, 36-38). Monqolların bu dövrdə Şirvanşaha sülh təklif etmələri Şirvanşahın gizləndiyi qalanın möhkəm olduğunu sübut edir. Çox güman ki, bu qala Şamaxının 27 km-liyində olan Güngörməz qalası olmuşdur. Ona görə ki, Gülüstan qalası qoşun saxlamaq üçün ərazisi kiçik olan bir qaladır. Bu yalnız 100 hektardan artıq ərazisi olan Güngörməz qalası ola bilərdi.

Güngörməz müdafiə istehkamında arxeoloji qazıntılar zamanı müəyyən edilmişdir ki, yaşayış yerinin sahəsi 90-100 hektara yaxın olub, üç hissədən: Şəhristan, Rabad və Narın qala adlanan ərazilərdir. Şəhristan tərəfinin cənub-şərq hissəsi dağılmışdır. Dağılan divarın uzunluğu təxminən 1 km-ə yaxındır. Qalanın şimal-qərb hissəsi nisbətən salamat qalmışdır. Bu hissədəki divar qalıqlarında hər 50-100-m-dən bir dairəvi bürc yerləri gözə çarpır. Dağılmış vəziyyətdə olan bürclərdə bitişik formalı başqa divar qalıqları da mövcuddur. Şəhristanın bütün ərazisi cənuba istiqamətlənmişdir. İstehkamın bir hissəsi çılpaq qayalıqlardan ibarətdir. Qala cənub-şərq tərəfindən sıldırım qaya ilə qurtarır.Şimal-qərb tərəfi isə təbii qayalıqdır. İstehkamın qərb hissəsindəki qayalıq Narın qala ilə birləşir. Həmçinin qalanın cənub-qərb hissəsi ilə Narın qala arasında başqa keçilməz təbii sədd də vardır. Qalaya giriş yalnız cənub hissəsindən mümkündür. Şəhristanın cənub-qərb, cənub-şərq istiqamətlərində qala Narın qalanın şərq tərəfindəki təbii divarın aşağı hissəsi ilə birləşmişdir.

Güngörməz müdafiə istehkamının tikintisində işlədilən bütün daşlar yerli yataqlardan əldə edilmişdir. Qala divarlarının qalınlığı 80-90-sm olub, bəzi hallarda 1-2 m-ə çatır. Bütün hörgü palçıq məhlulu ilə doldurulmuşdur. Hörgünün alt hissəsində nisbətən iri, üst hissəsində isə bir qədər kiçik daşlardan istifadə edilmişdir. Narın qala üç tərəfdən təbii qaya ilə, bir tərəfdən isə dörd divarla əhatələnmişdir. İ.İ. Meşşaninov orta əsrlərdə tikilmiş bu tip qalaları xarakterizə edərək yazırdı ki, adətən belə qalalar mühüm strateji əhəmiyyətə malik yerdə tikilirdi (6, 215). Şəhər divarlarının kifayət qədər möhkəm olmasına baxmayaraq feodallar öz saraylrının ətrafını da divarlarla əhatə edirdilər (3, 16; 4, 18; 6, 41) . Güngörməz müdafiə istehkamı da bu tip qalalardandır. İstehkam üç hissədən ibarətdir. Birinci divar qalanın Şəhristan hissəsini və buna paralel olaraq iri daşlardan hörülmüş ikinci divar isə qalanın rabat hissəsini əhatə edir. Bu iki divar arasında məsafə 10 metrdir. Üçüncü divar isə qalanın özünü iki hissəyə ayırır. Bu divar Narın qalanın şimal-şərq hissəsində tikilmişdir. Narın qala, qeyd etdiyimiz kimi, iki hissəyə ayrılmışdır. Ehtimal etmək olar ki, yerli əhali də buna görə qalanı iki adla adlandırırlar. “Yumru qalaq”, “Yastı qalaq”. Yumru qalağın ən hündür ye-rində türbə formalı qalıqlar mövcüddur. İlkin məlumatlara görə bu türbə sovet

hakimiyyətinin ilk illərində sökülmüşdür. Burada digər yaşayış binalarının qalıqları da vardır (2, 51-63) .

Yastı qalaq adlandırılan ərazi Narın qalanın üçdə iki hissəsindən bir qədər çox yer tutur. Burada kənd yeri adlanan ərazi vardır. Çay bu ərazinin cənub-qərb tərəfindən axır. Kənd yeri çayla 60-70 m sıldırım qaya ilə sərhədlənir. Gizli su yoluna çay yatağından 15-20 m hündürlükdə üç yarğan açılmışdır. Bu yarğanların üçü də eyni hündürlükdə olsa da ortadakı nisbətən böyükdür. Yarğanlar kənd yeri deyilən ərazidən qalxır. Kömək olmasa bu yarğanlara çaydan çıxmaq mümkünsüz idi. Gizli su yolundan 100 m şimala çaya düşmək üçün sıldırım dağlar arasından dar çığır salınmışdır. Bu yola yerli əhali “ Govur yaran” deyirlər.Bəzi yerlərdə qayanın yoldan olan hündürlüyü 20-25 m-ə çatır.Azərbaycan ərazisində “Govur”adı ilə əlaqəli çoxlu sözlər vardır.Govur qala,Govur yaran.Bu qalalardan biri Çuxur Qəbələ (7, 7-68) ilə bağlıdır. Belə ki, şəhərin Səlbir və Qala hissəsinə ümumi şəkildə Qala Səlbir,bəzi hallarda isə Govur Qala deyilir. Bəzən də təkcə onun qala hissəsi Govurqala hesab edilmişdir.Qalanin üstündə bir neçə hovuz və yataqlar mövcuddur. Xaçmaz (6, 109-110) və Oğuz rayonları ərazisində də Govur qala adlı abidələr vardır.İlk orta əsrlərdə mövcud olan iri feodallıqlar öz dövlət sərhədlərini düşmənlərin,xüsusilə köçəri tayfaların talançı basqınlarından qorumaq üçün sədd tipli müdafiə istehkamlarının (6, 44-46) tikintisi işinə çox əhəmiyyət verirdilər (10, 62-102). Belə ki, ölkəni öz itaəti altına alan Sasani imperiyasi xarici basqınlardan müdafiə olunmaq üçün yerli əhalinin istismar olunması hesabına Azərbaycanın şimal tərəfində Beşbarmaq, Girdimançay və Dərbənd səddləri Zaqatalanın uzun divarları (9, 95-96), kimi əzəmətli müdafiə istehkamları yaratmışdır (9, 54-110). Güngörməz müdafiə istehkamı da həmin dövrün məhsuludur. Güngorməz müdafiə istehkamında aparılan arxeolaji tədqiqat zamanı burada qala bürcü də aşkar edildi ki,bu bürcə qərbdən gələn divar qatı üçbucaq forma alaraq tamamlanırdı.

Hər iki divar qatlarının bürcə yaxınlaşan hissələri çox səliqə ilə hörülüb birləşdirilmişdir. Cənub və şimal istiqamətindəki divar isə bürcün bir qədər daxili hissəsində birləşmişdir. Çox maraqlı cəhət bu idi ki,qalanın bir hissəsində hündürlüyü 1,5 m olan yastı və hamar daşlardan istifadə etmişdir. Daşlar yonulmamasına baxmayaraq, hamar olduğundan daha çox yonulmuş daşlara oxşayırdı. Qazıntı sahəsində əldə edilən bir bürcün ölçüləri isə 9 x 9 m idi. Qazıntının bütün dərinliklərində saxsı qırıntılıları ilə yanaşı 1-1,5 kq ağırlığında yumru çay daşlarına rast gəlinirdi. Bu əsasən bürcün daşlarının dağılıb tikintinin üstünü örtməsi ilə bağlı idi. Daşlar təmizlənib, bürclərin konturları tapıldıqdan sonra artıq 1 metr dərinlikdən məlum olmuşdur ki, bu iki otaqlı qarşısında

kvadratşəkilli gözətçi məntəqəsi olan bir bürcdür.Şimal tərəfdəki otaqda 1,8 m dərinlikdə, 4-5 sm qalınlığında kül təbəqəsi var idi. Ümumiyyətlə qala təmizlənərkən ən çox ağac və qamış izlərinə rast gəlinmişdir. Qonşu otaqda nisbətən zəif kül təbəqəsi mövcud idi.

Güman etmək olar ki, əraziyə tökülmüş kül qalıqları gözətçi məntəqəsinin üstündə işarə vermək məqsədi ilə yandırılan ocaqla bağlıdır. Kül qalıqları gözəltçi məntəqəsinin bütün dörd tərəfinə eyni dərinlikdə yayılmışdır. Buna Pirsaat çay arxeoloji dəstəsinin 1986-cı ildə burada 5 x 5 metr ölçüdə apardıqları qazıntı işləri zamanı təsadüf edilmişdir. Tədqiqatlar zamanı divarların quruluşu və daşların bir-birindən fərqli cəhətləri olduğu müəyyən edilmişdir. Həmçinin iki yanaşı gedən divarın arasının sarı gillə bərkidilmiş torpaq qatı mövcuddur(2, 51-63).

Qeyd edilən bu iki otağın bütün dərinliklərində müxtəlif maddi- mədəniyyət nümunələri aşkar edilmişdir. Otaqların ölçüləri aşağıdakı kimi olmuşdur. Şimal tərəfdəki otaq 2,1- 2,8 m, cənub tərəfdəki otaq isə 2,4-2,8 metrə bərabər idi. Hər ikisi kvadratşəkilli idi. Otaqlar bir qədər şərqə tərəf meyilli olmuşdur, yəni dağın relyefinə uyğun olaraq tikilmişdir. Otaqların aşağı hissəsindəki hörgüdə 3 nəhəng daşdan istifadə edilmişdir. Bütünlikdə hörgüdə yonulmamış daşlardan istifadə edilməsinə baxmayaraq divar çox hamar, səliqəli hörülmüşdür. İki tərəfli hörgü müasir evləri xatırladır. Orta divar daşlarının əsas divar daşlarına keçməsinə əsasən demək olar ki, iki otaq arasındakı divar sonradan çəkilmişdir. Divar qara palçıqla xırda daşlardan istifadə edilərək hörülmüşdür. Divar hörgüsü qapıya 30 sm qalmış qurtarır. Hər ki, tərəfə keçmək üçün iki divarın arasında yol vardır.

Divarın özülünün 2 metr dərinlikdə qurtarmasına baxmayaraq mədəni təbəqə davam etmişdir. Divarın özülündə istifadə edilən daşlar çox səliqəsiz olub, müxtəlif ölçülüdür. Daşlar necə gəldi özülə atılmış və hamarlanma-mışdır. Özüldən aşağı hissədə də maddi mədəniyyət nümunələri aşkar edilmişdir.

Qazıntı sahəsinin bütün dərinliklərindən ilk orta əsrlərə məxsus oxşar maddi-mədəniyyət nümunələri aşkar edilmişdir. Qazıntı sahəsinin şimal tərəfində 2,4 metr dərinlikdə iki otaq yeri müəyyən edilmişdir. Bundan 10 sm aşağıda sol otaq yerləşirdi. Çox güman ki, bu tikinti vaxtı ilə daha hündür divar ilə əhatə olunmuşdur. Bürclərin çox hissəsinin salamat qalmasına baxmayaraq, qala dağıldığı zaman yəqin ki, bürclərə də təsir göstərmişdir. Qarşı tərəfdə isə daha iki tikili var idi. Şimal tərəfdəki otaq 2x2m olub, cox səliqə ilə hörülmüş tumba mövcud idi. Cənub tərəfindəkinin uzunluğu 4, 2m, eni isə 2 m-ə bərabər olmuşdur.

Hər iki divar tağ vasitəsi ilə bir-biri ilə birləşir. Tağın hündürlüyü 2 m, eni isə 1, 2 m olan yol bu bürclə birləşir. Bayır tərəfdəki tikili getdikcə maili olaraq yer səviyyəsinə çatır. Çox guman ki, bu tikililərdən ancaq gözətçi məntəqəsi kimi istifadə etmişlər. İstehkamın bu hissəsinə asanlıqla çıxmaq məqsədilə pilləkən düzəldilmişdir. Hər ki tikintinin divarlarının aşağı hissəsində iri həcimli daşlardan istifadə etmişlər. Tikililər müdafiə qalası ilə birləşmiş formadadır. Kvadratşəkilli tikilinin orta hissəsi torpaqla doldurulmuşdur. İkinci pilləkən rolunu oynayan tikili ancaq daş yığınlarından ibarət idi. İ.M. Cəfərzadənin fikrincə düzən yerdə tikilən düz bucaq formalı qalalar çox qədim olub, təxminən eramızdan əvvəl birinci min illiyin ortalarına aiddir (5, 109). Aparılan arxeoloji tədqiqatlar Güngörməz müdafiə istekamından, nəinki antik dövrdə, həm də ilk orta əsrlər dövründə təkcə Şamaxının deyil (2, 89-90), həm də bütövlükdə yaxın ərazilərin bu qurğudan istifadə edildiyi fikrini söyləməyə əsas verir. Şamaxı və Qobustan rayonları ərazısindəki müdafiə qurğuları və müdafiə istehkamları həm arxeoloji qazıntılar, həm də orta əsr səyyahlarının sayəsində öyrənilmişdir (8, 700-705) .

**ƏDƏBIYYAT**


1. Ş.S. Əhmədov. Pirsaatçay hövzəsinin ilk orta əsr arxeoloji abidələri. Bakı – 2006. 251 s.

2. R.M. Vahidov. Azərbaycanda küp qəbirləri mədəniyyətinin bəzi məsələlərinə dair. AMM VI c, 1965, 323 s.

3. C.Ə. Xəlilov. Xınıslı qədim yaşayış yeri Azərbaycan EA xəbərləri ictimai elm seriyası 1961, № 3, 165 s.

4. Г. А.Джидди. Средневековый город Шемаха IX – XVIII века. Баку, Элм 1981, 174 s.

5. F.Ə. Abbasova. Azərbaycanın orta əsr zoomorf əşyaları. Bakı, Elm 2004, 272 s.

6. И.А. Бабаев. Города Кавказской Албании (в IV в. до н.э. – III в. н.э.) Баку – Элм 1990, 234 s.

7. R.M .Vahidov. Mingəçevir III – VIII əsrlərdə. Bakı 1961, 160 s.

8. B.Ə. Rəcəbova. Azərbaycanın ənənəvi sənətkarlıq məmulatı və istehsalı tarixindən (IV – XVII əsrlər). Bakı, Elm 2009, 303 s.

9. A.Б .Нуриев. Ремесло Кавказской Албании. Баку 2009,

433 s.

10. H.Ə. Ciddi. “Orta əsr Gülüstan qalası haqqında tarixi-arxeoloji məlumat //Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri // Bakı 1961, № 6, 56 s.

11. H.Ə. Ciddi. Buğurt qalası. Bakı 1973, 54 s.

12. H.Ə. Ciddi. Gülüstan qalası. Bakı 1967, 115 s.

## TOWERS IN THE AREA OF SHMAKHI AND GOBUSTAN

**Lamia Ahmedova**

### Summary

**Key words**: archeological excavation, fortisication, early middle ages, city

All of the cities of first middle century, has surrounded by defence tower walls and other defence plants. Without this defence towers, it was impossible to ensure peacfull life of the city. Because these time form foreing attacks it was good way.

# КРЕПОСТИ НА ТЕРРИТОРИЯХ ШЕМАХИНСКОГО И ГОБУСТАНСКОГО РАЙОНОВ

**Ламия Ахмедова**

Резюме

**Ключевые слова:** археологическая раскопка, укрепление, ранее средневековье, город.

Почти все ранние средневековые города в целях обороны были окружены стенами и другими защитными устройствами. Не возможно обеспечить мирную жизнь без этих устройств, поскольку эти устройства служили защитою от иностранного вмешательства в города.



# УВЛЕЧЕННЫЙ ДРЕВНОСТЯМИ АЗЕРБАЙДЖАНА

Роза Аразова

rarazova@khazar.org

(Университет Хазар)

В начале XIX в. завоевав северные земли Азербайджана, Российская империя проводила целенаправленную колониальную политику, составной частью которой была переселенческая политика. С этой целью в этно-конфессиональной структуре населения Азербайджана появляются новые этносы, в том числе и немцы. В 1818 – 1819гг. на Гянджинских землях были образованы первые колонии – Елененндорф (Ханлар, ныне Гёйгёль) и Анненфельд (ныне г. Шамкир); вскоре число этих колоний увеличивается. Немцы – колонисты занимались виноградарством и виноделием, табаководством и изготовление искусственных минеральных вод.

Среди первых швабских переселенцев-колонистов был и Христиан Гуммель, род которого оставил определённый след в немецких страницах истории Азербайджана. Он приобрёл земельные участки под виноградники в местечке Садыллы на станции Шамхор (Шамкир), в самом Елизаветполе (Гяндже) и основал акционерное общество по производству вина и вино – водочных изделий. Впоследствии он передаёт своё хозяйство четырём сыновьям – Якобу, Альберту, Георгу и Готибу, которые и образовали фирму "Братья Гуммель", завоевавшей вскоре мировую известность.

Род Гуммелей внёс достойный вклад не только в развитие хозяйства, но также в образование и науку Азербайджана. Так, изучение древних археологических памятников Азербайджана в предвоенные годы прошлого столетия связано с именем Якоба (Якова) Гуммеля, который провёл значительные работы в Нагорном Гарабахе и особенно в Гянджачайском районе.

Якоб Гуммель (родился в 1893 году) получил хорошее образование. После окончания школы, учился в Тифлисе в Александрийском институте (1910 – 1914гг.), а по окончании работал учителем биологии сначала во Владикавказе, а затем с 1921г. в родном Еленендорфе. Гуммеля проявлял живой интерес к краю, изучая его историю и памятники, проводил с учениками раскопки в окрестностях города. В 1936 году он возглавил краеведческий музей, а в 1937г. стал научным сотрудником Азербайджанского филиала АН СССР. С этих пор Я.Гуммель начал вести систематические раскопки археологических памятников окрестностей района, тщательную фиксацию и накопление материала, который стал достоянием музея. В 1938г. Я.Гуммель активно участвовал в работе археологической экспедиции Академии Наук, занимающейся изучением средневековой Гянджи.



Трудно переоценить роль и

значение научного наследия Я.Гуммель в становлении и развитии первобытной археологии Азербайджана. Им исследованы памятники разного характера. Это погребальные курганы, поселения, мастерские по изготовлению орудий. Учёным собрано и посмотрено огромное количество каменных изделий, тысяча черепков глиняной посуды, чтобы придти к возможности сделать вывод или обобщение по древнейшей истории. Результаты раскопок учёный-энтузиаст опубликовал в отдельных научных изданиях и статьях (см. библиографию).

За прошедшие более полувека значительно расширились археологические поиски и раскопки в Азербайджане. Выявлены ряд новых памятников, позволяющие археологам вновь обратиться к научным высказываниям учёных, в том числе и Гуммеля. Безусловно, многие из этих положений остаются в силе. Вместе с тем, комплексный анализ всех памятников позволяет в настоящее время дополнить, уточнить и обрисовать объективную картину. Так среди изысканий Гуммеля в районе Гянджачай привлекает внимание мастерская каменных орудий в Киликдаге (№78) и стоянка №133. Я.Гуммель, исходя из каменного инвентаря, отметил их неолитический возраст. Это кремневые микропластины, скребки, наклеусы. Здесь были также найдены грубая керамика с нарезами на венчике и сквозными отверстями ниже него. Впоследствие высказывания Гуммеля подтвердил своими исследованиями И.Нариманов, который так же относит стоянку №133 к более раннему этапу производящего хозяйства в зоне среднего течения р.Куры, чем раннеземледельческие памятники типа культуры Шомутепе.

Среди находок из мастерской и сегодня исключительный интерес представляют многочисленные каменные желобчатые топоры, идентичные аналогичным орудиям из памятников Кавказа. Однако, вопрос о функциональном назначении их, к сожалению до конца остаётся спорным.

Самым важным среди исследований Я.Гуммеля оказались его работы на Ханларском курганном поле и накопление богатейшего инвентаря, позволяющий сегодня внести поправки в изучение древних обрядов погребения в Закавказье и выделение особенностей погребального ритуала. Гуммелю удалось установить закономерности в расположении могил под одной курганной насыпью, а также полагать, что могилы ориентированы в

них в связи с культом солнца, который, по его мнению, являлся основным культом среди древнего населения Закавказья.

Новую, очень интересную страницу в археологии Закавказья открывает отчёт Я.Гуммеля о раскопках в 1941г. трёх могил на юго-западе от г.Ханлар с очень своеобразным погребальным инвентарём.[1] В этой статье проявились в полной мере черты Я.Гуммеля как исследователя-трудолюбие, тщательность и скрупулёзность в работе, критическое отношение к источникам. Ученый, по-видимому, не решался сделать «окончательных выводов и более широких обобщений исторического характера», что свидетельствуется его замечанием в конце рукописи, но он хотел статьей «обратить внимание археологов и историков на новые, исключительно интересные памятники древности». И действительно. Среди раскопанных могил обращает внимание погребение вождя, который был подвергнут кремации, а сожжённые остатки уложены на катафалк в виде деревянных «саней» с впряжёнными в них двумя оленями. По мнению академика Б.Б.Пиотровского, этот обряд погребения перекликается с более поздним захоронением раннескифского времени в урочище Пазырык на Алтае, где конь в погребальной колеснице имел на голове маску оленя.

Ещё одна уникальная находка привлекает внимание из Ханларских раскопок. Это цилиндрическая печать митаннийского стиля, которую Я.Гуммель описал как бусину из белой пасты с изображением священного дерева, какого-то божества и коленопреклоненного человека. По справедливому замечанию Б.Б.Пиотровского, Гуммель, документируя находку бусиной, не имел сведения о митаннийской глиптике, так как тогда Митаннийская цивилизация была малоизвестна. В настоящее время, по мнению Б.Б.Пиотровского, печати митаннийского типа XV-XIV вв. до.н.э. распространены на широкой территории, в том числе и на Южном Кавказе, и они сопоставимы с ханларской печатью.

---

[1] Рукопись этой статьи была передана сыном Я.Гуммеля академику Б.Б.Пиотровскому, который подготовил её к печати со своими комментариями. Статья напечатана в «Вестнике древней истории» (1994, № 4), посвященной памяти Б.Б.Пиотровского.

Научные поиски Я.Гуммеля были связаны не только с западным районом Азербайджана, но и с Нагорным Гарабахом, где в 1938-1939гг. учёным были открыты и исследованы ряд курганных захоронений начала I тыс.до.н.э., сопровождающиеся образцами материальной культуры, керамикой и оружием. Так, при раскопках кургана №103 с массовым захоронением у г. Ханкенди Гуммель тогда допустил мысль, что захоронение покойников в таких склепах происходило в разное время. Вывод учёного нашёл дополнение и подтверждение благодаря изысканиям не только в Гарабахе в начале 80-х. годах прошлого столетия, но и в других регионах Азербайджана. Изучение археологом Т.Ахундовым культуры подкурганных склепов и её характерных особенностей позволило ещё раз подтвердить, что такие погребальные сооружения с коллективным захоронением являются "родовыми склепами, в которых по мере необходимости подзахоранивали очередного покойника.., что за определенное время приводило к скоплению в камерах большого количества костяков".

Уточнена и датировка таких погребальных памятников. Если Гуммель датировал их рубежом III – II тыс. до.н.э., то Ахундов, размещая их в рамки последней трети III тыс. до.н.э., относит к ранней стадии средней бронзы.

К сожалению, научная деятельность Я.Гуммеля была прервана в начале 1941г. не только войной, но и трагическими событиями, когда немецкие колонисты Еленендорфа были выселены в Казахстан. Здесь Гуммель до конца свой жизни (он умер в 1946г.) работал учителем в школе. Но несмотря на жизненные трудности, учёный с присущим ему трудолюбием и аккуратностью приводил в порядок свои записи и отчеты, готовил их публикации.

Сын немецкого народа, Я.Гуммель связал свою жизнь с Азербайджаном. Именно здесь произошло становление Гуммеля как учёного, раскрылся его удивительный талант. Своими поисками и исследованиями учёный-энтузиаст внёс большой вклад в археологическое изучение Азербайджана.

## Научные публикации Я.Гуммеля.

1. Погребальный курган № 1 около Еленендорфа. Баку, 1931.
2. Zur Archaologie Azerbeidzans – Eurasia Septeneionalis Antiqua, т.8, Helsinki, 1933.
3. Археологические разведки на Киликдаге. – Известия Азерб. ФАН СССР, 1938, № 2
4. К проблеме археоботаники Закавказья. Сообщ. Груз ФАН, 1940, т. 1, № 8-10
5. Археологические раскопки в районах Азербайджанской ССР. - Известия Азерб. ФАН СССР, 1939, № 3.
6. Раскопки в НКАО в 1938г. – Известия Азерб. ФАН СССР, 1939, № 4
7. Крашеная керамика в долине Гянджачая – Известия Азерб. ФАН СССР, 1939, № 5
8. Археологические очерки, Баку, 1940.
9. Из памятников материальной культуры Азербайджана – ВДИ, 1940, № 1.
10. Памятники древности в окрестностях Киликдага – Известия Азерб. ФАН СССР, 1942, № 2.
11. Раскопки поселения № 1 на запад от г. Ханлар (1939-1941гг.) – КСИИМК, вып.XXIII, 1948.
12. Некоторые памятники раннебронзовой эпохи Азербайджана. - КСИИМК, вып.XX, 1948.
13. Раскопки к юго-западу от Ханлар в 1941г. – Вестник древней истории, 1992, № 4.

## Литература.

1. Ахундов Туфан. Древнейшие курганы Южного Кавказа. Культура подкурганных склепов. Баку, 1993.
2. Вердиева Хаджар. Немцы в Северном Азербайджане. Баку, 2009.
3. Джафарова Диана. Исследования оружия Карабахской группы Ходжалы – Кедабекской культуры. – Azərbaycan arxeoloqiyası, Xəzər Universiteti, 2008, № 1-2.
4. Джафаров Г.Ф. Карабахские курганы периода разложения первобыт-нообщинного строя. – История и её проблемы. Баку, 1997, № 2
5. Ибрагимов Н.А. Немецкие страницы истории Азербайджана Баку, 1995.
6. Исмаилзаде Г.С. Роль немцев в становлении и развитии археологической науки в Азербайджане. Материалы Международной конференции. Баку, 2001.

7. Нариманов И.Г. Культуры древнейшего земледельческо-скотоводческого населения Азербайджана. Баку, 1987.

## SCIENTIST INSPIRED BY ANCIENT AZERBAIJAN

**Roza Arazova**

SUMMARY

**Keywords: german colonies, Yelenendorf, Kilikdagh, barrow, ceramics, tools, seal**

Present article is dedicated to the notable archaeologist- enthusiast Yakov Qummel. In 30-40s of the last century he was deeply interested in research of archeological monuments in Ganjachay region and Karabakh. Among those monuments investigated by him are various burial mounds, settlements and tools making workshops. They have been investigated by Yakov Qummel and widely represented in scientific articles. Yakov Qummel made the great contribution to the study of Azerbaijan history as well as enriched it by his valuable research.

## QƏDİM AZƏRBAYCAN ABİDƏLƏRİNİN VURĞUNU

**Roza Arazova**

XÜLASƏ

**Açar sözlər: Alman koloniyaları, Yelenendorf, Kilikdaq, kurqan, keramika, əmək alətləri, möhür.**

Məqalə görkəmli entuziast arxeoloq olan Yakov Qummelə həsr olunub. Yakov Qummel hələ ötən əsrin 30-40- cı illərində Gəncəçay ətrafı və Dağlıq

Qarabağda yerləşən arxeoloji abidələrin öyrənilməsi ilə məşğul olurdu. Bu abidələr çox müxtəlifdir. Onların arasında dəfn kurqanları, yaşayış yerləri və əmək alətləri hazırlanan emalatxanalar aşkar olunmuşdur. Bu abidələr Yakov Qummel tərəfindən ətraflı tədqiq olunmuşdur və onun elmi məqalələrində öz əksini tapmışdır. Həvəskar alim Yakov Qummel öz dəyərli araşdırmaları ilə qədim Azərbaycan tarixinin öyrənilməsində mühüm rol oynamış və silinməz iz qoymuşdur.

**ALBANİYA**

## TİQRANAKERTİNİN LOKALLAŞDIRILMASINA DAİR

**Mübariz Xəlilov**

(xalilov_az@yahoo.com)

Azərbaycan MEA Arxeologiya və Etnoqrafiya İnstitutu

**Açar sözlər:** arxeoloji ekspedisiya, şəhər, Qarabağ, eyniləşdirmə .

Ağdam rayonunun Ermənistan tərəfindən işğal olunmuş ərazisində, Xaçınçayın sağ sahilində Ermənistan MEA Arxeologiya və Etnoqrafiya İnstitutunun ekspedisiyası tərəfindən tarix elmləri doktoru Hamlet Petrosyanın rəhbərliyi altında 2006-cı ildən aparılan qanunsuz arxeoloji qazıntı işləri nəticəsində antik və orta əsrlərə aid bir şəhərgah aşkar edilmiş və bu abidənin yerində tarixi Tiqranakert yaşayış məntəqəsi lokallaşdırılmışdır. Bu şəhərin guya e.ə. I əsrdə Ermənistan hökmdarı II Tiqran tərəfindən əsasının qoyulduğu və onun inşa etdirdiyi dörd Tiqranakertdən biri olduğu barədə iddia irəli sürülməklə yanaşı eyni zamanda qeyd edilmişdir ki, burada söhbət Ermənistanın paytaxtı Tiqranakert şəhərindən getmir (4).

Tiqranakertin Ağdam rayonunun Tərnöyüt kəndi yaxınlığında lokal-laşdırılması istiqamətində ilk cəhdlər erməni müəllifləri tərəfindən hələ XIX əsrdə edilmişdir. G.Alişan, S.Cəlalyan, M.Barxudaryan həmin kəndin yaxınlığındakı qədim

yaşayış yerini ziyarət edərək onu Tiqranakertlə eyniləşdirmişlər. XX əsrdə S.Q.Barxudaryan Tiqranakerti Ağdam rayonu ərazisindəki Govurqala abidəsində yerləşdirmiş, lakin bu fikir Azərbaycan arxeoloqu R.M.Vahidovun etirazına səbəb olmuşdur (1, s. 180-181).

Qeyd etmək lazımdır ki, antik dövrə aid tarixi yazılı qaynaqlarda Albaniya ərazisində, o cümlədən, indiki Qarabağ bölgəsində Tiqranakert adlı hər hansı bir yaşayış məntəqəsinin mövcud olması haqqında heç bir məlumat yoxdur.

Albaniya Tiqranakertini qədim erməni müəllifi Sebeos (VII əsr) xatırlayır. İran-Bizans müharibəsinin gedişində, Sasani II Xosrovun hakimiyyətinin (591-628-ci illər) 34-cü ilində baş vermiş döyüşü təsvir edən Sebeos yazır ki, Bizans ordusu Midiya ölkəsinə istiqamət götürərək Paytakarana gəldi və Albaniya ərazisindən keçərək Gürcüstana getmək istədi; buna yol verməmək üçün İran qoşunlarının bir dəstəsi tez Ararat vilayətinə yetişdi, buradan isə Gürcüstan sərhədindəki Girdmana doğru irəlilədi və Girdman ərazisində hərəkət edərək Bizans ordusunun qarşısını kəsmək üçün «başqa bir Tiqranakert»də düşərgə saldı; İran qoşunlarının digər dəstəsi isə Bizans ordusunu təqib edərək, onun arxasında, «Tiqranakert adlı bir yerdə» qərar tutdu və beləliklə, Bizans ordusu mühasirəyə düşdü (5, s. 80).

Sebeosun əsərinin tərcüməçisi St.Malxasyantsın fikrincə, Sebeos tərəfindən işlədilən «başqa bir Tiqranakert» ifadəsi göstərir ki, Girdmanda iki Tiqranakert olmuşdur (baxın: 5, s. 167). S.T.Yeremyan, K.V.Trever kimi müəlliflər də Albaniyada iki Tiqranakertin mövcud olması fikri ilə razılaşmışlar. S.T.Yeremyan onlardan birini Şəmkir çayı sahilində, digərini Tərnöyüt kəndi (Ağdam rayonu) yaxınlığında, K.V.Trever isə bir Tiqranakerti Gəncə şəhərindən cənub-qərbdə, ikincisini Bərdə şəhərindən cənubda lokallaşdırmışdır (6, s. 239). Lakin yazılı mənbədə söhbət Bizans ordusunun Tiqranakertdə mühasirəyə alınmasından getdiyi üçün belə lokalizasiya cəhdlərini qəbul etmək qeyri-mümkündür. Çünki mühasirə halqası bu qədər geniş ərazini əhatə edə bilməzdi. Albaniyada iki Tiqranakertin mövcud olduğunu qəbul etsək və bu zaman mühasirə amilini nəzərə alsaq, bu məntəqələrin hər ikisinin Girdmanda bir-birinə çox yaxın yerləşmələri haqqında St.Malxasyantsın fikri həqiqətə nisbətən daha yaxın olur. St.Malxasyants və K.Patkanyan məsələyə tamamilə düzgün yanaşaraq alban Tiqranakertinin Ermənistanın paytaxt şəhəri Tiqranakertdən fərqli bir yaşayış məntəqəsi olduğunu vurğulayırlar (baxın: 5, s. 167). K.Patkanyan bir qədər də irəli gedərək Albaniyada, ümumiyyətlə, bir Tiqranakertin olduğu ideyasını irəli sürmüş və bu yaşayış

məntəqəsini «Alban tarixi» əsərində 704-cü il hadisələri ilə əlaqədar xatırlanan («Alban tarixi», III:8) Tkrakert (Tiqrakert) ilə eyniləşdirərək tarixi Paytakaran vilayətində, Araz və Kür çaylarının qovuşduğu yer yaxınlığında lokallaşdırmışdır (baxın: 5, s. 167). Sonralar M.İ.Artamonov da tərtib etdiyi xəritədə yalnız bir Tiqranakerti Bərdədən cənubda göstərmişdir (2, s. 200). St.Malxasyantsın Tiqranakertin Girdmanda yerləşməsi və K.Patkanyanın Albaniyada bir Tiqranakertin olması barədə fikirlərindən yararlanaraq əlavə kimi aşağıdakı dəlilləri gətirmək olar. Belə bir cəhətə diqqət yetirmək vacibdir ki, Sebeos «başqa bir Tiqranakert» ifadəsini öz əsərində Tiqranakerti ikinci dəfə deyil, birinci dəfə xatırladığı zaman işlədir. Buradan belə bir nəticəyə gəlmək mümkündür ki, Sebeos bu ifadə ilə Albaniyadakı iki Tiqranakerti bir-birindən deyil, alban Tiqranakertini Kiçik Asiyadakı məlum Tiqranakert şəhərindən fərqləndirir. Bunu nəzərə alaraq təsdiq etmək olar ki, Sebeos əslində Albaniyada bir Tiqranakert haqqında yazmışdır. Bizans ordusunun mühasirəyə alındığı ərazidə iki eyni adlı məntəqənin bir-birinə çox yaxın yerləşməsi imkanı məhduddur.

Albaniyada bir Tiqranakertin mövcud olması barədə yürüdülmüş fikir digər qədim erməni müəllifi Asohikin (XI əsr) məlumatı ilə də öz təsdiqini tapır. Asohik yazır ki, İran qoşunları Bizans ordusunu Tiqranakert kəndində mühasirəyə almışdı (3, s. 85). Asohikin tərcüməçisi N.Emin K.Patkanyan kimi Tiqranakerti Paytakaran vilayətində lokallaşdırır (baxın: 3, s. 85). Lakin Bizans və İran ordularının hərəkət istiqamətlərini, qət etdikləri məsafənin uzunluğunu, buna sərf edilən vaxtı və habelə Asohikin bu məlumatı Sebeosdan qısaldılmış bir formada götürdüyünü nəzərə alaraq bununla razılaşmaq çox çətindir. Unutmaq olmaz ki, Bizans ordusu Paytakarana çatanda İran bundan xəbər tutmuş və qoşun hissələrindən birini Bizans ordusunun ardınca, digər qoşun hissəsini isə Gürcüstana getmək istəyən bizanslıların qarşısını kəsmək üçün başqa bir yolla Girdmana göndərmişdi. İran ordusunun müvafiq bölməsi Gürcüstanla həmsərhəd olan Girdmana Ararat vilayətindən gəlmiş, Ararat vilayətinə haradan gəlməsi isə naməlum qalmışdır. Belə uzun bir yolu qət etmək üçün kifayət qədər böyük zaman tələb olunurdu və bu vaxt ərzində təbiidir ki, Bizans ordusu da Paytakaranda bir yerdə qərar tutub qala bilməzdi, yəni bizanslılar mütləq məqsədlərinə doğru – Gürcüstan istiqamətində hərəkət etməli idilər. Belə bir şəraitdə Bizans ordusu heç bir halda Paytakaranda mühasirəyə düşə bilməzdi. Tiqranakertin Paytakaranda yerləşməsi haqqında fikir yalnız o zaman qəbul edilə bilərdi ki, İran ordu hissələrinin hərəkətdə olduğu uzun müddət ərzində bizanslılar Paytakarandakı düşərgələrində qalaydılar. Bu isə, şübhəsiz ki, mümkün ola bilməzdi. St.Malxasyants haqlı olaraq K.Patkanyanın

fikrini tənqid edərək bildirirdi ki, Kürlə Arazın qovuşduğu yer hərbi əməliyyatın keçirildiyi Girdmandan çox uzaqda yerləşdiyi üçün Tiqranakert heç bir halda Paytakaranda qərar tuta bilməzdi (baxın: 5, s. 167).

Məlumdur ki, tarixi Paytakaran vilayəti Muğan düzü ilə yanaşı Mil və Qarabağ düzlərini də əhatə edirdi. Müasir Ağdam rayonu ərazisinin də ilk orta əsrlərdə bu geniş bölgəyə daxil olduğunu nəzərə alan erməni arxeoloqları Qarabağın hələ II Tiqranın dövründə qədim Ermənistana məxsus olduğunu təsdiq edən bir dəlil kimi Tiqranakerti məhz burada lokallaşdırmağa cəhd etmişlər. Lakin bir anlığa Tiqranakertin Paytakaranda yerləşməsi fikri ilə razılaşsaq belə, bu, Tiqranakertin Qarabağ düzündə qərar tutmasına dəlalət etmir. Çünki Sebeos çox aydın bir formada bildirir ki, Bizans ordusu Midiya (Atropatena) ərazisində hərəkət edərək Paytakarana çatmış və bundan sonra Albaniyaya keçmək istəmişdir. Sebeosa görə, Paytakaran şəhəri Atropatena hüdudlarına daxil idi (5, s. 28-29). Albaniya-Atropatena sərhədini isə Araz çayı təşkil edirdi. Deməli, Bizans ordusu Paytakaranın Atropatenaya daxil olan hissəsində müvəqqəti düşərgə salmalı və buradan Albaniyaya keçməyi planlaşdırmalıydı. Belə olduqda erməni arxeoloqları və tarixçilərinin məntiqinə uyğun olaraq Tiqranakert Qarabağ düzündə deyil, Muğan düzündə yerləşməli idi.

Tiqranakertin Tiqran şərəfinə adlandırılması bu yerin erməni yaşayış məntəqəsi olduğunu heç cür sübut etmir. «Tiqran» İran mənşəli ad idi və albanlar arasında da yayıla bilərdi.

Sebeos VII əsrdə Tiqranakertin hansı tipə aid yaşayış məntəqəsi olduğunu dəqiqləşdirmir, onu sadəcə bir yer adı kimi təqdim edir. XI əsrdə Asohik Tiqranakerti kənd adlandırır. Beləliklə, VII-XI əsrlərdə Tiqranakertin şəhər olması haqqında məlumat yazılı mənbələrdə öz əksini tapmamışdır. Arxeoloji qazıntılar isə Xaçın çayı sahilində aşkar edilmiş abidənin ilk orta əsrlərdə böyük bir şəhər olub XIV əsrə kimi mövcudluğunu göstərmişdir (4). Bu abidə kompleksində, Xaçın çayının sol sahilində 2007-ci ildə aparılmış arxeoloji qazıntılar nəticəsində II Tiqranın dövründən daha qədim bir qalanın aşkar edilməsi ilə qəti olaraq təsdiq edildi ki, Ağdam rayonu ərazisindəki bu şəhər yeri Ermənistan hökmdarı II Tiqran tərəfindən salına bilməzdi. Alban Tiqranakerti Girdmanda və ya Albaniyanın bu vilayətinin qonşuluğunda yerləşmiş və heç bir halda II Tiqranın inşaat fəaliyyəti ilə əlaqədar olmamışdır.

**Ədəbiyyat:**

1.Vahidov R. M. Govurqalada arxeoloji qazıntılar / Azərbaycanın maddi mədəniyyəti, VI c. Bakı: Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı, 1965, s. 167-182.

2. Артамонов М. И. История хазар. Ленинград: Издательство Государственного Эрмитажа, 1962, 524 с.

3. Всеобщая история СтепаносаТаронского, Асохика по прозванию, писателя XI столетия. Москва, 1864.

4. Геворкян З. Город на склоне горы // Еркрамас, 2006, № 6, с. 12.

5. История епископа Себеоса. Перевод Ст. Малхасянц. Ереван: Арм. ФАН, 1939.

6. Тревер К. В. Очерки по истории и культуре Кавказской Албании IV в. до н. э. – VII в. н. э. Москва – Ленинград: Издательство Академии Наук СССР, 1959, 392 с.

**ON THE LOCALIZATION OF ALBANIAN TIGRANAKERT**

**Mubariz Khalilov**

**Summary**



**Key words: archaeological expedition, town, Karabakh, identification**

In his article M. Khalilov criticizes the opinions of Armenian archaeological expedition concerning the identification of the old town in Karabakh with historical Tigranakert built in I century BC.

According to the ancient sources (Sebeos, Asohik), M. Khalilov has localized the town in the areas of Albania bordering Georgia.

**О ЛОКАЛИЗАЦИИ АЛБАНСКОГО ТИГРАНАКЕРТА**

**Мубариз Халилов**

**Резюме**

**Ключевые слова: археологическая экспедиция, город, Карабах, идентификация**

В этой статье М. Халилов критикует мнение армянских авторов о локализации исторического Тигранакерта, основанного в I в. до н. э., на месте городища, обнаруженного в Карабахе армянской археологической экспедицией.

Основываясь на данных древних источников (Себеос, Асохик), М. Халилов локализует этот город на пограничной с Грузией территории Албании.

**QARABAĞ BÖLGƏSİNİN QADIN BAŞ GEYİMLƏRİ**

**(XIX-XX əsrin əvvəlləri)**

***Fidan Əliyeva***

**fidaliyeva@mail.ru**

(AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutu)

**Açar sözlər**: Baş geyimi, Qarabağ, kəlağayı, araqçın, çarşab.

Keçmişin zəngin irsinin, Şərq xalqlarının, ilk növbədə Azərbaycan xalqının maddi və mənəvi mədəniyyətinin tədqiqində, həmçinin ayrı-ayrı regionların mədəniyyətlərinin qarşılıqlı münasibətlərinin öyrənilməsində tarixən formalaşan və daim inkişaf edən geyim mədəniyyətinin də mühüm rolu vardır (1, s. 40-43). Geyim mədəniyyətinin əsas hissələrindən biri də baş geyimləridir.

XIX əsrdə və XX əsrin əvvəllərində mövcud olan qadın baş geyimləri əvvəlki yüzilliklərin baş geyimlərindən o qədər də fərqlənmirdi. Qadın baş geyimləri öz formasına, materialına, biçiminə və rənginə görə müxtəlif olmuşdur.

Qadın baş geyimləri bağlama, geymə, sarıma olmaqla müxtəlif tipoloji qruplara bölünürdü. Azərbaycanın müxtəlif regionlarında qadın baş geyimləri ümumi milli xüsusiyyətlərə malik olsa da, hər bölgənin qadın baş geyimlərinin özünəməxsus lokal xüsusiyyətləri də olmuşdur.

Qarabağda geymə tipli baş geyimlərindən ***təsək***, ***çutqu*** və ***araxçın*** daha geniş yayılmışdı.

***Təsəyi*** bəzən «qadın papağı» da adlandırırdılar. Onun əsasən üç növü mövcud olmuşdur: saya, qaysava və inci.



Saya təsək əsasən pambıq parçadan hazırlanırdı, ağ və ya müxtəlif rənglərdə olurdu. Qaysava və inci isə üzəri bəzənmiş olmaqla təsəyin daha təkmil forması idi. Təsəyin üzərindəki naxışlardan asılı olaraq, onu müxtəlif cür adlandırırdılar (mirvari papaq, qızıl papaq, ayulduz). Bu baş geyiminin həm mənəvi, həm də funksional əhəmiyyəti var idi. Belə ki, o saç düzümünü qoruyub saxlamaq və saçları yad gözlərdən gizləmək funksiyaları da daşıyırdı. Təsəyin əsas təyinatlarından biri  də üstdən bağlanmış ipək yaylığı fiksasiya edərək onun  sürüşməsinin qarşısını almaq idi. Bundan başqa bu baş geyiminin üzəri mirvari, qızılı tikməli naxışlar və s. ilə bəzədilirdi. Yaşlı qadınlar onun kənarlarını çox vaxt bafta və güləbətinlə bəzəyir, üstündən isə böyük ipək və ya pambıq parçadan olan yaylığın bir ucunu sallayıb, qalan uclarını isə arxaya düyünləyirdilər.

***Çutqu*** qədim baş geyimlərindən biridir. Çutqu əsasən funksional (praktiki) xarakter daşıyırdı. Məlumdur ki, keçmişdə qadınlar uzun hörük saxlayırdılar. Hörük, adətən qadınların təsərrüfat işlərinə mane olmasın deyə çutquya salınırdı. Çutqu əsasən başın ölçüsünə və hörüklərin uzunluğuna uyğun ölçüdə hazırlanırdı və saç torbası rolunu oynayırdı. Bu funksiyalardan başqa çutqu həmçinin gigiyenik əhəmiyyətə də malik idi. Məlumdur ki, keçmişdə qadın saçını kənar şəxslərə göstərə bilməzdi və çutqu da saçı naməhrəm insanlardan gizlədirdi.

Qarabağda qadınlar saç düzümünün üstündən yarımdairəvi formada hazırlanmış **papaqcıq** – ***araxçın*** da qoyurdular. Araxçın başa kip otururdu və əsasən tərgötürmə funksiyası daşıyırdı. Araxçın ən çox ağ, yaxud da rəngli parçadan tikilir və adətən digər baş geyimlərinin altından geyilirdi. Onun bəzədilməsinə də xüsusi diqqət yetirilirdi. Məsələn, üzərinə müxtəlif rənglərdə  ipək və ya güləbətin saplarla naxışlar vurulurdu.  Belə naxışlı araxçınlardan əsasən əhalinin imkansız təbəqəsi istifadə edirdi. Varlı qadınların geydiyi





araxçınlar isə, əsasən  mirvari tikmələrlə və ya qızıl pilələrlə bəzədilir, eyni zamanda onlrın alın hissəsinə qızıldan və gümüşdən hazırlanmış silsilə bəzəklər də əlavə edilirdi. Araxçın əsasən qırmızı və ya göy rəngli məxmərdən və ya qanovuz ipəyindən tikilirdi. Araxçın «boğazaltı» və ya zəncirli qızıl, yaxud gümüş «qarmaq» vasitəsilə başa bərkidilir, daha sonra isə kəlağayı, örpək və s. bəzəkli baş sancaqları vasitəsilə ona bənd edilirdi. Araxçının üstündən ipəkdən və ya başqa parçadan, ucları boynun arxasına tərəf olan yaylıq bağlayır, sonra isə kəlağayı ilə örtürdülər.

Sarıma tipli baş geyiminə aid olan ***çalma -*** yaylıq və araqçının üstündən başa dolandırılan müxtəlif rəngli kəlağayılardan ibarət idi. Bu məqsədlə yaşlı qadınlar yalnız kələğayıdan istifadə edərdilər. Çalma başa qarmaq və yaxud bafta vasitəsilə bənd edilirdi. Bəzi hallarda çalmanın üstündən yaylıq və ya örpək də örtürdülər. Bu baş geyiminin daha az yayılmasının səbəbi, onun bağlanmasının çox vaxt aparması idi. Çalma üsulu ilə yaylıq bağlama Qarabağda daha geniş yayılmışdı.



Qarabağda bağlama tipli qadın baş örtüklərindən – ***yaylıq***, ***kəlağayı***, müxtəlif örpəklər, ***naz-nazı*** və ***qaz-qazı***, ***çarqat***, yuxarı hissəsi başı örtən ***çadra,*** üzü örtmək üçün baş geyiminə yuxarıdan əlavə olaraq bərkidilən ***rübənd,*** yaylığın və ya kəlağayının sol tərəfdəki ucunun burnun üstündən keçirilərək sağ qulağın arxasında bərkidilməsi ilə alınan ***yaşmaq*** geniş yayılmışdı.

***Yaylığı*** başa örtmək üçün onun ortası alına düşmək şərtilə, ucları arxaya aparılıb, hörüklərin altından çal-çarpaz keçirilir, yaylığın qanadları qabağa qaytarılır və onların üz tərəfdən hər biri geriyə döndərilməklə, yenidən boyunun ardında bir-birinə bağlanırdı.

***Kəlağayı*** qadın baş geyiminin ən geniş yayılmış növlərindən biridir. Kəlağayının bağlanmasında yaş və sosial fərqlər mövcud idi. Yaşlı qadınlar qara, gənclər isə ağ kəlağayı örtərdilər. Toy üçün nəzərdə tutulan kələğayılar isə adətən qırmızı və ya çəhrayı rənglərdə olurdu. İstər yerli kustar istehsala məxsus Gəncə, Şəki, Şamaxı, Basqal kələğayıları və istərsə də gətirilmə kələğayılar («qonşu bağrı çatladan», «saçaqlı kələğayı», «bağdadı», «heratı», «hələbi» və s.) varlı qadınların gündəlik geyim dəstinə aid idi, yoxsulların isə bayramlıq paltarları içərisində əsas yer tuturdu. Adətən,



təsəyin və ya çalmanın üstündən örtülən kələğayını başa bağlamaq üçün onu diaqonal boyunca qıyqac edir, uclarından birini sinə üstünə sərbəst buraxıb, digər ucunu sərbəst qalan qanadın üstündən kürəyə atardılar. Kələğayının kürəyə atılan qanadından yaşmaq kimi də istifadə edilirdi. Qarabağda araxçının üstündən örtülən kəlağayı qıyğacı qatlanandan sonra, ortası alının üstünə düşmək şərtilə, onun hər iki ucu boğaz altında qarşı-qarşıya gətirilərək, sağ ucu sol çiyindən arxaya atılır, sol ucu isə sağ çiyindən geri qatlanırdı.



Geniş yayılmış baş geyimləri içərisində «***qaz-qazı***» və «***naz-nazı***» da xüsusi yer tuturdu. Belə baş geyimi adətən təntənəli günlərdə taxılırdı və əhalinin varlı təbəqəsi arasında geniş yayılmışdı. «Qaz-qazı» və «naz-nazı» qış geyimləri hesab olunurdu. Onları çiyinin üzərinə salmaq olurdu. Onlar üst qış geyimini əvəz edirdi. Qış vaxtı varlılar bahalı kustar istehsalı olan tirmədən, kasıblar isə evdə toxunmuş qaba yun parçadan yaylıq bağlayırdılar.

***Çarşab (çadra)*** adətən şəhərlərdə (Şuşa, Bakı, Şəki və s.) geniş yayılmışdı. XVIII-XIX əsrlərdə Azərbaycana Bağdatdan və İsfahandan gümüşü güləbətinlə toxunmuş çadralar gətirilirdi (2, s. 41-49). XIX əsrin 30-cu illərindən sonra Moskva manufakturasının məhsulu olan «girvəngə çarşab» adlı çadralar örtən qadınlar da az deyildi (3,s.196-197). Çadraların materialı, rəngi qadınların yaş tərkibi və sosial mənsubiyyətləri kimi faktorlardan asılı idi. Cavanlar açıq, yaşlılar isə tünd rəngli çarşab örtürdülər. Çadra qadının yalnız üzünü deyil, eyni zamanda bütün bədənini yad nəzərlərdən qoruyurdu.

Çadralar əsasən yarımdairə və düzbucaqlı formada biçilirdi. Qarabağda əsasən düzbucaqlı çadra geniş yayılmışdı.



***Rübənd*** - üz örtüyü çadranın üstündən salınırdı və qarmaqla bənd edilirdi. Rübənddən İslam dini yayıldıqdan sonra üzü naməhrəm, yad nəzərlərdən qorumaq üçün istifadə olunurdu.

***Yaşmaq -*** semantik baxımdan yaşınmaq, bürünmək, çəkinmək mənalarında işlənir. Rübənd

kimi yaşmaq da islam dini qəbul edildikdən sonra yayılmışdır.

Azərbaycanda, ümumiyyətlə, qadın geyimləri sosial statusdan çox aslı idi. Bu geyimlərin hazırlandığı material və onların forması mövsümə maksimum uyğun olurdu. Qadın baş geyimlərinin yayılması və inkişafı da yuxarıdakı amillərdən asılı idi.

Azərbaycanda qadın baş geyimləri öz gözəlliyi və rəngarəngliyi ilə seçilirdi. Baş geyimlərinin hər biri sahibinin zövqündən, sosial statusundan, maddi imkanından asılı olaraq müxtəlif növ parçalardan hazırlanırdı. Azərbaycanın öz zəngin naxışları və bəzəkləri ilə seçilən qadın baş bəzəklərini xalq yardıcılığının və milli incəsənətimizin bir parçası hesab etmək olar.

**ƏDƏBİYYAT:**


1. Каграманов Дж. В. Из сокровищницы рукописей Азербайджана. Баку, Элм, 1983.
2. Dünyamalıyeva S.S. Azərbaycanın geyim mədəniyyəti tarixi. Bakı, Elm, 2002.
3. Кильчевская.З.А. Азербайджанский женский костюм XIX века из Карабаха. Вопросы этнографии Кавказа. Тбилиси, 1952.


## ЖЕНСКИЕ ГОЛОВНЫЕ УБОРЫ КАРАБАГА


**Фидан Алиева**


**Резюме**


**Ключевые слова**: Головной убор, Карабах, келагаи, арагчин, чаршаб.



Верхняя одежда Карабага, в том числе женские головные уборы, существовавшие до середины XX века, отличались своим национальным колоритом и разнообразием. Существовало много разновидностей женских

головных уборов, которые отличались не только по форму изготовления и материалу, а также по орнаменту и узору.

Среди женских головных уборов, в своё время, получили большую известность тесек, чютгу, арахчин, келагаи и чяршяб.

Каждый из этих видов женского головного убора, кроме своего прямого функционального назначения, имел ещё и морально-духовное назначение. Некоторые женские головные уборы, в том числе виды верхней одежды появились в Азербайджане после распространения религии ислама.

Женские головные уборы являются одним из видов народного творчества и национального искусства Азербайджана.

## WOMEN'S HEADDRESS OF KARABAGH

**Fidan Aliyeva**

**Summary**

**Keywords**: Headdress, Karabakh, kelagai, aragchin, charshab.

Outerwear of Karabagh that includes women's headdress, existed before the mid-twentieth century, differed by their national colors and variety. There were many varieties of women's headwear, which differed not only in the form of materials and workmanship, as well as ornaments and patterns.

Among women’s headwear, tesek, chyutgu, aragchin, kelagai and chyarshyab got a great reputation at their time. Each of these types of women's headwear, besides its direct functionality also had moral and spiritual purpose. Some types of clothing and women's headwear appeared in Azerbaijan after the spread of the religion of Islam.

Women’s headwear is a kind of national art and creativity of Azerbaijan.

# ZƏNGƏZURDA ƏNƏNƏVI YAŞAYIŞ EVLƏRI VƏYARDIMÇI TIKILILƏR

**Şəfayət Fərəcov**

shefayetnuvedi@list.ru

(Bakı Dövlət Universiteti)

**Açar sözlər:** ev, yardımçı tikili, alaçıq, baca, küp

Ev, yuva, mağara, sığınaq canlı üçün həyati zərurət olub onunla ekizdir. Hər hansı bir inkişaf mərhələsində insan heç bir zaman evsiz , sığınaqsız yaşamamışdır. İrqindən və yaşadıqları ərazinin təbii-coğrafi xüsusiyyətlərindən asılı olmayaraq ev insanlar üçün əsas yaşayış vasitələrindən biri olub (2,s.90). Ev, insanların təbii-zəruri istirahətini , məişət, təsərrüfat və həyati tələblərini təmin edən mühüm maddi mədəniyyət abidəsidir. İnsanlar istidən, soyuqdan, qardan, yağış və vəhşi heyvanların basqınlarından yalnız ev şəraitində qoruna bilirdilər. Birgə yaşayış, qarşılıqlı kömək, bir-birinə qayğı göstərmək ancaq ev şəraitində mümkündür. Bütün dünya insanları kimi Qərbi Azərbaycanda da yaşayan insan qrupu (tayfa, xalq, qəbilə, və s.) tapılmaz ki, evdən istifadə etməmiş olsun. Evin, bu mühüm maddi mədəniyyət abidəsinin nə zaman meydana gəlməsinin , ilkin formasının necə olması, nəyi evin başlanğıcı hesab etmək məsələsinin öyrənilməsi maraq kəsb edir. Onu qeyd etmək lazımdır ki, Qərbi Azərbaycanda ev tikmək mədəniyyəti çox qədimdir (3,s.100). Ən qədim ev formalarından biri dəyədir. Dəyə əsasən orta yaylaq və yaylaqlarda tikilir və son zamanlara, azərbaycanlıların Qərbi Azərbaycandan bütünlüklə deportasiyasına qədər ki, dövrə qədər tikilib istifadə olunurdu. Əsasən düzbucaqlı şəklində tikilən dəyələrin divarları təbii yastı daşlardan hörülürdü. Divarların hörgüsündə palçıqdan çox az istifadə olunurdu. Divarların qalınlığı 40-60 sm , ailənin sayından asılı olaraq dəyənin ümumi sahəsi 15-30 kv. m olurdu. Dəyənin damını əsasən uzunömürlü, möhkəm, çürüməyə qarşı davamlı ardıc ağacının hamarlanmış tirləri ilə örtülür. Tirlərin üzərinə nisbətən nazik şivlərdən çəpər döşənir, üzərindən samanla yoğurulmuş palçıq verilir.

Əsasən gil palçıqdan ibarət olan dam örtüyünün qalınlığı 15-30 sm qalınlığında olur. Örtüyü hamarlayaraq xüsusi ağır daşdan düzəldilmiş yuvarlaq hamar alətlə bərkidirdilər. Bunun nəticəsində dəyənin damı yağışa davamlı olur və damlamır.

Dəyənin bir qapısı olur və demək olar ki, pəncərəsi, bacası olmur. Girişin sol tərəfində adətən buxarı qurulur və bacası tavandan yuxarı, yəni evin damı dairəvi şəkildə deşilərək 80 sm -1m hündürlükdə bayıra qaldırılırdı. Buxarının bu üslubda tikilməsi ocağın yaxşı yanmasına xeyli kömək edir .Əsasən gildən düzəldilən buxarılar möhkəm, uzunömürlü olur. Buxarıdan əsasən dəyənin qızdırılması və yemək hazırlanmasında istifadə olurdu. Buxarıda yandırmaq üçün odun, çır-çırpı, təzək (quru mal peyini) və başqa quru şeylər yandırılırdı. Dəyənin dib tərəfində yük yeri düzəldilirdi. Yük yerinin üst qatında əsasən yataq əşyaları saxlanılırdı. Yük yerinin alt qatında ev əşyaları, qab-qacaq, vedrə, nehrə, teşt, ləyən, küplər və digər lazımı ləvazimatlar saxlanılırdı.

Dəyənin qapısına örtüyü əsasən gərməşovdan düzəldilirdi. Gərməşov Azərbaycanda və digər yerlərdə bitən ağac növüdür. Şivlər formasında bitən gərməşov yumşaq, elastik, yarıya asan bölünən olduğuna görə ondan müxtəlif əşyalar: təndirə çörək yapmaq üçün əşya, səbət, dəsgirə (səbətin xırda forması) və sairə əşyalar düzəldirdilər.

Dəyənin döşəməsi hamarlanaraq gildən düzəldilmiş və tərkibinə qəzil (keçi tükü) qatılmış palçıqla suvanırdı. Saman və ya qəzil qatılmış palçıq tərkibi dözümlü olur və çatlamır. Döşəmə quruduqdan sonra fərş döşənirdi. Fərş əsasən qara keçədən, kilimdən və həsirdən ibarət olurdu.

Qara keçə yunun tör-töküntüsündən düzəldilirdi. Onun düzəldilməsi üçün lazımı qədər yun götürülür və parça materialın üzərinə eyni səviyyədə sərilir. Sonra digər parça materialı ilə üstü örtülərək uzunsov yumru şəklində yumurlanır və 3-5 nəfər adamın iştirakı ilə təpiklə möhkəmcə döyülür. Uzun müddət döyüldükdən sonra alınan material çox möhkəm və dözümlü olur. Keçənin müsbət cəhətləri ondan ibarətdir ki, o, su keçirmir, yumşaqdır, alaçığı isti havada sərin, soyuq havada isə isti saxlayır.

Qara keçədən fərqli olaraq ağ keçənin hazırlanması baha olur və əsasən varlı zümrənin nümayəndələri ondan istifadə edirdi. Ağ keçənin hazırlanmasında təmiz, əla növ yundan istifadə olunurdu. Örtükdən başqa keyfiyyətli keçədən yapıncı, döymə üsulu ilə hazırlanan sənətkarlıq nümunələri hazırlanırdı.

Sığınacaq məskənlərindən biri də alaçıqdır. Alaçıq əsasən orta yaylaq və yaylaqlarda qurulurdu. Alaçıq qurmaq üçün ailə üzvlərinin sayına uyğun yer, eni 3-5 m, uzunluğu 5-8 m, hamarlanaraq düzbucaqlı şəklinə salınır. Düzbucaqlı sahənin dörd tərəfi boyunca hər 50-60 sm interval ilə deşik açılır. Deşiyin dərinliyi 20-40 sm olur və dairəvi çoxda geniş olmur .Bir cəhəti də qeyd etmək lazımdır ki, alaçığı hər ağacın şivlərindən qurmaq olmur. Onu ancaq ulas (üləs) ağacının şivlərindən qurmaq olur. Ona görə ki, ulas ağacının şivləri uzunluğu və elastikliyi ilə digər ağac növlərinin şivlərindən çox fərqlənir və hər tərəfə əymək mümkün olur. Alaçığın qurulması üçün əvvəlcədən hazırlanmış şivlərin yoğun tərəfi dəhrə və ya balta ilə qədlənərək ucu biz formasına salınır . Sonra hazırlanmış şivləri növbə ilə açılmış deşiklərə salınaraq ətrafı balaca daşlarla bərkidilir. Bu proses qurtardıqdan sonra qarşı tərəfdəki çubuqları əyərək yarımdairəvi şəklində bir-birinə məftillə və ya kəndirlə bağlanaraq axıra kimi tamamlanır. Sonra bel çubuqları deyilən çubuqları alaçığın eninə hər 50 - 60 sm-dən bir döşənir. Çubuqların eninə döşənməsi alaçığın möhkəmlənməsinə çox kömək edir. Çubuqlar bərkidilib qurtardıqdan sonra alaçığın su tutan tərəfindən xarım (qarım) deyilən arx açılır ki, bu da alaçığın yağış yağan zaman su ilə dolmasının qarşısını alır.

Bu işlər tamamlandıqdan sonra alaçığın dörd tərəfinə çətən çəkilir. Çətən əsasən qamışdan (qarğı) toxunurdu. Çətənin toxunmasında iplik kimi qəzildən toxunmuş çatıdan, adi ipdən və ya digər ipə bənzər yumşaq materiallardan istifadə olunurdu. Çətənin uzunömürlü, çürüməyə davamlı olması ondan geniş istifadə olunmasına səbəb olurdu. Onun hündürlüyü 1,2 sm dən 1,5 sm. qədər, uzunluğu 5 m-dən 10 m-ə qədər olur.

Alaçığın üstü çadır və ya keçə ilə örtülür. Yan tərəflərinə çətən tutulandan sonra çətənin üstündən cecim və həsir çəkilir ki, buda soyuq havanın qarşısını saxlayır. Alaçığın qapısı da üstünə həsir çəkilmiş çətən ilə bağlanır. Döşəməsi samanla qarışdırılmış palçıqla suvanaraq hamarlanır. Döşəmə quruduqdan sonra fərş ilə örtülür. Fərş əsasən kilimdən, keçədən və xalçadan ibarət olur .Alaçığın dib tərəfində adətən yük yeri deyilən yer düzəldilir. Yük yeri döşəmədən 60- 80 sm hündürlükdə, eni bir metrə qədər, uzunluğu isə alaçığın eninə uyğun olur. Yük yerinin düzəldilməsində əsasən ağac materiallarından istifadə edirlər. Yük yerinin üstündən yataq dəsti, döşəmə ləvazimatı, alt hissəsinə isə məişət əşyaları yığılırdı. Yük yerinin alt hissəsində məişət əşyaları ilə birlikdə ərzaq, motal pendiri, qovurma, mürəbbələr, un çuvalı, süd, qatıq və digər ərzaq məhsulları saxlanılırdı.

Alaçıq da dəyə kimi uzunmüddətli istifadəyə yararlı olur. Azərbaycanın bəzi yerlərində dəyə və alaçıq eyni yaşayış məskəni kimi qəbul olunur. Əslində bu yaşayış məskənləri bir-birindən tamamilə fərqlidirlər. Belə ki, dəyə daşdan tikilir və dördbucaqlı şəklində olur. Tavanı (üstü) ağac və palçıqla örtülür. Alaçıq isə tamamilə başqa formada tikilir. Onun tikilməsində əsasən ağac və parça materiallarından istifadə olunur. Forması döşəmə hissəsi düzbucaqlı şəklində, tavanı isə yarımdairəvi şəklində olur. Alaçıq dəyədən birdə onunla fərqlənir ki, alaçığın hər il yenidən üst və yan örtüklərini söküb yığışdırır və təzədən qururlar.

Yaşayış məskəni sayılan qədim evin bir forması da qara evdir (qara dam). Bu ev forması və parametrinə görə digər evlərdən fərqlənir. Qara evin əsas fərqi ondan ibarətdir ki, onun sahəsi çox böyük olur və ortasında dirək olur. Qara evlərin digər adı isə dirəkli evdir. Belə evlər adətən düzbucaqlı şəklində tikilir və onun tikintisində əsasən daşdan, kərpicdən, çiy kərpicdən istifadə olunur. Qara evlərin divarları çox qalın olur və bu qalınlıq bəzən 1-m-ə çatır. Evin hündürlüyü 2,5 m-dən 3 m-ə qədər olur. Ümumi sahəsi ailənin sayından asılı olaraq böyük və nisbətən kiçik olur. Evin bir qapısı və evin sahəsindən asılı olaraq 3 və daha artıq pəncərə qoyulur. Pəncərə evin işıqlandırılmasında çox böyü rol oynayır. Pəncərənin üst tərəfindən divarın içərisi ilə enli qoşa şəkildə taxta divar boyu qoyulur ki, bu da həm divarın həm də pəncərələrin və qapının möhkəmlənməsində böyük rol oynayır. Qoşa taxta zolağının üstündən yenidən divar hörülərək evin hörgüsü başa çatır. İmkanlı ailələrdə divar hörülüb qurtardıqdan sonra yenə də qoşa taxta zolağı aparılırdı ki, bu qayda həm evin möhkəmlənməsinə həm də zolağın üzərinə düzülən millərin eyni səviyyədə olmasını təmin edirdi (5,s.106). Qara evlərin adətən bir qapısı olur və bu qapı digər evlərin qapısına nisbətən çox böyük olur. Bəhs etdiyimiz evin qapı və pəncərələri palıd və ya qoz ağacından düzəldilir. İstifadə olunan taxta materialların möhkəm olduğuna görə onların hazırlanmasında xüsusi mismarlardan istifadə olunurdu. Belə mismarlar adi mismarlardan xeyli böyük və qalın olurdu. Qapı rəzə ilə bağlanır və 2 -3 cəftə (petlə) ilə açılıb –örtülür.

Qara evlərin digər evlərdən əsas fərqi ondan ibarətdir ki, belə evlərin tən ortasında dirək basdırılır . Bunun da əsas səbəbi odur ki, ev çox böyük olduğuna görə dam örtüyü möhkəm və davamlı olsun. Dirək bu cür evlərin tikilməsində mühüm rol oynayır və onun hazırlanması xüsusi əhəmiyyət kəsb edir. Belə ki, dirək üçün meşədə münasib ağac seçilərək qırılır, evin hündürlüyünə müvafiq uzunluqda ağacın yoğun hissəsindən kəsilərək yonulur, enli tərəfi haça halına

salınır, arabaya yüklənir və əvvəlcədən hazırlanmış yerə gətirilir .Sonra isə kölgəlik şəraitində uzun müddətə qurudulur. Çünki günəş şüaları altında qurudulan ağac materialları adətən çatlayır (4,s.141). Ağac quruduqdan sonra yenidən rəndələnərək hamarlanır və evin tən ortasında basdırılır. Dirək basdırıldıqdan sonra onun üzərinə uzun və yoğun tir qoyulur. Tir evin uzununa paralel qoyularaq ucları evin ön və arxa divarlarına oturdurulur, üzərinə millər (nərələr) düzülür. Millərin üzərindən pərdilər düzülərək nazik şivlərlə örtülür və üzərindən samanla qarışdırılmış gil palçıq verilir. Gil palçığın qalınlığı 15- 20 sm-ə qədər olurdu. Evin damı palçıqla örtüləndən sonra xüsusi hazırlanmış silindirvari ağır daşı damın eni və uzunu boyu diyirlədilərək bərkidilir . Damın bu üsulla bərkidilməsi çox effektli və bərk olduğuna görə su keçirmir. Bu da evin damlamamasını təmin edir və taxta materialların çürüməsinin qarşısını alır. Onu da qeyd etmək lazımdır ki ,qara evlərin damının tən ortasında baca açılır . Baca belə evlər üçün mühüm əhəmiyyət kəsb edir. Belə ki, baca evin işıqlandırılmasında, içəridə yığılmış tüstü və hisin çölə sorulub çıxarılmasında əsas rol oynayır.

Qara evlərin giriş qapısının yerləşdiyi hissədə adətən buxarı qurulurdu . Buxarıdan evin qızdırılması və yemək bişirilməsi üçün istifadə olunurdu. Buxarı gildən düzəldilir, tüstü borusu tavana qədər kərpiclə hörülür və tavan deşilərək çölə çıxarılır. Buxarıda əsasən odun, kərmə (qurudulmuş mal peyini) yandırılırdı.

Evin divarlarında bir neçə taxça və dolab düzəldilirdi. Taxçada məişətdə istifadə olunan əşyalar: güvənc, bardaq, qaşıq, qazan, ləyən və digərləri saxlanılırdı .Dolabda isə yataq əşyaları: yorğan-döşək, geyim, yundan və digər materiallardan hazırlanmış örtüklər saxlanılırdı. Taxca və dolaba bəzi hallarda taxta qapılar düzəldilir, bəzi hallarda isə onların qapısı pərdə örtülürdü.

Yaşayış tərzini təmin etmək üçün yardımçı evlərin tikilməsi vacib idi. Yardımçı evlər bunlardır: təndir, əl evi, at və mal-davar üçün tikilən tövlələr, mətbəx.

Təndir iki cür olur. Yerüstü və yerin içində. Yerin içində düzəldilən təndirləri qurmaq üçün əvvəlcədən yer səthi düzbucaqlı şəkildə hamarlanır . Sonra həmin yerin tən ortasında 1m enində və 1,2- 1,4 sm dərinliyində çala qazılır .Çalanın dib tərəfindən yerin səthinə qədər maili şəkildə hava borusu üçün dar xəndək qazılır və oraya truba basdırılır. Əvvəlcədən hazırlanmış təndir palçığını lazımı formaya salaraq çalanın dibindən çevrə şəklində üst-üstə qoyaraq xüsusi forma verməklə yerin səthinə qədər hörülür. Təndirin ağız hissəsi daha qalın palçıqla suvanır ki, bu da təndirin davamlılığını artırır.

Yerüstü təndirdə eyni qayda ilə düzəldilir və fərqi ondan ibarətdir ki, o yerin üstündə olur.

Təndirin düzəldilməsi üçün palçığı (zığı) 5-6 gün əvvəlcədən hazırlayırlar. Bu ona görədir ki, palçıq özünü tutsun . Çatlamasın deyə palçığa qəzil, saman qatılır. Məhlul ciddi-cəhd ilə qarışdırılaraq üstü basdırılır və lazım olanda istifadə olunur.

Təndirin qurudulması da xüsusi üsulla həyata keçirilir .Əvvəlcədən təndir vam qalanır ki, bu onun çatlamasının qarşısını alır. Bir həftəyə qədər çəkən bu prosesdən sonra təndir tam gücü ilə qalanaraq hazır formaya gətirilir. Təndirdən əsasən çörək bişirilməsində istifadə olunur və onda hazırlanan çörək məmulatları bunlardır: lavaş, fətir, sulu, kömbə və i. Kabab, toyuq kababı, ləvəngi və digər nemətlər də təndirdə bişirilir. Təndirin fəaliyyətini təmin edən ləvazimatlar bunlardır: çörək yapan, şiş, ərsin, təndirin külünü yığmaq üçün qulplu dəmir qab.

At tövləsi nisbətən hündür və geniş olur. Qapısı geniş olmaqla yanaşı iki tağlı olur. Girişin əks tərəfində arxa divar boyunca uzun və hündür axur düzəldilir. Atların bağlanması üçün yerə və ya divara möhkəm mıx vurulur. At tövlələrinin damında baca qoyulur. Atların baş sayı çox olduqda tövlələr daha böyük tikilir. Belə hallarda tövlələrin ortasından dirək basdırılır. Bu da damın möhkəmliyini təmin edir.

Mal-davar tövləsi də at tövləsi kimi tikilir və ancaq hündürlüyünə görə fərqlənir. Belə tövlələr alçaq və darısqal olur (1, s.27).

Ə evi deyilən məkan demək olar ki, bütün yaşayış evlərinin yanında inşa edilirdi. Alçaq və kiçik həcimdə tikilən evlər anbar kimi istifadə olunurdu. Burada əsasən qışlıq üçün ərzaq ehtiyatı ,məişətdə istifadə olunan ləvazimatlar, saxlanılırdı. Ə evinin içərisində divar boyu dolablar düzəldilirdi ki, bu da anbarda daha çox ərzaq və digər məişət əşyalarının saxlanmasına imkan verirdi. Onu da qeyd etmək lazımdır ki ,əl evi daima sərin olur.

Mətbəxin də həyətdə tikilməsinə Azərbaycanın digər yerlərində olduğu kimi Qərbi Azərbaycanın əksər bölgələrində də böyük önəm verilirdi. Mətbəxdə yemək bişirilməsi ilə yanaşı qışlıq üçün mürəbbə, qovurma və digər ərzaqlar hazırlanırdı.

**Ədəbiyyat**

1.Hacıyev İ. Azərbaycanda maldarlığın formaları haqqında. //Azərbaycan Etnoqrafik Məcmuəsi. Bakı, “ Elm”, 1977, 227 s.

2. Nəsirli M. N. Yaşayış evinin mənşəyinə dair. // Azərbaycan Etnoqrafik Məcmuəsi. Bakı, “ Elm”, 1977, 227 s.

3. Nəsirli M. N., Məmmədzadə K. Bir orta əsr yaşayış evi haqqında. // Azərbaycan Etnoqrafik Məcmuəsi. Bakı, “Elm”, 1977, 227 s.

4. Cavadov Q. C. Azərbaycanda ağacişləmə sənəti haqqında. // Azərbaycan Etnoqrafik Məcmuəsi. Bakı, “Elm”, 1977, 227 s.

5. Измайлова А. К истории развития жилищ юго-восточных районов Азербайджана.// Azərbaycan Etnoqrafik Məcmuəsi. Bakı, “Elm”, 1977, 227 s.

**TRADITIONAL DWELLINGS AND SUBSIDIARY STRUCTURES OF ZANGEZURA**

**Shafayat Farajov**

**Summary**

**Key words:** house, economic constrictions, tent, smoke-duct, jug

In ancient times Zangezur`s territory of Azerbaijan the cultural of living house and also auxiliary (economic) outhouse developed in various shapes. During of building of the house mainly used materials from stone, tree, loam. Living house constructed accordingly to the seasons and geographical conditions. The house itself were different of shapes and forms as the matter of fact the house living is the main role in human life.

Economical house's outhouse also played important role in human's life support. Construction of living stove, breads, created on essential technology and project. Such construction of this living condition was durable and long- solid.

## ТРАДИЦИОННЫЕ ЖИЛИЩА И ПОДСОБНЫЕ СТРОЕНИЯ ЗАНГЕЗУРА

**Шафаят Фараджев**

### РЕЗЮМЕ

**Ключевые слова:** дом, хозяйственные постройки, шатёр, дымоход, кувшин

В древнейших времён в Зангезурском крае Азербайджана культура строительства жилых домов и вспомогательных //хозяйственных// пристроек развивалось в различных формах. При строительстве жилищ в основном использовались материалы из камня, глины и дерева. Жилые дома строились соответственно временам года и географическим условиям. Являясь важным фактором в жизни человека, дома были различных форм и размеров.

Хозяйственные пристройки, также играющие большую роль в жизнеобеспечении человека, были неотъемлемой частью жилищ. Строительство столовых печей, хлебов осуществлялось на основе особых технологий и проектов. Построение таким способом дома и хозяйственные пристройки были прочными и долговечными.

# TÜRK MİFİK TƏFƏKKÜRÜNDƏOĞUZ ANTROPOMORFİK ZAMAN MODELİ

**RAMİN ALLAHVERDİYEV**

allahverdiyev1983@mail.ru

(AMEA-nın Folklor İnstitutu)

**Açar sözlər: mif, zaman, model, Oğuz, xaos, kosmos, invariant, variant.**

Mifoloji təfəkkür zaman-məkan kontiniumunu həm də insan şəklində qavrayaraq təqdim edir. Başqa cür ifadə etsək, əsatiri məfkurədə zaman-məkan vəhdəti insan obrazında modelləşərək dərk olunur. Əski türk mifik düşüncəsində zamanın (zaman-məkan vəhdətinin) modelləşdiyi insan obrazı Oğuzdur.

"Oğuznamə" də göstərilir ki, Oğuz ova çıxır, maral tutur və onu ağacın budağına bağlayıb gedir. Səhər açılır. Gündüz Oğuz qayıdanda görür ki, təkbuynuz (kiat) maralı aparıb. Yenə Oğuz ayı tutur və ağaca bağlayıb gedir. Sonra səhər olur. Oğuz bu dəfə də görür ki, təkbuynuz ayını aparıb. O, özü həmin ağacın altına gəlir. Təkbuynuz peyda olur. Oğuz onun başından qalxanı ilə vurur və onu öldürür (7, 25-26).

M.Seyidov bununla bağlı olaraq yazır; "Bu parçada gərgədan (təkbuynuz, yaxud kiat – R.A.) gecə, Oğuz isə həmişə dan sökülərkən (səhər) gəlir. Başqa sözlə, Oğuz səhərlə dan işığı ilə birgə peyda olur. Bu da onu göstərir ki, Oğuz səhərin açılmasını, danın sökülməsini, gərgədan isə qaranlığı təmsil edir" (5, 262). Alim, həmçinin, qeyd edir; "Oğuzun gərgədanı öldürməsi ilə əski əsatir yaradıcısı gecə ilə səhərin əsatiri mübarizəsini vermişdir" (5, 269).

Burada doğrudan da Oğuz obrazı zamanın gündüz hissəsini simvollaşdırır. Təkbuynuz (kiat) isə zamanın gecə hissəsini simvollaşdırır. Lakin məsələ heç də bununla bitmir. Oğuz – kiat (təkbuynuz) qarşıdurması variantı dərin mifoloji qatdakı Kosmos – Xaos oppozitiv invariantının transformativ semantikası və strukturu kimi aşkarlanır.

“Oğuznamələr” üzərində ardıcıl olaraq araşdırmalar aparan S.Rzasoy “Oğuz mifi və Oğuznamə eposu” kitabında Oğuz mifini belə xarakterizə edir; “Kosmoqonik mif bütün hallarda ilk elementləri nəzərdə tutur. Bu baxımdan, Oğuz mifində də İlk İnsan, İlk Zaman, İlk Məkan və s. Sakral elementlərdir” (4, 125). Müəllif eyni zamanda, dünya modeli kimi Oğuzu bu cür səciyyələndirir;

“Oğuz dünya modeli öz qlobal strukturunda Kosmos, Etnos və Zaman qatlarının paralel laylanması kimi təsəvvür oluna bilər. Bu strukturda Kosmos, Etnos və Zaman qatları bir-birinin kosmik əvəzləyicisi, ekvivalent işarəsi kimi çıxış edir. Yəni kosmik qatda baş verən hadisələr paralel olaraq fərqli kodlarla Etnos və Zaman qatlarında da baş verir. Bu, mifoloji şüurun eyniləşdirmə səciyyəli metaforik düşüncə tərzidir... Burada işarə ilə işarə edilən eyni zamanda həm özləri, həm də bir-birilərinin işarələri kimi qavranılır. Işarə eyni zamanda həm özü, həm də işarədir, aralarında metaforik sərhəd yox, qovuşma var” (4, 126).

Həqiqətən, Oğuzla bağlı folklor (mifoloji) mətinlərində Oğuz mifi Məkan məzmunu (məsələn; “Məgər xanım, Oğuzda Duxa qoca oğlu Dəli Domrul deyərlərdi, bir ər vardı” (3, 95) və s.), Zaman məzmununu (məsələn; “Oğuz zamanında Qanlı qoca deyərlərdi, bir gürbiz ər vardı” (3, 104) və s.), “Oğuz zamanında Uşun qoca deyərlər, bir kişi vardı” (3, 145) və s.), Etnos məzmunu (məsələn; “Ol zamanlar Oğuza nə gəlirdisə yuxudan gəlirdi”, “Qorqut ata Oğuz qövminin müşkilini həll edərdi” (3, 19) və s.), İnsan məzmunu ( Oğuz Xaqan ) kimi semantik laylarla müncərlənmiş formada aşkar oluna bilir.

“Oğuznamə” də arxetipik semantika və strukturun, yəni Kosmos – Xaos oppozitiv invariantının transformativ Oğuz – Kiat (təkbuynuz) qarşudurmasından savayı, digər anoloji variantı Oğuz – Qara xan qarşıdurmasıdır. K.Levi-Strosun müəyyənləşdirdiyi kimi “xüsusi funksiya daşıyan və məhz mifin strukturunu aşkarlayan təkrarlanma” (6, 206) Kosmos – Xaos oppozitiv invariantını mətində işarələyən Oğuz – Kiat qarşıdurmasının başqa anoloji Oğuz – Qara xan qarşıdurması variantı ilə əvəzləməyə imkan verir. Deməli, Oğuz – Qara xan oppozitiv variantı da Kosmos – Xaos oppozitiv invariantının mətndə transformativ proyeksiyasıdır.

Oğuz obrazı mifoloji təfəkkürdə həm də zamanı modelləşdirir. Oğuz antropomorfik zaman modeli adlandırdığımız bu modelləşmə Oğuz – Kiat, eləcə də Oğuz – Qara xan qarşıdurması variantlarının köməyi ilə aşkarlanır.

S.Rzasoy Oğuz – Qara xan qarşıdurması əsasında zamanın antropomorflaşmasını belə şərh edir; “ Beləliklə, Oğuz – Xaos qarşıdurma invariantı zaman kodundan Oğuz zamanı – Qara xan Zamanı qarşıdurması, bütövlükdə isə Kosmik Zaman – Xaotik Zaman qarşıdurması deməkdir. Başqa sözlə, bu, Oğuz kosmoloji düşüncəsində Zaman – Zaman qarşıdurması, yəni Oğuzun Zamanı ilə (ona məxsus zamanla) Qara xanın Zamanının (ona məxsus zamanın) qarşıdurmasıdır” (4, 128).

Əbəttə, Oğuz – Qara xan qarşıdurması variantına səthi yanaşıldığını biruzə verən bu mülahizə sadə formal məntiqə əsaslanaraq, əgər Oğuzun Zamanı varsa, Qara xanın da Zamanı olmalıdır prinsipindən çıxış edir. Lakin mifin daxili struktur məntiqi bu məsələnin mahiyyətinin başqa cür çözülməsini tələb edir.

Yuxarıda qeyd etdiyimiz kimi, təkrarlanaraq mifin daxili strukurunu (struktur məntiqini) aşkarlayan Oğuz – Kiat qarşıdurması və Oğuz – Qara xan qarşıdurması variantları Kosmos – Xaos oppozitiv invariantının törəməsidir. Ona görə, Oğuz burada Kosmosu simvolizə etdiyindən Kosmosu xarakterizə edən mifoloji funksiyaları da öz məzmununa pərçimləyir. Eləcə də onunla oppozisiyada olan Qara xan Xaosu simvolizə etdiyindən Xaosu səciyyələndirən mifoloji funksiyaları özündə cəmləşdirir. Əgər zamanın, məkanın, nizamın, səhmanın olması kimi mifik funksiyalar Kosmosu xarakterizə edirsə, zamansızlıq, məkansızlıq, nizamsızlıq, səhmansızlıq kimi mifik funksiyalar da Xaosu səciyyələndirir. Buna görə, mifoloji təfəkkürdə Kosmos – Xaos oppozisiyası müvafiq olaraq, zaman – zamansızlıq, məkan – məkansızlıq, nizam – nizamsızlıq, səhman – səhmansızlıq kimi ən universal (ümumi) mifoloji, arxetipik funksiyaların qarşıdurması kimi təsbitlənir.

Beləliklə, Oğuz – Qara xan (eləcə də Oğuz – Kiat) oppozitiv variantı Kosmos – Xaos oppozitiv invariantının transformativ törəməsi olduğundan, invariantın daşıdığı mifoloji funksiyalar invarianta da pərçimlənir. Buna görə də, zaman və zamansızlıq anlayışını antropomorfik şəkildə modelləşdirən Oğuz – Qara xan oppozitiv variantı S.Rzasoyun dediyi kimi “Zaman – Zaman qarşıdurması” deyil, mifin daxili struktur məntiqinin tələbinə uyğun olaraq Zaman – Zamansızlıq qarşıdurması kimi anlaşılmalıdır.

“Kitabi-Dədə Qorqud” da Təpəgözün “Qalarda-qoparda yigit yerin nə yerdir?” (3, 132) sualına Basat “Qalarda-qoparda yerim Günortac” (3, 132) deyə cavab verir. Düşündürücüdür ki, Basat öz yerinin mətnin məkan məntiqinə uyğun olaraq “Oğuz” olduğunu söyləmək əvəzinə, zaman anlayışını bildirən “Günortac” dır cavabını verir. Əslində mətnin Oğuzla bağlı məkan məntiqinə görə Basatın cavabı

“Qalarda-qoparda yerim Oğuz” kimi olmalı idi. Deməli, zaman anlayışı bildirən Günortac, Oğuzun ekvivalenti kimi işlənməklə Oğuzun semantik baxımdan həm də zaman anlayışı ilə bağlılığının olduğunu ehtimal etməyə əsas verə bilər.

“Kitabi-Dədə Qorqud” da işlədilən “Oğuz zamanında” ifadəsi də diqqəti cəlb edir. Bu ifadə Dədə Qorqudda əsatiri zamanı üzə çıxarmağa kömək edir. Poetik-mifik təfəkkürdə zaman məsələsini araşdıran prof. A.Hacılı yazır; “Kitabi-Dədə Qorqud”da hadisələr ilk cümlədəcə “Rəsul-əleyhüssəlam” zamanına yaxın dövrə aid edilir. Lakin bu bildirişi heç də obyektiv və doğru dəlil, əsərdəki Dədə Qorqudu tarixi, hətta ədəbi şəxsiyyət, diplomat hesab etməyə əsas verən fakt kimi yox, yəqin ki, əvvəllər başqa dövrə aid olan ənənəvi poetik formulun sonrakı redaktəsi kimi anlamaq daha düz olar. Belə ki, eposda bu formul, adətən, hadisələrin qədim, şanlı dövrdə, məğlubedilməz igidlərin, xanların yaşadığı “epik keçmişdə” baş verdiyini göstərir” (1, 38-39).

H.İsmayılov da bunula əlaqədar olaraq qeyd edir ki, “KDQ-nin İslamdan öncəki dastan formasında zaman qəlibi hökmən “Qorqud ata adlı bir ərin qopmasını” Oğuz xanın zamanına aid etməli idi (2, 338).

Əbəttə, burada “Rəsul-əleyhüssəlam zamanı” ifadəsi əsatiri zamanı işarələyən ənənəvi formulun sonradan islamın təsiri ilə baş vermiş dəyişikliyi kimi qəbul olunmalıdır. Bunu dastanının iki boyunun başladığı ilk giriş cümlələri də sübut edir. “Qanlı qoca oğlu Qanturalı boyu” “Oğuz zamanında Qanlı qoca deyərlərdi, bir gürbiz ər vardı” (3, 104), “Uşun Qoca oğlu Səgrək boyu” isə “Oğuz zamanında, Uşun qoca deyərlər, bir kişi vardı” (3, 145) cümlələri ilə başlayır. Xoşbəxtlikdən bu iki boyda əsatiri zamanı işarələyən “Oğuz zamanı” ifadəsi İslamın təsirindən yaxa qurtara bilmişdir.

Beləliklə, türk mifoloji təfəkküründə zamanı modelləşdirən Oğuz antropomorfik modeli kosmoqoniya ilə bağlı olub kosmik düzümü, kosmosu və onunla əlaqəli olan ilkin yaradılış motivlərini mifopoetik model olaraq özündə müncərləşdirir.

**ƏDƏBİYYAT:**

1. Hacılı Asif. Mifopoetik təfəkkür fəlsəfəsi. Bakı: Mütərcim, 2002.

2. İsmayılov Hüseyn. Göyçə aşıq mühiti: təşəkkülü və inkişaf yolları. Bakı: Elm, 2002.

3. Kitabi-Dədə Qorqud. Əsil və sadələşdirilmiş mətnlər. Bakı: Öndər nəşriyyat, 2004.

4. Rzasoy Seyfəddin. Oğuz mifinin paradiqmaları. Bakı: Səda, 2004.

5. Seyidov Mirəli. Azərbaycan mifik təfəkkürünün qaynaqları. Bakı: Yazıçı, 1983.

6. Клод Леви-Стросс. Структурная антропология. Москва: Издательство «Наука», 1985.

7. Шербак Александр Михайлович. Огузнаме. Москва: Издательство восточной литературы, 1959.

**OKHUZ ANTROPOMORFOGICAL MODEL OF TIME**

**IN MYTHOLOGICAL THINKING**

**Ramin Allahverdiyev**

**Summary**

**Key words: myth, time, model, Okhuz, xaos, cosmos, invariant, variant.**

Time conception (time- place kontinium) in turk mythological thinking is percevied Okhuz image too. It is called Okhuz's antropomorfogical model of time. This model embraces primary cosmogonical world outlooks with time (with time-place continium). As model analysis of Okhuz discovers theese world outlooks.

# ОГУЗСКОЕ АНТРОПОМОРФИЧЕСКОЕ МОДЕЛИРОВАНИЕ ВРЕМЕНИ В МИФОЛОГИЧЕСКОМ МЫШЛЕНИИ

**Рамин Аллахвердиев**

## Резюме

**Ключевые слова: миф, время  модель, Огуз, хаос, космос, инвариант, вариант.**

В тюрксом мифологическом мышлении понятие времени (пространственно-временной континуум) также моделируется как образ Огуза. Эта называется антропоморфическая модель Огуза. Модель Огуза охватывает в себе первобытные космогонические взгляды связанные со временем (пространственно-временной континуумом). Анализ модели Огуза обнаруживает эти взгляды.

# BİZİM ARXİVİMİZDƏN
# FROM OUR ARCHIVE
# ИЗ НАШЕГО АРХИВА

## BİR ARXİV MATERİALININ İZİ İLƏ

*İshaq Məmmədrza oğlu Cəfərzadə. O, Azərbaycanın ilk milli arxeoloq-larından biri idi. 14 avqust 1895-ci ildə Gəncədə anadan olmuşdur. 1927-ci ildə Azərbaycan Ali Pedaqoji İnstitutunda təhsil almışdır. O, təhsilini davam etdirərək 1930-cu ildə Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin məzunu olmuşdur.*

*İ.Cəfərzadə 1925-ci ildən Azərbaycan Tədqiq və Tətəbbö Cəmiyyətinin, Azərbaycanın Qədim Abidələrinin mühafizə komitəsinin üzvü və Azərbaycan Dövlət Muzeyinin elmi əməkdaşı olmuşdur. 1933-cü ildən Azərbaycan SSR EA Tarix İnstitutunda işləmiş və arxeologiya şöbəsinə rəhbərlik etmişdir.*

*Vətənini, xalqını sevən, qədim tariximizə, xalqımızın milli adət-ənənələrinə, həyat tərzinə, məşğuliyyətinə hörmətlə yanaşan tədqiqatçı İ.M,Cəfərzadə 70-dən çox maddi mədəniyyət abidəsini aşkara çıxarmışdır. Xocalı, Qızılburun (Qızılvəng), Çovdar, Yaloylutəpə, Örənqala arxeoloji ekspedisiyaları, həmçinin müxtəlif regionlara təşkil edilmiş etnoqrafik səfərlər ona xalqımızın qədim tarixi haqqında dəyərli elmi fikirlər söyləməyə imkan vermişdir.*

*O, bir çox arxeoloji ekspedisiyalara – Gəncə (1938-40), Abşeron, Səbayıl, Qobustan (1939-50) rəhbərlik etmişdir. Qobustan qayaüstü təsvirlərinin tədqiqi, ilk olaraq onun adı ilə bağlıdır. İ.M.Cəfərzadə 1944-cü ildə "Tarix elmləri namizədi" alimlik dərəcəsini almışdır. 1965-ci ildə "Azərbaycan SSR əməkdar elm xadimi" adı ilə qiymətləndirilən İ.M.Cəfərzadə Azərbaycanda arxeologiya və etnoqrafiya*

*elminin inkişafında xidmətlərinə görə Qırmızı Əmək Bayrağı ordeni və bir çox medallarla təltif olunmuşdur.*

*Milli arxeoloq və etnoqraf kadrların hazırlanmasında böyük və əvəzedilməz əməyi olan İ.M.Cəfərzadə 87 yaşında, 5 yanvar 1982-ci ildə dünyasını dəyişdi (Allah ona rəhmət etsin!).*

*İ.M.Cəfərzadə elm sahəsində qazandığı bu uğurları asanlıqla əldə etməmişdir. 1930-cu illərdə ona qarşı irəli sürülən ağır ittihamlar, atılan ləkə və böhtanlar onu çətinliklərlə üzləşdirmişdir. Onun biliyi, təcrübəsi, cəmiyyətdə mövqeyi, sərt addımı və iradəsi onu erməni avantüristlərinin zərbəsindən xilas etmişdir.*

*Əldə edilmiş arxiv materiallarını izləyək, düşünək və nəticə çıxaraq...*

## В центральную комиссию по чистке Госаппарата ЦКК РКИ

Тов. Исаак Джафар- Заде мне известен с1926 года, когда я был Ученым секретарем О-ва изучения Азербайджана при АзЦИКе. Мы привлекли тов. Джафар-Заде к работе по археологии и включили его в состав большой экспедиции, руководимой известным Ленинградским яфетидологом проф. И.И. Мещаниновым. С тех пор тов. Джафар-Заде стал активнейшим работником историко-этнографической секции О-ва, принимал участие в большинстве наших археологических экспедиций и разрабатывал материалы этих экспедиций. Проф. Мещанинов весьма ценил тов. Джафар-Заде как лучшего раскопщика в АССР, как исключительно добросовестного и ценного работника. К этой характеристике я, зная тов. Джафар-Заде в течении пяти лет совместной работы, всецело присоединяюсь. Поскольку я близко стою уже значительное время к научной работе Азгосмузея, в котором тов. Джафар-Заде работал, я еще раз подчеркиваю, что он и там был знающим и ценным работником.

Что касается этого злосчастного “мусаватского уголка”, то для меня, старого большевика, остается спорным вопросом, не следовало ли бы Азгосмузею такой уголок организовать в комнате капиталистического города? Но дело в том, что такой уголок не был организован, и тов. Джафар-Заде из-за этого на стенку не полез и от коллективной работы по реорганизации никогда не отказывался. По крайней мере, мне об этом ничего не известно. Единственными упорными противниками реорганизации музея были художники М.А. Фабри и В.А. Оболенский, особенно первый из них, и остальные части музейного коллектива пришлось выдержать с ними жестокую борьбу, вплоть до постановления о последнем предупреждении и предложения директору снять их с работы за злостный срыв реорганизации. Тов. Джафар-Заде же был первым из штатных работников музея, который еще при старом руководстве ставил вопрос о необходимости реорганизации его.

Пункт постановления комиссии по чистке об “аполитичности” и “от-сутствии марксистской установки”меньше всего может быть применен к тов. Джафар-Заде, который является почти единственным работником музея, прошедшим в ВПИ АГУ целую кучу общественных дисциплин в марксистской установке. По всему научному мировоззрению тов. Джафар-Заде примыкает к яфетидологии, которая является диалектико –материалистической теорией, наиболее тесно примыкающей к марксизму. Странно, что это обвинение не предъявлено некоторым другим музейным работникам, которые этого заслуживали бы с большим основанием. Признавая большие заслуги тов. Мануцяна, энергично проводившего общую линию реорганизации и имеющего много других заслуг перед партией и Советской властью, я однако считаю его отношение к тов. Джафар-Заде несправедливым, а его последний приказ–противоречащим прямому смыслу постановления комиссии и юридически не выдерживающим никакой критики. Я сам был членом бригады по обследованию Азгосмузея и высказывал там своё мнение о работниках музея, но к концу обследования я заболел и о дальнейшем направлении дела узнал лишь не так давно. Мое мнение: тов. Исаака Джафар-заде необходимо восстановить в своих правах и приказ тов. Мануцяна отменить.

А. Зифельд,

Ученый секретарь АзГНИИ.

Член АКП (Б) с1915г.

С подлинным верно:

Завком.

**В комиссию по чистке учреждений НКП.**

Исаака Джафар-Заде, научного сотрудника Азгосмузея, археолога по специальности, я лично хорошо знаю по работе с лета 1962 года. Он работал в археологических экспедициях О-ва изучения Азербайджана под руководством проф. И.И.Мещанинова, известного яфетидолога, ближайшего сотрудника академии Н. Я. Марра, был активным членом историко-этнографической секции О-ва, в АзГНИИ состоял научным сотрудником по секции истории материальной культуры. Тов. Джафар-Заде показал себя с наилучшей стороны как раскопщик и археолог, отличивший щепетильной аккуратностью и добросовестностью в работе, и имеет прекрасный отзыв проф. Мещанинова. Как человек тов. Джафар-Заде отличается всегда честностью и добросовестностью, избегал всяких интриг, которые постоянно разъедали О-во изучения Азербайджана. Как специалист тов. Джафар-Заде не замыкался в мертвом гробокопательстве, а расширял свой кругозор чтением литературы, неизменно делал попытки применять методологию исторического материализма к своей работе. В последнее время в Госмузее пошли толки о националистическом уклоне тов. Джафар-Заде. Я затрудняюсь что-либо сказать в отношении музейной работы тов. Джафар-Заде с этой точки зрения, но сам таких явлений не наблюдал. Тов. Джафар-Заде окончил в 1926-27г. Высший пединститут, впоследствии закрытый. В этом институте действительно царил дух мусаватизма, пантюркизма, османизма и арабизма, но как раз тов. Джафар-Заде себя в О-ве изучения Азербайджана, насколько мне пришлось наблюдать его в быту, не показывал националистически-

шовинистических тенденций, а о мусаватистах и т.п. отзывался всегда отрицательно. В своих личных товарищеских связях тов. Джафар-Заде не делал различий между национальностями, и бросаемые ему упреки мне не совсем понятны. К Советской власти у тов. Джафар-Заде более чем, и он стремился вступить в ряды АКП(б),что я нашел нужным поддержать.

А.Р.Зифельд

Член ВКП(б) с 1915г

(п/б 1111663), ученый секретарь АзГНИИ

Верно: делопроизводитель АзГНИИ

**В бюро жалоб ЦКК РКИ тов. Ведзелит**

*От бывш. зав. Сектором кочевого и полукочевого быта и зав. археолог Отделом Азгосмузея*

*Джафар-Заде.*

Заявление

В продолжение моей пятилетней работы научным сотрудником Азгосмузея я относился к своим обязанностям аккуратно, выполнял все задания полностью, с полной марксистской установкой. В течение этого периода было очень много научных и политических осмотров музея с предварительными объяснениями зав. отделов, всегда и всеми мои работы были одобрены. Крупным спорным вопросом в моей работе был процесс выпечки хлеба на “садже” в экспозиции кочевого быта (копию заявления представляю)

Словом, до октября 1930 года я считался одним из основных и ценных работников музея, как по археологии, так и по краеведческой работе. Оказывается, единственным моим недостатком этого периода была моя неосторожность считать интересы музея на первом плане, и я в порядке самокритики выступал против некоторых действий директора: например, за его халатное отношение по устройству музейного фонда, т.к. вместо улучшения его положения он средство музея направил на устройство своей квартиры, в то время как экспонаты музея гибли (представляю копию акта и имеются выводы бригад по обследованию работ музея в связи с чисткой, где ясно видно положение музейного фонда), за отсутствие общей инвентаризации музея, которая является необходимым для контролирования экспонатов музея, за искривление линии единоначалие и за не приобретение редчайших экспонатов, относящихся к истории Азербайджана, и проч. Эта самокритика не понравилась т. Манцуляну С., который решил выжить меня и подал в комиссию по чистке какие-то необоснованные материалы, на основании чего меня вычислили по 3-й категории, мотивируя, будто бы что я аполитичный и не имею марксистской установки в работе. Спрашивается, почему т. С. Мануцян в продолжение 2 лет об этом не говорил в соответствующие учреждения, не снял меня с работы, а между тем организованный мной кочевой и полукочевой сектор остается без изменений до настоящего дня в музее. Не довольствуясь подачей необоснованных материалов, т. С.Мануцян неоднократно публично оскорблял меня не только на общих собраниях, но даже на тех или иных совещаниях музея. Мало того, он угрожал мне, что не допустит меня работать в советских учреждениях.

Желая выяснить свое положение, ибо я уверен, что моя судьба не зависит от т. Мануцяна и что компетентные организации выяснят его, а потом прошу вас расследовать вас причины моего увольнения, назначить комиссию для ознакомления с моими работами и моим отношением к делу.

Прошу также указать мне конкретно, на основании каких фактов комиссия по чистке Госмузея установила мою аполитичность и немарксистскую установку, чтобы я мог не повторять свои ошибки в предстоящей работе.

И.Джафар-Заде

Г.Баку,12 июля  1931 г.

**ЦКК Нарком РКИ тов. В. Эфендиеву**

*От бывшего зав. Сектором кочевого и полукочевого быта Азгосмузея*

*Исаака Джафар-Заде*

Заявление

В связи с обследованием работ Азгосмузея и моими открытыми указаниями на основе самокритике отношение директора Госмузея С. Мануцяна ко мне резко ухудшилось. Считая интересы музея на первом плане, я всегда отмечал те или другие недостатки по музейной работе. Особенно он был недоволен тем, что я выявлял основные недостатки музейной структуры, которые он почему-то не хотел исправлять: например, его халатное отношение к устройству музейного фонда, когда вместо улучшения его положения он средства музея направил на устройство своей квартиры, в то время как экспонаты музея гибли за отсутствие общей инвентаризации музея, которая является необходимым для контролирования экспонатов музея; также я в порядке самокритики выступил за исправление линии единоначалия и за неприобретение редчайших экспонатов, относящихся к истории Азербайджана и пр.

Эта самокритика не понравилась т. Мануцяну С., который решил выжить меня и подал в комиссию по чистке какие-то необоснованные материалы, на основании чего меня вычислили по 3-й категории, и вследствие этого С. Мануцян дал приказ о моём увольнении из Госмузея, не принимая во внимание мою пятилетнюю работу по музейной специальности, когда комиссия своим постановлением не сняла меня с музейной работы.

Желая выяснить свое положение, ибо я уверен, что моя судьба не зависит от. т. Мануцяна и что компетентные организации выяснят его, а потом прошу вас расследовать это дело. Прошу также указать мне конкретно, на основании каких фактов комиссия по чистке Госмузея установила мою

аполитичность и немарксистскую установку, чтобы я мог не повторять свои ошибки в предстоящей работе.

И.Джафар-Заде

**Бригаде по обследованию работ музея**

*Зав. сектором кочевого и полукочевого быта Азгосмузея*

*Исаака Джафар-Заде*

**Заявление**

В связи с обследованием Азгосмузея и моими открытыми указаниями, на основе самокритики отношение директора тов.С. Мануцяна ко мне резко ухудшилось. Считая интересы музея на первом плане, я всегда отмечал те или другие недостатки по музею. Особенно он недоволен тем, что я выявил основные недостатки музейной структуры, которые он до сих пор не хотел исправлять, как то: вопрос инвентаризации, вопрос фонда и др.наградой за такую критику было то, что он начал без основания пачкать меня разными словами, даже в присутствии сотрудников музея. Одно из унизительных слов ,думаю, хорошо известно членам бригады, было связано с т. С. Мануцяном 22 марта с.г. во время своего доклада на общем собрании Госмузея. Если не ошибаюсь, эти слова были выражены так: «Мысль о марксистском методе реорганизации музея ни в коем случае не могла появиться у такого идеологически не выдержанного, чуждого человека, как И. Джафар-Заде; даже этот самый И. Джафар-Заде в последнее время был против такой важнейшей реорганизации, требуемой нашим социалистическим строем».

Теперь я вовсе не собираюсь убедить вас, что реэкспозиция 1928 и крупнейшая ценность настоящей реорганизации принадлежит мне, как это делал т. Мануцян в своем докладе, и он же, описывая важность и ценность этой работы, хотел скрыть под этим занавесом основные недостатки дирекции. Я вполне уверен, что достоинство этих двух перемен в экспозиции Госмузея принадлежит коллективу всех сотрудников музея и помощи некоторых сотрудников О-ва изучения и обследования Азербайджана и АзГНИИ, которые на основе диалектики могли достигнуть таких блестящих результатов. Я, как один из членов вышеупомянутого коллектива, вынужден был осведомить вас о своей доле в указанной работе, для чего представлю вам следующие документы. После ознакомления с ними прошу вашего

ответа тов. Мануцяну на незаслуженное обвинение по отношению ко мне. Чувствуя, что тов. С. Мануцян в последние дни ищет способ отомстить мне за самокритику, вынужден подать вам это заявление.

Документы: 1 Протокол заседания коллегии, где первым мной был сделан доклад о комплексном методе историко-этнографического отдела Госмузея

2 Заявление о повышении квалификации

3 Ходатайство О-ва изучения АССР

4 Отчет об Ольвийской поездке

5 Заявление о комплексной экспозиции и смета

31.03.31г

И.Джафар-Заде.

**В Центральную комиссию по чистке Госаппарата при ЦКК РКИ**

*От бывш. зав. сектора кочевого и полукочевого быта Азгосмузея*

*Джафар-Заде Исаака*

**Заявление**

Ведомственная комиссия по проверке личного состава Азгосмузея постановлением своим от 15/у -31 г. сняла меня с работы по 3-й категории(копию протокола представляю),обвиняя меня в попытке организации в музее мусаватского уголка и в противодействии реорганизации музея.

Выдвинутые против меня обвинения считают неправильными и подлежащими отмене по следующим соображениям.

Начнем с первого обвинения (попытка организации мусаватского уголка). Прежде всего следует сказать, что это обвинение необоснованное. Категорически заявляю, что никогда и негде я не думал организовать такой уголок. На одну минуту допустим, что такое явление имело место. Спрашивается, что в этом предосудительного? Ведь во всех наших центральных музеях отражены при помощи вещественных документов периода бояр, царского самодержавия и разных буржуазных правительских образований во время гражданской войны. Поэтому периода угнетения мусаватом трудящихся Азербайджана, думаю, не должно быть предосудительным. Видимо, и комиссия нашла это обвинение бездоказательным, т.к. в мотивах к своему постановлению о снятии меня указывает лишь на мою аполитичность и отсутствие марксистской установке.

По поводу моего, якобы, ”противодействия к реорганизации музея” должен заявить, что я являюсь инициатором (повторяю, инициатором) этой реорганизации. Впервые вопрос о реорганизации историко-археологического подотдела Госмузея был выдвинут мною, с самого начала 1929 года я вел подготовительную работу к этой реорганизации музея (Прилагаю копию моего заявления директору музея, из которого и усмотрите правильность моих доводов). В том же 1929 году (летом) по приглашению одного из руководителей Ольвийской экспедиции И.Мещанинова я участвовал в раскопках развалин древнегреческого города Ольвия и после окончания работы попутно заехал в Одессу, Киев, Херсон и др. города, где ознакомился с постановкой музейной работы. По возвращении из поездки мной был представлен письменный отчет директору музея, в котором подчеркнул необходимость проведения таковой (прилагаю копию отчета- выписка). Но поскольку необоснованными являлись обвинения, поскольку неожиданными является и мотивировка моего снятия с работы: “аполитичность и отсутствие марксистской установки”. Приводя такую мотивировку, необходимо было бы указать хоть на один факт отсутствия марксистской установки. Это не сделано, факты не приведены и потому невольно напрашивается вывод об искусственности мотивировки постановленными мне обвинениями.

В заключении считаю необходимым сообщить, что в продолжении 5-летней музейной работы я относился к своим служебным обязанностям аккуратно, выполнял все задания полностью, с полной марксистской

установкой. Единственным моим «преступлением» в продолжении вышеуказанного периода являются открытые мои выступления в порядке самокритики,”невзирая на лица” и направленные против директора Госмузея за его халатное отношение к устройству музейного фонда, за неприобретение исторических предметов, относящихся к истории Азербайджана, за задержку приведения общей инвентаризации и за искривление линии единоначалия. Эта самокритика не нравилась директору музея, который и решил меня выжить, подав в комиссию какие-то материалы на меня, которая видимо, не отнеслась с должной критической оценкой. Кроме того, для характеристики того же директора и его отношения ко мне небезынтересно указать, что через три дня после объявления постановление комиссии не говорят о снятии меня с музейной работы, ибо оно обжаловано мной (представляю копию).

Ввиду всего изложенного прошу пересмотреть мои дела и восстановить меня в правах и в должности зав.сектором кочевого и полукочевого быта, т.к. я создал и организовал этот сектор и мною составлен план дальнейшей работы пополнение экспозиции указанного сектора. При разборе моего дела прошу вызвать меня для дачи объяснения и представление необходимых документов

При сем прилагаю отзыв о моих работах:

1 Отзыв О-ва обсл. и изуч. Азербайджана(1926г.)
2 Отзыв И. Мещанинова по докладной записке.
3 Отзыв ученого секретаря АзГНИИ А. Зильфельда.

Г.Баку,16/у-31г.

Джафар-Заде.

**Директору АзГОСМУЗЕЯ тов. МАНУЦЯНУ.**

*Зав. сектором кочевого и полукочевого быта*

*Исаак Джафар-Заде*

**Заявление**

В связи с приказом, данным Вами 1/1у с.г. на основании выводов рабочей бригады по чистке, в котором в 7-ом пункте говорится: «момент хлебопечения в секторе кочевого хозяйства упраздняется, предлагается зав. сектором манекен женщины передать в распоряжение тов. Шарифова». Должен довести до вашего сведения, что желательно до выяснения вопроса оставить экспозицию временно на место, т.к. научный спор между мной, с одной стороны, и проф. Зуммер и отчасти проф. Пчелкиным, с другой, возникшей на основе выпечки хлеба на садже, до сих пор не разрешен. Для разрешения данного вопроса, в начале дела, я обратился в дирекцию с просьбой созвать совместное заседание с участием научных сил историко-этнографического отдела АзГНИИ и активных членов О-ва изучения и обследования Азербайджана, после чего нам всем ясна была бы положительная или отрицательная сторона момента хлебопечения.

Теперь же, когда организатору кочевого и полукочевого сектора, не вполне ясна отрицательная сторона выставленного бытового момента выпечки хлеба, который теснейшим образом связан с хозяйством кочевника. Желая в дальнейшем не повторить такой “ошибки”, какую отмечают указанные лица, а также желая не только обменяться мнениями по этому вопросу, но получить дальнейшие указания, убедительно прошу Вас созвать таковое заседание в ближайшее время.

Зав. сектором кочевого и полукочевого быта.

2/1у-31г.

И.Джафар-Заде.

**Отзыв-заключение**

**о научной работе И.М.Джафарзаде**

Ученый совет института им. И. А. Джавахишвили АН Грузинской ССР поддерживает инициативу по вопросу о присуждении без защиты диссертации ученой степени доктора исторических наук одному из старейших и плодотворнейших ученых Азербайджана в области культуры родного края, руководителю сектора Института истории АН Азербайджанской ССР, кандидату исторических наук Джафарзаде Исаку Мамедовичу.

Общеизвестны заслуги И.М.Джафарзаде в деле выявления, систематизации, научного осмысления и публикации памятников материальной и духовной культуры азербайджанского народа. С его именем связано проведение(совместно и под руководством академика И.И. Мещанинова) первых в Азербайджане работ по учету, картированию и изучению циклопических сооружений, этих замечательных памятников монументальной архитектуры древнейшего населения Закавказья и Азербайджана, в частности. Заслуживают особого внимания начатые еще в 1933г. работы И. М. Джафарзаде по выявлению культурно-экономической роли и выяснению исторических судеб таких средневековых азербайджанских городов, какими являлись Оренкала, Старая Ганджа и др. "историко-археологический очерк Старый Ганджа” (Баку,1947г.) и сейчас остается одним из значительных исследований автора.

Много усилий приложил И.М Джафарзаде к изучению сложных комплексов наскальных изображений Кобыстана. Сбор, учёт ,научное воспроизведение, классификация, стилистический анализ и смысловое толкование, общая датировка и хронологическое членение огромного фактического материала этого выдающего памятника изобразительного искусства составили большие трудности, с которыми тов. Джафарзаде нужно сказать, справился с честью (см. “Наскальные изображения Кобыстана”. Труды института истории Академии наук Азерб. ССР, стр.20-79).

Свой многолетний опыт и большое значение И. М. Джафарзаде приходилось излагать, помимо научных отчетов и монографии, в виде очерков и отдельных глав по истории Азербайджана,1956 г., “Древняя история Азербайджана по Археологическим данным”,1957г.) и др.

В последние годы научные интересы И.М. Джафарзаде охватили мусульманские погребальные памятники древнего Апшерона, по которым им, совместно с С.К.Джафарзаде, фиксирован, систематизирован и истолкован огромный фактический материал, весьма важный для истории этой части обширного Бакинского некрополя.

Очень много сделал И. М. Джафарзаде для подготовки и выращивания национальных научных кадров, насчитывающих уже несколько десятков археологов, этнографов, эпиграфистов, нумизматов и других специалистов по древней истории Азербайджана и Кавказа вообще.

Вышеизложенное еще раз позволяет высказаться за возбуждение ходатайства о присуждении И.М. Джафарзаде ученый степени доктора исторических наук.

Директор Института истории имени

И.А. Джавахишвили АН ГССР

Верно (акад. АН Груз. ССР Н.А.Бердзенишвили)

**Докладная записка**

**По Историко-Этнографическому**

**Отделению Аз.Г.Н.И.И проф. Мещанинова**

И.Джафарзаде является законченным специалистом по так называемым доисторическим памятникам Азербайджана, как участник целого ряда экспедиций, он прекрасно усвоил метод полевых работ и в этом

отношении, несомненно, уже  стоит в первых рядах научных исследователей масштаба всего Закавказья. Исключительно серьезный и вдумчивый работник, прекрасно знающий материал по своей специальности и знакомый с литературой предмета. Он, И.Джафар-Заде, сознательно  проводит в жизнь новый для научной работы методологический подход и уже имеет ряд законных научных  исследований, впервые осветивших отдельные периоды с выяснением их социально-экономического облика. Так, между прочим, им установлен характер керамических изделий оседлого населения, следовательно,  земледельческого, в первом  тысячелетии до начала н.э. /Ялойлу-тепе/. Им проработан материал по погребениям полукочевого населения предгорья Малого Кавказа /Ходжалы в Нагорном Карабахе/ и сделан за период с 1925 года.

П. п. Руководитель секции И.Мещанинов.

“3”Ноября 1929 года

С подлинным верно:

Зав. канц. АзГНИИ – подпись

Круглая печать

Верно

**ТОВ. МАНЦУЯНУ**

Снятие Джафар-заде с Госмузея неправильно. Постановлением комиссии по чистке он снимается с работы в качестве зав. сектором, но оставляется по своей специальности (археологом).

Пред. Комиссии М.Мамедли

Печать. С подлинным верно:

Управделами ЦП Рабпрос      подпись     /Мехтиева/

**ВЫПИСКА**

Из приказа за №18 от 8-го мая-31г.

Тов. Джафар-Заде И. снят с работы, согласно постановлением

Комиссии по чистке, о снятии его по 3 категории.

Директор                    Мануцян

Выписка верна:     Делопроизводитель  музея

/Бахмутская/          подпись

***Tərtib etdi:***

***Aidə Əkbər qızı Məmmədova***

# XRONİKA, RƏYLƏR, XƏBƏRLƏR
# CHRONICLES, REVIEWS, INFORMATIONS
# ХРОНИКА, РЕЦЕНЗИИ, СООБЩЕНИЯ

**20-24 iyul 2011-ci il tarixində Naxçıvanda "Naxçıvan:ilk yaşayış və şəhərsalma yeri kimi" mövzusunda Beynəlxalq Elmi Simpozium keçirilmişdir.** Son illərdə Naxçıvan tarixinin öyrənilməsinə, əsaslı tədqiq edilməsinə xüsusi diqqət yetirilir və bu sahədə mühüm işlər görülür. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinin 2011-ci il iyunun 7-də imzalanmış xüsusi Sərancamına əsasən 2011-ci il 20-24 iyul tarixlərində Naxçıvanda "Naxçıvan:ilk yaşayış və şəhərsalma yeri kimi" mövzusunda Beynəlxalq Elmi Simpozium keçirilmişdir.

Simpoziumda Azərbaycanla yanaşı dünyanın bir sıra ölkələrindən tarixçi alimlər iştirak etmişlər. İyulun 21-də Beynəlxalq Simpoziumun açılışı olmuşdur. Açılışda AMEA Tarix İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Yaqub Mahmudov "Naxçıvan: ən qədim yaşayış məskəni", AMEA-nın müxbir üzvü Vəli Əliyev "Naxçıvanın ilkin şəhər mədəniyyəti", Akademik İsa Həbibbəyli "Naxçıvan şəhərinin tarixi: elmdə atılmış addımlar, dərinliklərə doğru baxış və kompleks yanaşma zərurəti", Fransadan Doç. Dr. Catherine Marro "Dünyanın ən qədim duz mədəni: Duzdağda arxeoloji tədqiqatlar", Amerika Birləşmiş Ştatlarından Doç. Dr. Lauren Ristvet, "Oğlanqalada Azərbaycan-Amerika qazıntıları (2008-2011-ci illər)", Türkiyədən Prof. Dr. Oktay Belli "Mədəniyyətin beşiyi Naxçıvan", Ukraynadan Prof. Dr. Vitali Otroşenko "Yaşayış məskənlərinin qədim tarixinin müəyyənləşdirilməsində qayaüstü təsvirlərdəki motivlərin rolu və əhəmiyyəti" mövzusunda elmi məruzələr etmişlər. Beynəlxalq Simpozium dörd bölmə iclasında- "Naxçıvan diyarı bəşər sivilizasiyasının ilk beşiklərindən biri kimi", "Naxçıvan: ilkin şəhər mədəniyyətinin yarandığı yer", "Naxçıvanın arxeoloji abidələr" və "Naxçıvan mədəniyyəti və əlaqələri" öz işini davam etdirmişdir. Elmi məruzələr dinlənilmiş, müzakirələr aparılmışdır. Bu simpoziumda Türkiyə, İran, Amerika Birləşmiş Ştatları, Ukrayna və Fransadan 13, Azərbaycandan 30, o cümlədən Bakıdan 10 tarixçi alim iştirak etmişlər. Beynəlxalq

Simpoziumun yekun iclası Ordubad rayonundakı Gəmiqaya abidəsində keçirilmişdir. Burada qonaqlar Gəmiqaya qayaüstü təsvirləri ilə yerindəcə tanış olmuşlar. Orada keçirilən yekun iclasında xarici ölkə alimləri Simpoziumun yüksək səviyyədə təşkil olunmasını, "Gəmiqaya" tarixi abidəsinin YUNESKO-nun Dünya İrsi Siyahısına daxil edilməsinin vacibliyini vurğulamışlar.

*Toğrul Xəlilov*



**26-29 iyul 2011-ci il tarixdə Ukraynanın paytaxtı Kiyevdə və Çerkasovsk vilayətinin Talyanki kəndində «Cənub-Şərqi Avropanın ən qədim əkinçiləri» mövzusunda beynəlxalq elmi konfrans keçirildi.** Konfrans Cənub Şərqi Avropanın ən qədim əkinçilik mədəniyyəti hesab olunan Tripolye mədəniyyətinə aid Talyanki abidəsində ilk arxeoloji qazıntıların başlanmasının 30 illiyinə həsr olunmuşdu.

100 ildən artıqdır ki, Tripolye mədəniyyəti özünün silsilə problemləri ilə dünya arxeoloq-alimlərinin diqqət mərkəzində qalmaqda davam edir. Keçən müddətdə bu mədəniyyətə aid yüzlərcə arxeoloji komplekslərin üzə çıxarılması ilə həmin problemlərin həlli üçün yeni perspektivlər açılmışdır. Təsadüfi deyil ki, konfransın işində yerli arxeoloq-alimlərlə yanaşı Rusiya, ABŞ, Rumıniya, Bolqarıstan, Moldova, Çin və Azərbaycandan dəvət olunmuş alimlər iştirak etmişlər. Azərbaycan konfransda Bakı Dövlət Universitetinin professoru, t.e.d Qüdrət İsmayılzadənin «Avrasiyanın erkən əkinçilik tayfalarının keramikasında günəş simvolları» adlı məruzəsi ilə təmsil olunmuşdu.

Konfrans Talyanki aqro kollecinin binasında açıldı. Konfransın açılış günü azərbaycanlı alim Qüdrət İsmayılzadə plenar iclasda öz məruzəsi ilə çıxış etdi, tutarlı arxeoloji dəlillərə əsaslanaraq qədim əkinçilik mədəniyyətləri arasında iqtisadi, mədəni oxşarlıqlar haqqında söhbət açdı. Məruzə maraqla qarşılandı.

Konfrans günlərində qonaqlar ətraf yerlərin arxeoloci abidələri, muzeyləri, eləcə də mədəni mərkəzləri ilə tanış oldular. Vilayətin məşhur «Dendroparkı» qonaqlarda xoş təəssürat yaratdı. Konfransda oxunan bütün məruzələrin mətnləri rus, ukrayna və ingilis dillərində çap olundu.

***Qüdrət İsmayılzadə***